**Gülәbatın Mustafaqızı**
**Salatın Әhmәdli**

# HӘR KİM YÜZ İL UNUTMASA...

**Bakı – «Elm» - 2011**
***AMEA Folklor İnstitutu Elmi Şurasının qәrarı***

*ilə çap olunur*

Redaktor: Oruc ƏLİYEV
filologiya üzrə fəlsəfə doktoru

Rəyçilər: Nəriman HƏSƏNZADƏ
Xalq şairi

İsmayıl MƏMMƏDOV
filologiya elmləri doktoru, professor

Fəridə LƏMAN
filologiya üzrə fəlsəfə doktoru

Rüstəm KAMAL
filologiya üzrə fəlsəfə doktoru

**Güləbatın Mustafaqızı, Salatın Əhmədli.**
**Hər kim yüz il unutmasa...**
**Bakı-«Elm»-2011, 304 səh.**

**İSBN: 978-9952-453-42-3**

Kitabın çap olunmasının təşəbbüsçüsü
"Kitab Evi" İctimai Birliyidir

Kitabın çapında köməkliyinə görə
Arif Yunus oğluna minnətdarıq.

**4604000000**
**655(07)-2011**

# MÜNDƏRİCAT

Günahmı? Savabmı?........................................5
Gəl anama dəymə, dünya………………………...22
Dünyadan bir ana köçdü………………………23
Qaynar söz çeşməsi……………………………..24
Nəğməkar ananın qəlb əmanəti………………...29
İnanclar, sınamalar…………………………..33
Alqışlar, dualar………………………………41
Andlar…………………………………………..49
Atalar sözləri, deyimlər……………………....51
Bir bayatı çağırdım…………………………..65
Tırınqılar, qımqımalar………………………97
Bu balama qurban .........................................101
Tap-tapmaca ..................................................107
Belə rəvayət edirlər ki…………………………115
Göydən üç alma düşdü………………………..171
Bəzəmələr………………………………………259
Yaddaşın sehri, sözün sirri……………………297
Anam mənim - ömür yükü, söz yükü…………300



***Bir-birindən xəbərsiz dünyadan köçmüş anam Güləbatın xanıma və qardaşım Yunusun əziz xatirəsinə***

## GÜNAHMI?
## SAVABMI?

II Dünya müharibəsinin qızğın çağları idi. Balaca bir kənddə, balaca bir evdə ana-bala baş-başa verib dolanırdı. Evin başıpapaqlısı qanlı-qadalı müharibədə canı bahasına vuruşurdu. Böyük Vətən adlandırılan Rusiya torpaqları uğrunda ölüm-dirim mübarizəsi gedirdi. Sağ qalmaq, müharibədən salamat qayıtmaq hər kəsə nəsib olmurdu.

Ana-bala gecəni gündüzə qatıb ər yolu, ata yolu gözləyirdilər. Yaşamaq lazım idi. Yaşamaq üçün çörək tapmaq lazım idi. Çörək tapmaq üçün çalışmaq, durub-dayanmadan, dincəlmədən, yatmadan işləmək, yenə də işləmək lazım idi. Bu, müharibə illərinin yazılmamış qanunlarından idi. Kişilər cəbhədə idilər. Kolxozun bütün işləri arvadların, uşaqların, qocaların incə, zərif və zəif çiyinlərində bərqərar olmuşdu.

Ana-bala da, o birilər kimi işləyir, həm özlərinə gün-dirrik yaradırdılar, həm də müharibədə vuruşan əsgərlər üçün yavanlıq, pal-paltar göndərirdilər.

Balaca Yunusun anası gecə-gündüz kolxoz çöllərində işləsə də, o, məktəbindən bir gün də olsa qalmır, dərslərini əla oxuyurdu. Anası Güləbatın «staxanovçu»

idi, qoçaq idi, kolxozun hər işində birinci idi. Odur ki, onun əməkgünü həmişə bol olurdu, evindən taxıl əksik olmurdu. Ana vaxt tapan kimi evinə qaçır, sac asıb fətir bişirirdi. Axırda isə oğlunun xoşladığı xamralı çörəyindən bişirib dərin cama doğrayır, içinə nəhrə yağı qatıb isti çörəkdə əzir və oğluna döyməc düzəldirdi. Oğlu döyməc dürməyini ləzzətlə dişləyib yoldaşlarının yanına qaçırdı. Atalar düz deyib: Uşaq atadan yox, anadan yetim qalar. Balaca Yunus atasız olduğunu hiss etməzdi. Anası ona həm ata, həm ana idi. Anası evdə qalanda o, özünü çox bəxtəvər sanır, gecə onun isti qucağına sığınaraq şirin yuxuya gedirdi. Yuxuda dadlı-duzlu, rəngli yuxular görürdü. Bütün gördüyü yuxularının hamısı bir sonluqla qurtarırdı: onu anasından zorla ayırıb göylərə aparırlar. O, göydə xeyli qanad çalar, aşağılara, anasının yanına qayıtmaq istəyirdi, ancaq ona imkan vermirdilər. Hər dəfə də yuxunun təsirindən hövlank oyanır, gördüyü yuxusunu anasına danışır, cavab üçün gözlərini onun ağzına dikirdi. Anası ona təskinlik verib deyirdi: "Nə gözəl yuxu görübsən, dərdin alım. Sən oxuyacaqsan, böyük adam olacaqsan. Yuxuda gəzdiyin göylər o deməkdir ki, sən vəzifə sahibi olacaqsan, yuxarılarda oturacaqsan. Ona görə də dərslərini yaxşı oxumalısan". Ana oğlunun gözlərindən öpür, onu sinəsinə çəkib başını tumarlayır, gözləri isə ixtiyarsız yol çəkirdi.

Yunus sevincək yerindən qalxar, səhər çayını-çörəyini yeyər, yoldaşlarına qoşulub məktəbə tələsərdi. İllər beləcə bir-birini qovdu. Yunis məktəbi bitirib əsgəri xidmətə yola düşdü. Fikirləşdi ki, əsgəri xidmətini başa vurduqdan sonra sənədlərini hazırlayıb universitetin riyaziyyat fakültəsinə verər; o, məktəbin ən güclü riyaziyyatçı şagirdi idi.

Üç illik əsgəri xidmət başa çatdı. Yunus doğma kəndinə qayıtdı. Bir az dincəlməyi qərara aldı. Onsuz da bu il universitetə gedə bilməyəcək. Hələlik işləyər, yayda qəbul üçün Bakıya gedər.

O, kənddə işə düzəldi. Səhərlər yuxudan durub səhər yeməyi yeyər, anasının günorta üçün düzəltdiyi boxçasını da götürüb işə gedərdi. Yaman sürücülük həvəsində idi. Maaşı ancaq velosiped almağa çatırdı. Özü üçün bir velosiped də almışdı. Hər gün «ceyran» adlandırdığı velosipedinə oturub kəndin kənarında yerləşən iş yerinə gedirdi.

Yolu kəndin ortasından keçirdi. Bir dəfə gözü qonşu həyətdə, tut ağacının altında salınmış palaz üstündə oturub kitab oxuyan qıza sataşdı. Bu hal bir neçə dəfə təkrar olundu. Qonşu qızın adını da öyrənmişdi - Sona. Sona orta məktəbdə oxuyurdu. Yunus ona vurulmuşdu, gecəsi-gündüzü yox idi. Oxumaq, qəbul imtahanlarına hazırlaşmaq da yadından çıxmışdı. Onun yerini Sona ilə danışmaq, kəlmə kəsmək arzusu baş qaldırmışdı. Sevgisini ona bildirəndə Sona oxumaq istəyini demişdi. Yunusun sevgisi o

qədər çılğın idi ki, sevdiyi qızın istəyilə hesablaşmadı. Vaxtsız gəlmiş sevgi onu da, Sonanı da ali təhsil almağa qoymadı. ...Toylarının onuncu ildönümündə beşinci uşaqları doğuldu. Böyük arzularla, ümidlərlə yaşayan gənc oğlan və gənc qız həyat burulğanında çabalamağa başladılar; beş uşağı saxlamaq üçün hər işə getdilər. Çalışdılar, durmadan işlədilər, uşaqları böyütdülər. Oxuyub müəllim olmaq arzuları həmişəlik olaraq ürəklərinin dərinliklərinə gömüldü.

1988-ci il hadisələri başladı. Mənfur qonşularımız olan ermənilərin xəstə təxəyyüllərindəki dənizdən-dənizə olan torpaqları Ermənistana qatmaqla «Böyük Ermənistan»yaratmaq arzuları yenidən baş qaldırdı. Keçmiş sovet məkanını nümayiş, tətil dalğaları bürüdü. SSRİ təməlindən laxladı. SSRİ-nin tərkibindəki respublikalar azadlıq, müstəqillik uğrunda mübarizəyə başladı. Sovet imperiyasına son qoyuldu. Hər yerdə nizamsızlıq, anarxiya hökm sürürdü. Ölkə xaos içində idi. 70 il davam edən Sovet imperiyasının Zaqafqaziyada yerləşən ən böyük hərbi bazası yüksək hərbi rütbəli zabitlər tərəfindən satılmağa başlandı. Ən çox silah-sursat ermənilərə satıldı - özü də yüksək məbləğlərə. Öz işlərini ört-basdır etmək istəyən hərbiçi generallar talan edilib satılmış silah bazasını partlatmaq qərarına gəldilər. Qəddar hərbiçilərin bu əməli sayəsində neçə ətraf

kəndlər zərər çəkdi. İnsanlar maddi zərərdən çox, mənəvi zərbəyə sinə gərməli oldular. Neçə ailə gözü-yaşlı qaldı. Çox sayda insan həyatı məhv oldu. Evlər uçdu, həyətlər dağıldı. Adamlar arasına qorxu, vahimə düşdü. Hamı qaçıb canını qurtarmağa salışırdı. Bazadan «uçan» raket başlıqları yerə düşərək partlayırdı. Bundan nə qədər insan şikəst oldu.

...Ölənlərdən biri də Yunusun böyük oğlu, ilk nübarı, 39 yaşlı İsa idi. İsa nənə-babasının sevimli nəvəsi idi. Məktəb illəri müəllimlərinin, böyüyəndən sonra kəndin sevimlisi oldu. İsa kəndin hər işinə yarayırdı. Hamının qardaşı, oğlu idi. İsanın ölümü kəndin faciəsi idi. Hamı ona yas saxladı.

Yunusun ürəyinin telləri qırıldı, yandı, külə döndü, beli ikiqat əyildi, üz-gözünü saqqal basdı. Oğlunun faciəli ölümü onun ömrünü, həyatını on il geri atdı. O gündən ağır xəstəliyə düçar oldu. Oğlunun ətrini nəvələrindən almaqla kədərini ovutmaq istədi. Bu, o istək, o murad olmadı. Dərdini içinə saldı, təkbaşına çəkdi, heç kimə demədən, heç kimə şikayətlənmədən. Dərd onun içini ac yalquzaq kimi diddi, dağıtdı, sonra yatağa saldı.

«Anan ölsün, ay Yunus, niyə bu günə düşdün? Pəhləvan cüssən niyə belə yazıqlaşıb, niyə yumağa dönmüsən? Anan gözlərinin qadasın alsın, Allah sənə qıymasın, dərdin mənə gəlsin».

…Ahıl yaşlı oğlu qapıdan çıxıb harasa getmək istəyəndə ana daldan onu çağırır, geri dönməyini tələb edirdi. Oğul məcbur olub geri qayıdırdı. Ana onu danlayır:

- Ay bala, əynini qalın elə, görmürsən, şaxta adamı kəsir, soyuqlayarsan axı?!

- Ana, əynim qalındır, üşümürəm.

- Yox, üstən də paltonu gey, canın isti olsun.

Oğul istəməsə də, ananın sözünü yerə salmır, paltarının üstündən bir şey geyinib çıxır.

Nəvələri ana-balanın söhbətini eşidib gülüşürlər:

- Ata, sən bizə deyirsən əyninizi geyinin, ana da sənə. Nə qəribədir?!

- Qəribə heç nə yoxdur, a qızım. Siz mənim uşaqlarımsınız, mən də onun uşağıyam.

Bəzən elə olurdu ki. yemək zamanı ana qabağındakı yeməyin yararlı tikələrini oğlunun boşqabına qoyurdu. Oğlu etiraz eləsə də ananın qəlbini sındırmır, onun verdiyi tikələri də yeyirdi. Ana cibində gizlətdiyi konfeti saxlayıb ona verirdi.

Ana elə zənn edirdi ki, oğlu hələ də balaca, dəcəl Yunusdur.

…Ana iki il idi ki, yatağa düşmüşdü. Özü yataq xəstəsi ola-ola özündən 500 km uzaqda yaşayan oğluna yalvarıb-yaxarır, ondan sağalıb ayağa durmağını xahiş edir. Ana xəstə oğluna gah bayatı deyir, gah tırınqqı çalır, xəyalən onu ovundurmaq istəyirdi.

Oğlu onu eşitmirdi. Ancaq fikri-xəyalı 70 il bir yerdə, bir damın altında yaşadığı anasının yanında idi. Ananın bu il 100 yaşı tamam olurdu. Bu münasibətlə Azərbaycan Televiziyasının birinci kanalı uzunömürlülər silsiləsindən televiziya filmi çəkmişdilər. İki ilin hicranını yaşayan oğul anasını televiziya ekranında görmüş, özünü saxlaya bilməyib ağlamışdı. Veriliş bitəndən sonra üzünü yanında oturmuş arvadına tutub demişdi: «Anama bir şey olsa, özümü öldürərəm».

...Ana yataqda oğluna dua edir, Allahdan ona can sağlığı diləyir: «Ay Allah, sən ona rəhm et, ona qıyma, mənim cənazəm onun çiynində getsin. Oğluma bir şey olsa məni də öldür. Ancaq elə et ki, mən ondan qabaq ölüm, oğul dağını görməyim».

Ağzı dualı ananın öz dərdi yadından çıxıb, oğul dərdi çəkirdi. Yuxuda olanda belə, oğlu Yunusla danışırdı. Yuxudan duranda evini-eşiyini, oğlunu istəyirdi. Ana baladan xəbərsiz, bala anadan xəbərsiz göz görə-görə əriyirdi. Onların 70 illik birgə keçən həyat telləri iki il idi ki, qırılmışdı. Onların ana-bala məhəbbəti dönüb dost-musaib, bacı-qardaş, həmyaşıd, həmfikir məhəbbətinə çevrilmişdi. Onların məhəbbəti ilahi eşq kimi göylərə yüksəlmişdi. Hər ikisi bu məhəbbətin oduna yanır, şam kimi əriyirdi.

Oğul can üstədir, onun oğul-uşaqları, bacısı onun başının üstünü kəsdirub durmuşdular. Xısın-xısın, kirimişcə

ağlayırdılar. Ananınsa oğlundan xəbəri yox idi. Bilmirdi ki, həyatının bəzəyi, mənası olan oğlu ağır, gedər-gəlməz yoldadır. Qohumların hamısı burdadır, bircə sevimli anasından başqa. Ananı aldadıb kəndə getmişdilər, guya qohum toyuna gedirlər. Ananın heç ağlına da gəlməz ki, sevimli oğlu gözlərini bu dünyaya əbədi yummaq üzrədir.

… Ana gecədən xeyli keçmiş yuxuya getdi. Yuxusunu qarışdırdı, qəribə yuxu gördü. Yuxunu o qədər aydın görmüşdü ki, onun təsirindən hövlank ayıldı, gözlərini dolandırıb pəncərədən çölə baxdı. Hələ qaranlıq idi, səhərin açılmasına xeyli vardı. Yanındakı çarpayıda yatan Nərgizə tərəf boylandı. Onun qalxmasını gözləyə bilməyib onu səslədi. Səsə Nərgiz oyandı və ayağa qalxıb ananın yanına gəldi, soruşdu:

- Hə, ana, nə istəyirsən, nə olub?

Ana qırıq-qırıq cavab verdi:

- Heç ...yuxuda Yunusu gördüm. Əynində ağ parçadan kostyum geyinmişdi. Gördüm ki, anası ölmüş, top oynayır. Axı, sən bəlkə də bilmirsən, anası kor qalmış futbol oynamağı xoşlayırdı. İndə də gördüm futbol oynayır, top gəldi, mənim üzümə dəydi, üzümdə partladı. Buna da o, bərkdən güldü. Nənəsi ölmüş İsa da kənarda durub atasının oynuna tamaşa edirdi. O, əyninə təp-təzə kostyum geyinmiş, başına qulaqlı papaq qoymuşdu. Məlul-müşkül kənarda dayanıb atasını gözləyirdi. Onun atasına zillənmiş gözləri yol çəkirdi. Elə bu dəmdə qonşu

Abbas (Allah ona rəhmət eləsin!) gəlib çıxdı və Yunusa üzünü tutub bərkdən dedi: Ay Yunus, gəl çıx da. Bayaqdan səni gözləyirik axı. Çıxaq gedək, işimiz-gücümüz töküldü qaldı.

Ana fikrini toplayıb yenidən dilləndi:

- Mən Yunusun qolundan tutmaq istəyəndə yuxudan ayıldım... Allah xeyrə calasın, bu nə yuxu idi, mən gördüm. Tez səhər açılsaydı, bir kəndlə danışardın, görək nə var, nə yox? Yunus nə təhərdir?

Nərgiz yaşarmış gözlərini silib «yaxşı» dedi.

Oğul isə anadan xəbərsiz can verirdi. Artıq molla da gəlmişdi. Dəfn mərasiminə hazırlıq gedirdi. Qəbristanlıqda qəbr yeri müəyyən olunmuşdu. Ana oğlunun həsrətlə yol çəkən gözlərini görmürdü. Oğlunun gözləri yarıyumulu idi. Kəndin ağsaqqallarından biri məsləhət gördü ki, ananın şəklini oğlunun sinəsi üstünə qoysunlar. Ananın şəklini sinəsi üstündə hiss edən oğul əbədi olaraq gözlərini bu dünyaya yumdu.

...Ana axşamçağı yatağında mürgüləmişdi. Yuxudan səksəkəli oyandı. Ətrafına baxıb döyükdü. Urəyi sancdı, qulaqları güyüldədi. Bir xeyli susub durdu. Yenidən uzandı, bu dəfə üzünü divara tərəf çevirdi. O, axşam yeməyindən imtina etdi.

Ananın qızı, nəvələri oğulun yeddisini verib qayıtmışdılar. Ana onları görən kimi yerindən dikəldi, nigaran baxışlarla onları

süzdü, oğlunu xəbər aldı. Qızlar ananı aldadaraq «oğlun lap yaxşıdır» dedilər. Ana oğlundan daha çox xəbər tutmaq istədi: «Danışa bilirmi, yeriyə bilirmi?» Qızlar boğazlarına tıxanmış qəhəri güc-bəla ilə udaraq «hər şey yaxşıdır» dedilər. Ana inandı. Toyu xəbər aldı: Toy necə keçdi? Kimlər iştirak edirdi? «Hamı» deyə qızlar dilini dişlərinə sıxıb cavab verdilər. Onlar yalan danışmırdılar. Bütün qohum-əqrəba ilə görüşmüşdülər. Ən ucqar yerdə yaşayan qohumlar da yasa gəlmişdi. İllərlə bir-birini görə bilməyən qohumlar yasda görüşürdülər. Qohumların görüşməsinə ana ürəkdən sevindi. Həmişə deyirdi: Qohumun pisinə də, yaxşısına da qurban olum. Bir-birinizə gedin, gəlin, yoxlayın, bir-birinizi unutmayın.

Ana «toyun» yaxşı keçməsinə sevinsə də həmin gündən halı dəyişdi. Yeməyi azaldı, iştahası kəsildi. Hər gün qızına, nəvələrinə deyirdi ki, kəndə zəng çalın, hal-əhval tutun, yuxumu qarışdırmışam.

Bir gün qızı çaşaraq anaya dedi ki, zəng etdim, Yunusla danışdım, sənə salam göndərdi. Ana yerindən dikəldi:

- Necə, nə dedin? Yunus danışır, dili açılıb?

Qız bilmədi nə desin. Yalanını ört-basdır etmək istədi:

- Belə də, bir təhər başa düşdüm ki, səni soruşur.

Qız sözünü qurtarar-qurtarmaz otaqdan çıxmağa çalışdı. Anası onu çağırsa da geri dönmədi.

Zavallı ana, hardan biləydi ki, istəkli övladının bu gün bir ayı tamam olur. Ananın halı yenə dəyişdi. Həmin axşam şamsız yatdı.

...Ana yatağa təzəcə yıxılmışdı. Oğlu ananın yıxılıb yatağa düşdüyünü eşitdi, hönkürüb ağladı. Axşamı birtəhər gözlədi, Bakıya gedən qatara bilet alıb anasının yanına tələsdi. Evə qalxan pilləkanları zorla qalxdı, xəstəlik öz işini görürdü. Qapını bacısı açdı.

- Anama nə olub, niyə yıxıldı?

Bacı dillənmədi, kənara çəkilib qardaşına yol verdi. Oğul birbaşa ananın yanına gəldi, üstünə sarı əyilib onu qucaqladı. Ana-bala bir-birilərini duz kimi yalamağa başladılar. Oğul anasının bu yatışına dözəmmirdi. Gözünün on yerindən qan-yaş tökürdü. Ana heç vaxt xəstələnməzdi. Özü demişkən "Nikolay" yağı" yemişdi. Dağda-bağda gəzib dolanmışdı. Yediyi-içdiyi saf, təmiz və təzə olurdu. Ürəyi, həkimlərin dediyinə görə cavan qız uşağının ürəyi kimi idi. Daxili orqanları sağlam idi. Xəstəlik nə olduğunu bilməzdi. Uşaqlarına həmişə deyirdi: sağlamlıqda özümə oxşayın.

Ananın qızı bir tərəfdə boynunu büküb ana-balanın həsrətli görüşünə tamaşa edirdi. Qız ürəkdağlayan bu mənzərədən ixtiyarsız axan göz yaşlarını belə silmirdi.

Oğul ağlayır, ananı öpüşlərə qərq edirdi. Ana xasiyyətcə həlim olsa da, çox dözümlü və təmkinli idi. Onun gözləri heç nəmçiməmişdi də. Oğluna ürək-dirək verərək onu səbirli olmağa çağırırdı:

- Yunus, ağlama, ağlamaq olmaz. Kişi ağlamaz, kişi mərd olar, dözümlü olar. Mən həyatın hər üzünü görmüşəm. Bu da mənim axırıncı müsibətimdir. Özünü ələ al. De görüm, özün necəsən? Həkimlər nə deyir? Uşaqlar dərmanını vaxtlı-vaxtında alırlarmı?

Oğul ananı eşitsə də ona cavab verə bilmir. Hönkür-hönkür ağlayırdı. Ana ona öyüd-nəsihət verə-verə oğlunun alnından öpür, onu ovundurmağa çalışırdı.

Bu vüsal onların axırıncı vüsalı oldu. Bu görüşdən iki il sonra onlar əbədi ayrılsalar da, o biri dünyada yenidən qovuşdular.

...Ananın halı gah yaxşılaşırdı, gah da pisləşirdi. Oğlunun həyatdan getməsinin üç ayına az qalmışdı. Ana hey «Yunus, Yunus» deyə pıçıldayırdı. Birdən onun bədənini soyuq tər basdı. Puçur-puçur tər dənələri yanağından boğazına doğru axmağa başladı. Bir anın içində gözlərinin altı qançır bağladı. Dodaqları göm-göy göyərdi. Gözlərini geniş açıb ətrafına baxdı, xırıldamağa başladı. Gözləri az qala hədəqəsindən çıxacaqdı. Te-tez başını sağa-sola döndərərək gözlərilə kimisə axtarırdı. Bir az keçmiş əlləri də hərəkətə gəldi. Əllərini sinəsinə tərəf uzadıb elə bil kimisə qovmaq istəyirdi. Hərəkət

etdiyindən bədəni suya batmışdı. Qızı, nəvələri ətrafında idi. Qızı yavaşca soruşdu:

- Ana, niyə belə edirsən? Nə istəyirsən, kimi istəyirsən?

Qızın məqsədi vardı. Bilmək istəyirdi görsün, ananın sevimli oğlunun ölümü ona ayan olubmu? Ana isə cavab vermir, canıyla (ya Əzrayılla?) əlləşir, xırıldayır, əl-qol atır. Qızı sualını tez-tez, ancaq, yavaşcadan təkrarlayırdı. Nəvələr nənənin bu halına dözmədilər, bərkdən ağlaşdılar. Onların ata yaraları hələ qaysaq bağlamamışdı. Ən çox da onları yandıran atalarının ölümündən nənənin bixəbər olması idi.

Nəvələrin qışqırıq səsindən ana devikdi, baxışları bir nöqtəyə ilişib qaldı, xırıltısı kəsildi. Gözlərini yavaş-yavaş ağlaşan nəvələrinə çevirdi. Dili tutulmuşdu, danışa bilmirdi. Nəvələr yavaşca ananın qulağına tərəf əyilib soruşdu:

- Ana, kimi istəyirsən? Olmaya Yunusu istəyirsən?

Ana başını buladı. Dili dolaşa-dolaşa güclə eşidiləcək səslə inildədi:

- İsamı, Musamı...

Musa onun kiçik oğlu idi. O, idmançı idi, çoxlu sayda diplomları var idi. Güləş üzrə usta adını almışdı. Onu tanıyanlar ona Musa pəhləvan deyirdilər. Qəzadan o lap cavan yaşlarında - ömrünün 25-ci baharında məşq zamanı aldığı zədədən dünyasını dəyişmişdi. İndi ana sevimli oğlu Yunusu yox, İsanı-Musanı istəyirdi.

Ananın təntiməsindən, ölümlə mübarizəsindən bir saata yaxın vaxt keçirdi. Ana həyata qayıtmış, üzünün rəngi özünə gəlmiş, yanaqları allanmışdı. Axşama yaxın yemək istədi. Bu dəfə o, həmişəkindən fərqli olaraq yeməkdən çox yedi. Qızını, kürəkənini və nəvələrini yanına çağırıb öyüd-nəsihət verdi:

- Mən bu gün ölməliydim. Yuxumu da görmüşdüm. Yuxuda gördüm ki, qaynım bizə gəlib, tez yanına getdim: "Nə yaxşı gəldin, məni də apar." O, etiraz edib dedi ki, gəlməyinə gəlmişəm, bu dəfə Yunusu aparacam, sonra da səni. Ancaq, səni, hazırlaş, bir azdan gəlib aparacam. Bunu deyib getdi. Mən gedirdim, siz qoymadınız. Onlar göylərdən gəlmişdi, qolumdan tutub aparırdılar. Siz qara-qışqırıq saldınız, onlar da qaçıb getdilər.

Ana uşaqları ilə bir xeyli danışdı - vəsiyyətini edirmiş. Gecəni çox rahat yatdı. Xəstə düşəndən belə yatdığı olmamışdı. Yəqin gündüz çox çabaladığından yorğun düşmüşdü.

Səhər tezdən Nərgiz ananın səsinə yuxudan oyandı.

- Ay bala, ay Nərgiz, bu nə vaxtın yatmağıdır, dur mənə çaydan-çörəkdən ver, acmışam.

Nərgiz tez ayağa qalxıb saata baxdı - 7 idi. O, ananı yedizdirdi. Ana yerinə uzandı, onu möhkəm yuxu tutdu, üç saata yaxın sakitcə yatdı. Birdən onu sanki kimsə

tərpədib oyatdı. Qızını və Nərgizi yanına çağırdı. Güclə eşidiləcək səslə onlara dedi:

- Oturun, sakitcə mənə qulaq asın.

Qızlar dinməz-söyləməz ananın sözlərinə əməl etdilər.

Ana gözlərini dolandırıb qızların üzündə saxladı:

- Mən bu gün öləcəyəm. Onlar yenə gəlmişdilər, gecə yuxuda mənə dedilər. Məni diqqətlə dinləyin. Dünənki kimi çığır-bağır salmayın, onunla mənə yaxşılıq yox, pislik edirsiniz, məni ölməyə qoymayırsınız, məni canbəsər edirsiniz. Sizdən bircə xahişim var; məni ağlamayın. Mən günümü görüb, dövranımı sürmüşəm. Mən yaşda meşədə heç palıd ağacı da yoxdur. Məni deyə-gülə aparıb balalarımın yanında basırarsınız. Bircə bayatı çağırın, deyin ki, İsa-Musa yaralı anam lay-lay. Ehsanıma da ətnən halva verin.

Ana yaxşı yeyən idi, yaxşı xörəklər, özü demişkən "yağlı-buğlu" yeyərdi. Qapısına gələni, yoldan ötəni yedizdirməmiş buraxmazdı. Hər adamın da yeməyini, səliqəsini bəyənməzdi.

Ana sözlərinə bir az ara verib dedi:

- İndi durun hazırlaşın, ancaq məni buraxmayın, tez-tez yoxlayın. Qızım, mənə bir stəkan soyuq su ver, ürəyim yandı.

Nərgiz göz yaşlarını silərək soyuducudan su gətirdi. Ana onu axıracan içdi.

- İndi də məni böyrüüstə döndərin.

Qızlar onun istəyini yerinə yetirdilər.

Ana əllərini qoşalaşdırıb yastığın üstə qoydu, üzünü əllərinə söykədi və dərin yuxuya getdi. Dodaqlarından bir kəlmə söz çıxdı: "İsamın-Musamın yanına gedirəm." Yarımsaatdan sonra ananın nəfəsi kəsildi. Necə yatmışdısa eləcə də canını tapşırdı. Quş kimi uçdu ana. Üzündə sual dolu bir ifadə əmələ gəlmişdi.

Nə yaxşı ki, nəvəsi, indi evin ağsaqqalı olacaq Zöhrab nənəsini yoxlamaq üçün Bakıya gəlmişdi. Onun içəri girməyilə ananın canını tapşırmağı bir oldu. Ana sanki oğlunun gəldiyini hiss etdi, arxayınlıqla əbədi dünyaya, əzizlərinin yanına köçdü.

Oğlu həmişə deyirdi, məni anamın qəbrinin aşağısında basırın, qəbrimi elə qazın ki, anamdan uzaq düşməyim.

Ana deyirdi ki, qəbrimi elə qazın ki, oğluma yanımda yer olsun.

Hər ikisinin istəyi yerinə yetmişdi.

Oğul ananın ayaqları altında əbədi yatırdı. Peyğəmbərimiz Məhəmməd (ə.s) deyib: «Cənnət anaların ayağı altındadır». Yunus anasının ayağı altında, əbədi cənnətdə dəfn edildi.

Ana da, bala da arxayınlaşdı, ikiillik ayrılığa son qoyuldu. Hər ikisi eyni yerdə yuyuldu, hər ikisinin üstünə eyni parça - yaşıl rəngli ipək salındı. Ana sevimli övladının ölümünün üçüncü ayında ona qovuşdu.

Qızı ondan istəkli oğlunun ölümünü gizlətmişdi. Başqalarına da ananı öldürə biləcək xəbəri deməyi qadağan etmişdi.

Ancaq qızı bilmirdi ki, düzmü etmişdi, səhvmi etmişdi? Anlaya bilmirdi, bu yalan müqəddəs yalan idi, yoxsa anaya qarşı qəddarlıq idi?

İndi Siz deyin: bu yalan günah idi, yoxsa savab?!

**Salatın Əhmədli**

## GƏL ANAMA DƏYMƏ, DÜNYA

Anam bir dağ, enər deyil,
Ana duymaq nələr deyil,
Ona qıymaq hünər deyil,
Hünərini öymə, dünya,
Gəl anama dəymə, dünya.

Bir yanası dənəm axı,
Qıysan sinəm yanar axı,
Ona qurban mənəm axı,
Qapısını döymə, dünya,
Gəl anama dəymə, dünya.

Anam getsə kor olaram,
Öz ömrümə gor olaram,
Dar köynəkdə qor olaram,
Düyün düşər düymə, dünya,
Gəl anama dəymə, dünya.

Dərd əlindən nə çəkdi, nə,
Nə yalandı, gerçəkdi nə,
De, istəyin nə, de, cəhdin nə?
Düz qəddimi əymə, dünya,
Gəl anama dəymə, dünya.

Demə Mədəd qannan qorxan,
Qazannan, qətrannan qorxan,
Kişi deyil cannan qorxan,
Doğra məni qiymə-qiymə,
Gəl anama dəymə, dünya.

***Mədəd Məhbub,***
***şair***

# DÜNYADAN BİR ANA KÖÇDÜ

***Bir əsr ömür etmiş Güləbatın anaya həsr olunub***

Bir əsr ömür edib məğrur yaşadın,
Qalmadı yanında bircə yaşıdın,
Zamanın dərdini təkcə yaşadın,
Həsrəti dərman tək içdi, bir ana.

Üz tutub Allaha, bir də Qurana,
Gah dağa köç etdi, gah da arana,
Dünyanın sonunu gördü virana,
Söylədi - bu dünya heçdi - bir ana.

Danışdı toyundan, dedik nağıldı,
Dilində kəlməsi ərdi, oğuldu,
Bayatı söylədi, sanki nağıldı,
Haqqın dərgahını seçdi bir ana.

Poyluda pay verib xonça bağladı,
Qanlı savaşları görüb ağladı,
Ağısı, naləsi sinə dağladı,
Tanrı körpüsündən keçdi bir ana.

Min arzu-diləklə güllər bitirib,
Xoşbəxtlik içində nələr itirib,
Oğul həsrətini sona yetirib,
Dilində laylası köçdü bir ana.

***Cümşüd İskəndər***
***şair-jurnalist***
***07.10.2010***

## QAYNAR SÖZ ÇEŞMƏSİ

Şifahi xalq yaradıcılığı bitib-tükənməyən əvəzsiz mənəvi sərvətdir. Xalqın əsrlər boyu yaratdığı bu zəngin sərvət ağızdan-ağıza, nəsildən-nəsilə keçərək yaddaşlarda yaşamış və dövrümüzə qədər gəlib çatmışdır. Bu gün də bu qiymətli sərvətin bir hissəsi hələ ağsaqqalların, ağbirçəklərin, müdrik insanların hafizələrində yaşayır. Tez bir zamanda bu əvəzsiz örnəklər yazıya alınmazsa, toplanmazsa neçə-neçə bayatı, nağıl, əfsanə və s. səssiz-səmirsiz itib gedə bilər. Odur ki, bu zəngin mənəvi sərvətin hər bir nümunəsini toplamaq, yazıya almaq olduqca vacib bir məsələdir.

Yurdumuzun hər bir bölgəsi şifahi xalq yaradıcılığı ilə zəngin və bənzərsizdir. Hər bir mahalın söz sərvəti sistemli şəkildə toplanılsa məsələ aydınlaşmış olar. Başqa sözlə, hansı bölgənin şifahi söz sənəti daha mükəmməl şəkildə yazıya alınsa, toplanılsa, deməli, o bölgənin şifahi xalq ədəbiyyatının daha zəngin olması qənaətinə gələ bilərik.

Görkəmli folklorşünas, professor Məmmədhüseyn Təhmasib aşıq yaradıcılığı ilə bağlı yazır:

"Aşıq yaradıcılığının ən əsaslı xüsusiyyətlərindən biri, bəlkə də təbiri caizsə, bu sənətin əsas mühərriki improvizədir.

İmprovizə aşıq sənətində ifa edə-edə yaratmaq, yarada-yarada ifa etmək deməkdir. Az-çox qoşmaq, düzmək, yaratmaq

qabiliyyətinə malik olan hər bir aşıq improvizatordur".

Yaradıcılıq prosesi ilə bağlı söylənmiş bu fikirləri bu və ya digər dərəcədə təkcə aşıqlara deyil, ümumiyyətlə, bütün folklor söyləyicilərinə də aid etmək olar. Onlar da nağıletmə, söyləmə zamanı həm də yaradırlar. Onların da improvizəsi fərqli variantların, bəzən isə orijinal nümunələrin yaranmasına səbəb ola bilir. Bu cəhəti nəzərə alan folklorşünaslar eyni bir nümunənin müxtəlif söyləyicilərdən bir neçə variantda yazıya alınmasını əhəmiyyətli saymışlar. Görkəmli folklorşünas Hənəfi Zeynallı bu məsələ ilə bağlı yazırdı: "Öz təcrübəmdən göstərəcək olursam, eyni nağılın iki nağılçı tərəfindən müxtəlif şəkildə yazıla bildiyini qeyd etmək lazım gəlir. Səbəbi? Çünki bunların birində xatirə qüvvətli, digərində bir qədər zəif olduğu üçün təfsilatın buraxıldığını və bununla da nağılın ən gözəl və etnoqrafik və bəlkə də tarixi əhəmiyyəti qeyb edilmiş olurdu. Buna görədir ki, bir nağılı nə qədər müxtəlif adamlardan, müxtəlif şəkildə (variantda) eşitməyə baxmayıb hamısını yazmaq vacibdir".

Deməli, hər bir söyləyicinin variantı təkcə məzmun baxımından deyil, həm də dil cəhətdən fərqli olur. Bu hər şeydən əvvəl, söyləyicinin dünyagörüşü ilə, mühiti ilə sıx surətdə bağlılıqdan irəli gəlir.

Folklor örnəklərimizi yaddaşlarında yaşadan müdriklərimiz – babalarımız,

nənələrimiz olub.

Onlardan biri də Qazax mahalının Əskipara kəndində dünyaya göz açan Güləbatın nənədir. Özünün dediyi kimi, onun uşaqlığı buz bulaqlı meşələrdə, sərin yaylaqlarda keçib:

"Dağda olanda uşaqlar, cavan qız-gəlinlər meşənin kölgəli yerində ağacdan yelləncək qurar, kim daha hündürə qalxar deyə bərkdən yellənərdik. Hərdən tülkünün, çaqqalın bizə tərəf gəldiyini görüb dəyələrə tərəf qaçışardıq. Gecələr hərdən canavar ulaşmasını eşidib qorxudan analarımıza, nənələrimizə qısılardıq. Çöl yovşanı yığıb yorğan-döşəyin, gəbənin içinə qoyardıq ki, onlara güvə düşməsin, qurd-quş yaxın gəlməsin.

...Kənddə olduğu kimi, binələrdə, yaylaqlarda qaldığımız vaxtlar aşıqlar gələrdi. Saz çalıb söz qoşardılar. Gecədən keçənə qədər dastan danışıb çalıb oxuyardılar."

Güləbatın nənə danışır: Mamasının (bibisinin) dediyinə görə, "Nikolay taxtdan yıxılanda (1917-ci il) mən 6-7 yaşımın içində, dəcəl, ərköyün bir qız uşağı idim. İndi mənim 100 yaşım tamam olur (2010-cu il). Bilirsiniz niyə? Ona görə ki, mən Nikolay yağı yemişəm, dağda-bağda gəzmişəm".

Güləbatın nənə sonralar çox çətinliklərlə üz-üzə gəlib, həyatın acılı-şirinli günlərini görüb. Qaynanası bu çətin günlərdə ona dayaq olub, əlindən tutub. El içində sayılıb-seçilən bu qadın həm də folklorumuzu gözəl

bilirmiş. O, bildiklərini, xüsusən ibrətamiz hadisələri tez-tez nağıl eliyərmiş. Bütün bunlar Güləbatın nənənin yaddaşında özünə yer tapıb. Artıq indi Güləbatın nənə gəlib yüz yaşına çatıb. O deyir:

"Ömrüm boyu zəhmət çəkmişəm. Yaxşı adamlar da görmüşəm, pislərlə də qarşılaşmışam. İlləri yorub yola salmışam... Mən yaşda meşədə heç palıd ağacı da yoxdur. Allah yerdən qalxanları nəzərində saxlasın. Onlar mənim uşaqlarım, nəvə-nəticələrim, hətta kötücələrimdi. İndi Allahdan bircə arzum, bircə diləyim var. Allah mənə yanında yer eləsin, bir parça torpağı əsirgəməsin. Allah sizin də canınızı sağ eləsin, sizi heç kimə möhtac eləməsin. Sağ gözü sol gözə, sol gözü sağ gözə möhtac eləməsin. Allah heç kimi çörəklə imtahana çəkməsin. Allah birdi, təkdi, böyükdü, bağışlayandı. Oturdunuz "bismillah" deyin, qalxdınız "əlhəmdülillah" deyin. Onda həmişə çörəyiniz bol olar".

Güləbatın nənə həm də loğman olub. Xalq təbabətini yaxşı bilib. Yanına əlaca gələn xəstəni naümid qaytarmayıb. Əlindən gələnlərlə xəstəyə yardım edib. Çöllərdə, bağlarda bitən otların, çiçəklərin hansının hansı xəstəyə məlhəm olmasını bilib. Həm söz-söhbətilə, həm uzaqgörənliklə dediyi məsləhətlərilə, həm də xalq təbabətinin cövhərilə el-obasına xeyir verib.

Güləbatın nənə həmişə dili laylalı-bayatılı, alqışlı olub. "Kitabi-Dədə Qorqud" da qa-

dınlar haqqında deyilir:

"...Arvadlar dörd cürdür: birisi soy soldurandır, birisi toy doldurandır, birisi evin dayağıdır, birisi necə desən bayağıdır".

Ozan, evin dayağı odur ki, çöldən-bayırdan evə bir qonaq gəlsə, ər evdə olmasa o adamı yedirir, içirir, əzizləyib-oxşayır, yola salır. O cür arvad Ayişə, Fatimə cinsidir, xanım. Onun uşaqları sağ olsun. Ocağına bu cür arvad gəlsin..."

Güləbatın nənə "evin dayağı" qadınlardan olub, el-oba içində onu belə tanıyıblar. Onun öyüd-nəsihətini, dadlı-duzlu söz-söhbətini dinləyiblər. Onun söylədiyi əfsanə və rəvayətlər, nağıllar, bayatılar, laylalar yaddaşlara hopub. Güləbatın nənə həmişə nəvə-nəticələrinə, bütün balalara qızılgülün içində şirin yuxu tapmağı, yüz il ömür sürüb muradlarına çatmağı arzulayıb.

***Oruc Əliyev***
***AMEA-nın Folklor İnstitutunun***
***direktor müavini***

## NƏĞMƏKAR ANANIN QƏLB ƏMANƏTİ

Azərbaycan milli xarakterinin zənginliyi, eləcə də xalqın mənəvi və maddi varlığının rəngarəngliyi, təbiəti, dünyagörüşü, adət-ənənəsi zəngin folklor ədəbiyyatının formalaşması üçün zəmin yaratmışdır. Xalqın, millətin dilindən danışarkən, onu araşdırarkən - xalqın musiqisindən, onun etnoqrafiyasından, məişətindən, təfəkkür tərzindən, estetikasından, ibtidai, dini, mifoloji, fəlsəfi, elmi-məntiqi, hikmət və müdriklik dünyasından kənara çıxmaq, yaxud da bu dediklərimizə nəzər salmadan, onlara məhəl qoymadan, əsaslanmadan, istinad etmədən obyektiv, real mülahizələr, nəticələr söyləmək mümkün deyil.

Bəlli olduğu kimi, folklor xalqımızın əsrlər boyu yaradıb zənginləşdirdiyi ayrı-ayrı ədəbi növlərdə cəmləşən tükənməz mənəvi sərvətimizdir. Amma bir cəhəti unutmaq olmaz ki, bu şifahi söz qaynaqları ağızdan-ağıza keçərək, nəsillərdən nəsillərə ötürülərək bu günümüzə gəlib çatdığı üçün onu toplamalı, qeydə almalı və ləngimədən nəşr etdirməliyik. Əks təqdirdə sinələri xalq deyimləri və hikmətləri ilə dolu olan qocaman folklor biliciləri dünyalarını dəyişdiyi halda həmin xəzinəni biz əbədilik itirə bilərik. Nə yaxşı ki, tariximizin müxtəlif dönəmlərində qeyrətli, peşəkar, qədirşünas və vətəndaş folklorçularımız, ədəbiyyatçılarımız bu şərəf-

li işi görmüşlər. Nə yaxşı ki, Mirzə Kazım bəy, Məhəmmədvəli Qəmərli, Firudin bəy Köçərli, Cəfər Bünyadzadə, Kərim bəy İsmayılov, Mirzə Abbas Abbaszadə, Y.V.Çəmənzəminli, Hümmət Əlizadə, Vəli Xuluflu, Hənəfi Zeynallı, Salman Mümtaz, Əmin Abid, Eynalı Sultanov, Rəşid bəy Əfəndiyev, Həmid Araslı, Məmmədhüseyn Təhmasib, Ə.Axundov kimi XX yüzilin azman folklorşünasları olub. Nə yaxşı ki. bu müqəddəs işi davam etdirən P.Əfəndiyev, İ.Abbaslı, A.Nəbiyev, Q.Namazov, H.İsmayılov və b. araşdırıcılar bu gün də var, gələcəkdə də olacaqdır. Hazırda bu iş AMEA-nın Folklor İnstitutunda mərkəzləşdirilmiş şəkildə sistemli və ardıcıl davam etdirilir. Bir razılıq hissi ilə, şükranlıqla deyə bilərik ki, xalqımızın arasında bu gün də yaşayan qocaman, sinədəftər ağsaqqallarımızın, ağbirçəklərimizin yaddaşlarındakı folklor incilərini vaxt itirmədən (əgər yubansaq, bunun altını çəkəcəyik) sənədləşdirmək, yazıya köçürmək və sonradan nəşr etdirmək gərəkdir.

Sizə təqdim etdiyimiz bu örnəkləri 100 yaşın - bir əsrin zirvəsində qərar tutmuş, illəri yorub yola salmış, əslən Qazax bölgəsinin Əskipara kəndindən olan Güləbatın Mustafa qızının (Rəsulovanın) ürək əmanətləridir. Əskipara adında iki kənd var: Aşağı Əskipara, Yuxarı Əskipara. “Azərbaycan toponimlərinin ensiklopedik lüğəti”-ndə yazılır ki, qədim Əskipara kəndinin ərazisində XIV əsrə aid şəhər və ikicərgəli qala divarının

xarabalıqları var. Tədqiqatçılara görə Qafqaz Albaniyasının qədim Xalxal şəhəri burada olmuşdur. Toponim əski (köhnə, qədim) və para (hissə, kənd) komponentlərindən düzəlib, Köhnə kənd anlamındadır.

Göründüyü kimi, Əskipara kəndi qədim tarixə, mədəniyyətə malik olan yaşayış məskənlərimizdəndir. Bu kənd mərhum prof. Camal Əhmədov, mərhum prof.Müseyib Məmmədov və b. ünlü şəxsiyyətləri Azərbaycan filologiyası elminə verib. Min təəssüflər olsun ki, bu qədim, doğma yurdumuz da qəddar erməni faşistlərinin əsarəti altındadır. Amma tarix də göstərir ki, qisasımız heç kəsdə qalmayacaq. Gün gələcək biz öz torpaqlarımızı qaytaracağıq.

Güləbatın Mustafa qızının söylədiyi folklor yadigarları qarşımızdadır. Bunları ağbirçəyimizin yazıçı-publisist, tədqiqatçı-alim, xeyriyyəçi qızı, hacıxanımımız Salatın xanım Əhmədli sevə-sevə, könül xoşluğu ilə böyük səxavət duya-duya kağıza köçürüb. Öz nəğməkar anasının qəlb əmanətlərini incədən-incə bir duyğu ilə bir-bir qələmə alıb. Görək bu əmanətdə nələr var: İnanclar, sınamalar, alqışlar, andlar, atalar sözləri, məsəllər, deyimlər, bayatılar (130-dan artıqdır), tırınqılar, laylalar, tapmacalar, əfsanə və rəvayətlər, nağıllar və müdrik kəlamlar. Əgər bu folklor mətnlərinin əlyazmasına nəzər salsaq, burada nə qədər gərəkli, hər bir dövrümüz üçün dəyərli, qiymətli olan söz incilərini, el çələnglərini görərik. Bu səhifələri

vərəqlədikcə, xalqımızın müdrik, hikmət dolu mənəvi sərvətlərini, ana dilimizin söz yatırımının tükənməz məna çalarlarının ifadə qüdrətinin, əzəmətinin möcüzəsinə düşərik, onun ovsunundan saatlarla çıxa bilmərik.

Əziz oxucum! Gəlin bu söz xəzinəsini birlikdə öyrənək, birlikdə dərk edək.

***İsmayıl MƏMMƏDOV***
***AMEA Dilçilik İnstitutunun***
***lüğətçilik şöbəsinin müdiri,***
***filologiya elmləri doktoru,***
***professor***

# İnanclar, sınamalar

* * *

Səhər qarşına dolu sənəkli qız-gəlin çıxarsa, xeyirə çatarsan.

* * *

Qatığı əli bərəkətli adam çalanda yaxşı gələr.

* * *

Qorxulu yuxu görəndə yuxunu suya danışıb deyərlər: “Axar su, yuxumu sənə deyirəm, qoy su yuxumu aparsın”.

* * *

Əgər yuxunu işığa danışsan, deməlisən: “Aydınlığa yoz”.

* * *

Suya murdarlıq düşəndə deyərlər: “İraq Fatma suyundan”.

* * *

Göy qurşağını görəndə deyərlər: “Qarı nənə hana uzadır, qırmızısı mənim”, yəni hava açılsın.

* * *

Bişirilən çörəyin siftəsini yeyənin başı ağrıyar – deyərlər.

* * *

İlaxır çərşənbədə heyva ağacının budağından balaca bir parça kəsib uşağın biləyinə bağlayarlar ki, ona göz dəyməsin.

* * *

Uşaq gec ayaq açanda onu xəlbirə qoyub yeddi qapıdan pay alarlar.

* * *

Qız uşağının hər hörüyünə bir gözmuncuğu bağlayarlar, onda uşağa göz dəyməz.

* * *

Hal anası zahıya xətər yetirməsin deyə qapıya zəncir vurarlar.

* * *

Cümə günü heç bir ağacı kəsməzlər.

* * *

Qurdu söymək olmaz, işdi, qurd qoyunu dişləyib yaralasa, həmən yerə yun yandırıb basar, deyərlər: - “Ağzın yansın”.

* * *

Qayçını boş yerə şaqqıldatmaq olmaz, yoxsa evin xeyir-bərəkəti gedər.

* * *

Gecə görülmüş yuxunu danışmazlar, danışsalar da deyərlər: “Damda dana var”.

* * *

Qırxı çıxmamış uşağın və ikicanlı gəlinlərin üstünə ölü yerindən gəlməzlər. Həmin adam əvvəl başqa bir həyətə girib sonra gələr.

* * *

Körpə uşağın üstünə çiy ət gətirməzlər.

* * *

Körpəyə yatan yerdə çox baxmazlar, göz dəyər.

* * *

Körpəni yük üstündə çox oturtmazlar, gec yeriyər.

* * *

Gövşəyən heyvan qurbana düşür.

* * *

"Bismillah" olan yerdə cin-şeytan olmaz.

* * *

Ova çıxan ovçuya "ovun qanlı olsun" deyəndə ov uğurlu olar.

* * *

Qurdun çəhəngini çıxardıb qurudarlar, sonra onu bir parça göy əskiyə bükərlər. Uşaq qorxanda, xəstələnəndə onu "qurd-ağzı"ndan keçirərlər ki, uşağın azar-bezarı yox olsun.

* * *

Uşağa bədnəzər toxunmasın deyə üzərliyi yandırıb tüstüsünü uşağa verərlər. Üzərliyi qopartdıqda yerinə qənd atarlar, yoxsa şərə düşərsən, deyərlər.

* * *

Süfrə başına keçəndə, inək sağanda "bismillah" deyərlər, onda evdə bərəkət olar.

* * *

Ocaqda külün titrəməsini görsələr, "od xeyrə oynayır" deyərlər.

* * *

Ölmüş əziz adamdan söhbət eləyən vaxtı, kimsə qəfildən asqırsa, onun paltarının ətəyindən üç dəfə dartıb deyərlər: "bizimsən, bizimsən, bizimsən!"

* * *

Novruza yeddi gün qalmış hər gecə yeddi ulduz saysan, qismətində olan qızı yuxunda görərsən.

* * *

Deyirlər ki, cinlər ağ atın hərisi olurlar. Odur ki, həmişə ağ atı minib yalını hörürlər.

* * *

Cinlər ana südünə and içsələr onu buraxarlar. Onda cinlər həmin adamın nəslinə xətər yetirməz.

* * *

Siftə bişən çörəkdən qurd-quşa atarlar ki, evdən bərəkət kəsilməsin.

* * *

Çox ov vuranın evində bərəkət olmaz, - deyərlər.

* * *

Cümə axşamı qulağı cingildəyənin muradı hasil olar, - deyərlər.

* * *

Bir şey axtaranda deyərlər: Tapsam axça verrəm, tapmasam mıxça verrəm.

* * *

Su içən adamı, heyvanı, hətta ilanı da vurmaq olmaz, çünki bütün canlılar su içəndə Allaha dua eləyir – deyirlər.

* * *

Gözə nəsə düşəndə deyərlər:
Çöpsən, qovrul, çıx,
Samansan, sovrul çıx,
Tumsan, çırtıl çıx.

* * *

Deyərlər ki, Allah deyir, mənim hər şeydən xəbərim var, bədnəzərdən xəbərim yoxdu. Odur ki, özünüzü bədnəzərdən qoruyun.

* * *

Adna axşamı ölülərin günüdü. Həmin gün ölülərin qəbri üstünə çıxarlar, adına qazan asarlar. Mollaya yasin oxutdurarlar. Deyilənə görə həmin gün ölülərin ruhu əzizlərinin yanına, evinə gəlir, bilsin-görsün onun adına xörək bişirilir, ya yox? Adı bu evdə dilə gəlir, ya yox?

* * *

Qapının ağzına isti su tökməzlər, şər vaxtı qapının ağzında oturmazlar, deyərlər ki, orada mələklərin balaları oturur.

* * *

Məkkədən gələn paltarı, hər ilin Həcc dövründə bir saatlıq da olsa geyinmək lazımdır.

* * *

İçqıranda belə deyərlər: İçqırığın iç quyuya, köbək nənən kor quyuya.

* * *

Bayquş qapıya gəlib oxuyarsa, aparıb onun qonduğu yerə duz-çörək qoyub and verərlər: Sən bu duz-çörək, bir də bu qapıya gəlmə.

* * *

Deyirlər ki, hər bir insanın taleyində göydə bir bəxt ulduzu, yerdə də bir sərçə quşu var. Əgər ulduz göydə axıb gedirsə, deyirlər, kiminsə bəxti söndü, yəni öldü. O şəxs ölən vaxt onun bəxt sərçəsi ağzında bir çöp onun dalınca uçur. Ölən adam cənnətə gedirsə sərçə geri qayıdır. Yox, əgər cəhənnəmə gedirsə ağzındakı çöpü atır ölmüş günahkar şəxsin yandığı ocağa.Onda qır qazanı, deyirlər, daha bərk qaynamağa başlayır.

* * *

Üç şey çox günahdır: şər atmaq, evli ola-ola ayrı adamla görüşmək, biri də qapıbacanı, adamların danışığını pusmaqdır.

* * *

Belə danışırlar ki, keçmiş zamanlarda anası vəfat etmiş bir gəlin ərinə deməmiş

ehsan vermək istəyir. Qonşular yığışıb gəlir, hərə bir işin qulpundan yapışır. Aş bişirmək üçün ocaq qalayıb qazan asırlar. Ocaq alışıb yandıqca qazandakı su qaynamaq əvəzinə üç dəfə dalğalanıb dayanır. Ocaq başındakı gəlin suyun dalğalanmasından qorxur, palaz üzərində oturmuş dünyagörmüş ahıl qadından bunun səbəbini soruşur. Yaşlı qadın gəlindən soruşur:

- Anana ehsan verməyindən ərinin xəbəri varmı?

Gəlin «yox» deyə başını bulayır. Qadın üzünü ikinci dəfə gəlinə tutub deyir: Əslində ata-anaya ehsanı oğul verməlidir, qız övladına ehsan vermək şəriətə görə günahdır. Yad oğlu halal eləməyə də bilər. Sən iki dəfə günaha batıbsan. Birinci budur ki, sən qız övladı kimi anana ehsan verirsən. İkinci günahın da budur ki, ərindən icazə almadan ehsan vermək istəyirsən. Odur ki, mələklər suyu dalğalandırıb Allahın bu işə narazılığını bildiriblər.

Gəlin kor-peşiman bir daha ərindən gizlin iş tutmayacağını deyir.

# Alqışlar, dualar

* * *

Allah acların qarnını, toxların gözünü doydursun.

* * *

Allah səni sevindirsin.

* * *

Allah hərənin qəlbinə görə versin.

* * *

Allah bərəkət versin.

* * *

Allah qüvvət versin.

* * *

Allah köməyin olsun.

* * *

Allah ürəyincə versin.

* * *

Allah ruzunu versin.

* * *

Allah səni min budaq eləsin.

* * *

Allah səndən razı olsun.

* * *

Allah dadına yetişsin.

* * *

Atan-anan cənnətlik olsun

* * *

Adı ilə yaşasın.

* * *

Atın yüyrək olsun.

* * *

Atalı-analı böyüyəsən.

* * *

Allah sağ əli sol ələ, sağ gözü sol gözə möhtac etməsin.

* * *

Ağ taxtlı, ab baxtlı olasan

* * *

Axırın xeyir olsun.

* * *

Ağ günlü olasan.

* * *

Allah dadına çatsın

* * *

Atan-anan behiştlik olsun.

* * *

Allah hamının balalarını saxlasın, içində də mənimkini.

* * *

Başın uca olsun.

* * *

Bir olsun, pir olsun.

* * *

Birin min olsun.

* * *

Bərəkətli olsun.

* * *

Canın sağ olsun.

* * *

Dövlətin başından aşsın.

* * *

Dünya durduqca durasan.

* * *

Eviniz abad olsun.

* * *

Evli-eşikli olasan.

* * *

Əllərin var olsun.

* * *

Gözün dolusu görəsən.

* * *

Günün ağ olsun.

* * *

Günün, bəxtin ağ olsun.

* * *

Gözün aydın olsun.

* * *

Halal xoşun olsun.

* * *

Həmişə şadlıqda olasan.

* * *

Xeyir xəbər olasan.

* * *

Xətrin xoş olsun.

* * *

İman yiyəsi olasan.

* * *

İxtiyar sahibi olasan.

* * *

Qapına toylara gələk.

* * *

Qurbanın qoyun olsun.

* * *

Qoşa qarıyasan.

* * *

Qonaq-qaralı olasan.

* * *

Qardaşların gözünün işığı olsun

* * *

Min budaq olasan.

* * *

Oğullu-qızlı olasan.

* * *

Oğlun gözünün nuru olsun

* * *

Ömrün uzun olsun.

* * *

Ömrünə nur çilənsin.

* * *

Payın çox olsun.

* * *

Payın artıq olsun.

* * *

Pir olasan.

* * *

Səni min yaşa.

* * *

Səni Allah qorusun.

* * *

Tanrı dadına çatsın.

* * *

Toyunu görüm.

* * *

Üzün ağ olsun.

* * *

Urvatlı olasan.

* * *

Üstündən qara yel əsməsin.

* * *

Varın-dövlətin başından aşsın.

* * *

Verən əlin var olsun.

* * *

Yarıyanlardan olasan.

* * *

Yerin cənnətlik olsun.

* * *

Yolun uğurlu olsun.

* * *

Yuxun şirin olsun.

* * *

Yüz yaşayasan.

* * *

Ya Allah, özün düzəlt hər işləri.

* * *

Ya bir olan Allah, haqsan, varsan, birsən.

* * *

Günün, bəxtin ağ olsun, uşaqların sağ olsun

* * *

Hamı xoşbəxt olsun, içində də biz.

* * *

Torpağı sanı yaşa.

* * *

Hamının gedəni gəlsin, sonra da mənimki.

* * *

Həmişə ayağınız yerisin, gözünüz görsün, sözünüz iti, diliniz uzun, başınız uca olsun.

# Andlar

* * *

Allah haqqı!

* * *

And olsun Yeri, Göyü Yaradana!

* * *

Bu yol haqqı!

* * *

Bu çıraq haqqı!

* * *

Çörək haqqı!

* * *

Göy haqqı!

* * *

İşıq haqqı!

* * *

O gün haqqı!

* * *

Quran haqqı!

* * *

Ocaq haqqı!

* * *

Qiblə haqqı!

* * *

Birəm, birriyim haqqı!

# Atalar sözləri, deyimlər

* * *

Ağır qazan gec qaynar.

* * *

Atıcı atar, tayını tapar.

* * *

Ata baxarlar, başına torba taxarlar.

* * *

Acımamış xəmir təndirə yapılmaz.

* * *

Ağacı silkələməsən meyvə düşməz.

* * *

Araba çevriləndən sonra yol göstərən çox olar.

* * *

Alça turşdur, yiyəsinə xoşdur.

* * *

Daz daznan yatdığı, daz da təpik atdığı .

* * *

Doğmanın tobası olmaz.

* * *

Su gələn arxa bir də gələr.

* * *

Qızılgül kolda qalmaz, yaxşılıq yerdə.

* * *

Qızın oldu qırmızı donunu soyun.

* * *

Quş yuvasından quş əksik olmaz.

* * *

Qart da gedər dünyadan, qurd da gedər dünyadan.

* * *

Qorxaq daşın böyüyündən yapışar.

* * *

Qonağını əzizləyən itinə də sümük atar.

* * *

Elə deyirlər: ay yetim, ye, tapmazsan, heç demirlər, ay yetim, az ye, partlarsan.

* * *

Dəli qız deyər anasız olaydım, bədəsil gəlin deyər qaynanasız.

* * *

Əsdi Gəncə, bitdi yonca, əsdi Tiflis, etdi dümdüz.

* * *

İlanı nə qədər bəsləyib ətinə sarısan da, yenə soyuqdur.

* * *

İgid sözünün üstünə gəlib çıxar.

* * *

Yaxşı övlad atasını vəzir eylər, pis övlad rəzil.

* * *

Yetim qarımaz, qarısa da yarımaz.

* * *

Yaxşı bez arşınsız da satılar.

* * *

Günüm qara olub, əppəyim para.

* * *

Özgəsinin atına minən yarı yolda qalar.

* * *

Bıçağı olmayanın qılıncı kəsəyən olar.

* * *

Suya yıxılan islanar.

* * *

Səbr eləyənin acı ağzı bal dadar.

* * *

Sonalayanın axırı ya kara, ya keçələ qismət olar

* * *

Sözün yolu qısa olar.

* * *

Tanımadığın yuvaya əl uzatma.

* * *

Yedik xəngəl, işlər oldu əngəl.

* * *

Bu günün yarağı, sabahın gərəyi.

* * *

Qulaqla gözü heç vaxt aldatmaq olmaz.

* * *

İnsan yüksəyə qalxdıqca parlayar.

* * *

Ustanın yanında əlini, alimin yanında dilini saxlamağı bacarmalısan.

* * *

Xəlbir ələkdən soruşur: Sənin gözlərin niyə belə kiçikdi? Ələk ona cavab verib deyir: Sənin gözlərinin seçə bilmədiyini tutub saxlamaq üçün.

* * *

Ərin üzü dönüncə atın yəhəri dönsə yaxşıdır.

* * *

Söyüddən sap (balta sapı) olmaz, arvaddan ağa.

* * *

İnsan ən çox çörək verəninə xəyanət edir, odur ki, deyirlər ki, insan çiy süd əmib.

* * *

Dostumun dostu mənim dostum,
Düşmənimin düşməni mənim dostum,
Düşmənimin dostu mənim düşmənim,
Dostumun düşməni isə mənim düşmənimdir.

* * *

Sağlamsansa xoşbəxtsən, borcun yoxdursa varlısan.

* * *

Mən balama yanıram, balam da balasına.

* * *

Heybəli vurub, torbalı oynayıb

(Böyük olmayan yerdə özbaşınalıq olar).

* * *

Özüm ölməkdə, gözüm çölməkdə.

* * *

Süddən ağzı yanan qatığı üfürüb içər.

* * *

Məndən küssən, köçüm köndələn gedər?

* * *

Söz var gedir, daşa dəyib qayıdır, söz də var ki,başa dəyir.

* * *

Söz var dəyib keçir, söz də var dəlib keçir.

* * *

Mənim yaşımda meşədə heç palıd ağacı da yoxdu.

* * *

Aşı bişirən yağ olar, gəlinin üzü ağ olar.

* * *

İt alığı qapdı-qaçdı (Heç nədən dava düşdü).

* * *

Kimə dayı deyirəm, qayıdıb ayı deyir.

* * *

Qocalmış aslanın üstünə kəpənək qonar.

* * *

Qocalmışam, qarımışam, belim sınıb, sarımışam.

* * *

Gəlini evdən güdərsən oğru, çöldən güdərsən əyri olar.

* * *

Utancaqlıq bacarığın yarısını öldürür.

* * *

Mənnən kəsmət (şərt) kəsir.

* * *

Yatan gözünü şişirdər, duran qarnını.

* * *

Baldırğan bala dönüb, şor şəkərə.

* * *

Hamı desə can olar, yetim desə qan olar.

* * *

Səhər yeməyini bərkit, günorta yeməyini ləngit, axşam yeməyini tərgit.

* * *

Ev qalıbdı əyriyə, həm yeyə, həm səyriyə.

* * *

Günü günü olmaz, günüdən törüyən günü olar.

* * *

Ay qara, day qara.

* * *

Dədədmi öldürüm ki, goruna and içim?.

* * *

Çörək eldən, suyu göldən...

* * *

Oğlum öylü, qızım göylü.

* * *

Qurban olum Allaha, haqqı-nahaqqa verməyir.

* * *

İki ağız bir oldu, bir ağız da heç oldu.

* * *

Sirr ki otuz iki dişin arasından çıxdı, daha o sirr deyil.

* * *

Evin dörd küncü var. Əgər kişi açıqlanıb arvadını döymək istəsə, arvad evin küncünə qaçdısa ondan arvad çıxacaq, yox, əgər çölə qaçdısa, əlini üz, ondan arvad çıxmayacaq. Küsüb dədəsi evinə getdisə dalınca getmək heç lazım deyil.

Yol açıq - ayağına quru palçıq.

* * *

Necə ki,varımdı - ağalar yarımdı,

varım-puç oldu, ağalar da yox oldu.

* * *

Mənə yox, içinə çöp.

* * *

Xələfin nədi, sələfin də odur.

* * *

Babası əkəni, nəvəsi biçər.

* * *

Elə gözəl idi, elə bil üstündən nə ağ yel əsib, nə qara yel.

* * *

Yağlını yağ saxlayar, yağsızı ağ saxlayar.

* * *

İnsan yaşdanmaz, başdanar.

* * *

Vura bilməyən zopanın yekəsini götürər.

* * *

Qocalıq elə bir yoxuşdur ki, onun enişi, elə bir gedişdir ki, dönüşü olmur.

* * *

Səhər bəzəyi - mal təzəyi, axşam bəzəyi - yar bəzəyi.

* * *

Həl yeyənə - hədik, Süleymana düdük.

* * *

Ərinə bax - başını ört, evinə bax - yükünü yığ.

* * *

Qonaq gələr quş kimi,
Qayıdıb gedər quş kimi,
Nəinki oturar bayquş kimi.

* * *

Dolu düzü döyər.

* * *

Hamının hər oduna yanmışam, hər suyuna axmışam.

* * *

İnsan olana milçək sazdır, insan olmayana damdıra azdır.

* * *

Sözü ağızdan ucuz alıb, baha satırlar.

* * *

İt yediyini qusar.

* * *

Rüzgar üzə bağlıdır.

* * *

Günümü görmüşəm, dövranımı sürmüşəm.

* * *

Yadın verdiyi loxma boğazımda boğma olar.

* * *

O gün döy, o günün Allahıdır.

* * *

Arığın qoruqda nə işi var ki, vurub topuğunu sındırsınlar.

* * *

Bir qulağından aldı, o biri qulağından saldı.

* * *

Ajal gələndə majal verməz.

* * *

Enişi enmişəm, yoxuşu çıxmışam.

* * *

Adamın öz canına yananı, yaddan-yamacdan canına yanan olmaz.

* * *

Ölüm haqdı, ölülərimiz haqq dünyada haqqa qovuşub, biz yalançı dünyada.

* * *

Dərd gələndə batmanla gəlir, misqal-misqal çıxır.

* * *

Qoça gedən qoyuna getməz?

* * *

Dana damını tanıyır.

* * *

Ərsiz arvad, qulpsuz çuval.

* * *

Nə şirin-şirin gülməyini, nə də sonradan acı-acı dişləməyini istərəm.

* * *

Ərdən çıxmış qız çıxdan (kənardan) baxar.

* * *

Atadan soruşurlar: kimin atasısan? Cavab verir: analının.

* * *

Dilindən cızdağa düşdü.

* * *

Ağalar ölüb, dığaların bayramıdır.

* * *

Mal bir dəridə durar, kasıb bir donda.

* * *

Qız evinə gedəndə çox verib, az yalvararlar, az verib çox yalvararlar.

* * *

İki dünya bir olmaz, əyri damar düz olmaz.

* * *

Keçi öldü, qoturu kəsildi.

* * *

Eldən gələnlə ev olmaz, qonşudan gələnlə yamaqlıq.

* * *

Ağa çobana deyir: Çoban, bir yerdə çox durma, durdun - yorulacaqsan, yoruldun - oturacaqsan, oturdun - uzanacaqsan, uzandın - yatacaqsan, yatdın - dananı qurda verəcəksən.

* * *

Yolda azsan sarvana, acsan - çobana, naçar qalsan - ağsaqqala gənəş.

* * *

Varını yedin-dadındı, verdin-adındı, qaldı-yadındı.

* * *

Öküzü öldürüb quluncunda bıçağı qırmaq olmaz.

* * *

Nə qoyun olub ota doymadım,
Nə quzu olub südə doymadım,
Nə quş olub qanad salmadım,
Nə insan olub yerdə iz qoymadım.

* * *

İş olmayanda dana qurdalayarlar.

* * *

Əyri düzü bəyənmir, bu da bizi bəyənmir.

* * *

Pişiknən elə rəftar et ki, qayıdıb üzünü cırmasın.

* * *

Gəzdim İranı - Turanı,
Cənnət-məkan gördüm buranı.

# Bir bayatı çağırdım...

* * *

Gözlərin yedi məni,
Qurd oldu, yedi məni.
Bir namərdə sirr verdim
Aləmə dedi məni.

* * *

Su gəlib bəndə dəyər,
Kəklik kəməndə dəyər.
Qardaşım qız sevibdi,
Gözü bir kəndə dəyər.

* * *

Gedirəm yol uzunu,
Xançalım qol uzunu.
Necəsən bir ah çəkəm,
Yanasan il uzunu.

* * *

Əzizim kəsə məndən,
Yol gedər Kəsəməndən.
Qorxuram uzaq düşəm,
Yar gözün kəsə məndən.

* * *

Mən aşiq dilə gələr,
Göz yaşım gilə gələr.
Sən yadıma düşəndə,
Sümüyüm dilə gələr.

* * *

Bağçada gülüm yandı,
Süsən, sünbülüm yandı.
Xumar gözlüm, su gətir,
Ağzımda dilim yandı.

* * *

Gün keçdi ilə gəldi,
Göz yaşım gilə gəldi.
Bala dərdi çəkməkdən,
Sümüyüm dilə gəldi.

* * *

Neylədi, mənə fələk eylədi,
Başıma kələk eylədi,
Əlin saldı ürəyimə
Ələk-vələk eylədi.

* * *

Eləmi qanadınnan,
Qan damar qanadınnan.
Könlüm gəzən yerləri
Quş gəzməz qanadınnan.

* * *

Göydə gedən quşa bax,
Qanadında gümüşə bax,
Xalxlara yaz gələndə,
Mənə gələn qışa bax.

* * *

Saç bağım saçımı döyür,
Qolbağım qolumu döyür,
Oğlum yadıma düşəndə
Ürəyim kürəyimi döyür.

* * *

Eləmi, ana yeri,
Tök zülfün dara yeri,
Yüz min mələk tökülsə,
Verməz bir ana yeri.

* * *

Əlimdə sicimim var,
Uzaq yola gücüm var,
Sağa-sola baxıram,
Nə anam, nə bacım var.

* * *

Eləmi, ayar dünya,
Kim səndən doyar, dünya,
Bir yandan kəfənləyər,
Bir yandan soyar dünya.

* * *

Eləmi, qara yazı
Ağ kağız, qara yazı,
Hamıya ağ yazıldı
Mənəsə qara yazı.

* * *

Əzizinəm, demə gəl,
Plovu qoy dəmə, gəl.
Dərdin de dərd bilənə
Dərd bilməzə demə "gəl".

* * *

Əzizinəm, gül bağda,
Bülbül bağda, gül bağda,
Sənsiz bağa girmərəm,
Xəzəl olsa gül bağda.

* * *

Dağların oyluğu var,
Qarı var, soyluğu var.
Nə ağlarsan, a könül,
Səndə qəm oyluğu var.

* * *

Canımdan can ayrılır,
Süysünüm geri qanrılır.
Əlini ver əlimə,
Yol buradan ayrılır.

* * *

Ay dolana-dolana,
Gün dolana-dolana,
Yarımı al yanına,
Gəl dolana-dolana.

* * *

Ay nə gözəldi,
Gün nə gözəldi,
Qaşların qapqaradır
Gözlərin nə gözəldi.

* * *

Bacım, gəl, qardaşım, gəl,
Qana döndü yaşım, gəl,
Yadlardan doğma olmaz
Öz bacım, qardaşım, gəl.

* * *

Əzizinəm ov məndən,
Alıcı məndən, qov məndən.
Yüz ilin ovçusu canım,
Qaçaq düşüb ov məndən.

* * *

Maral hovuzda varmı?
Ceyranın düzdə varmı?
İtib tülək tərlanım
Bizdə yox, sizdə varmı?

* * *

Qaradır qaşın, ördək,
Yaşıldır başın, ördək,
Həmişə cüt gəzirdin,
Hanı yoldaşın, ördək!

* * *

Ovçu, maralı qoyma,
Aşdı bərəni, qoyma.
Öldürürsən tez öldür,
Vurub yaralı qoyma.

* * *

Quş idim, uçdum gəl,
Getdim həndə düşdüm, gəl.
Ağ günüm gedər oldu,
Qara günə düşdüm gəl.

* * *

Ay doğur pərli-pərli,
Qapımız qoşa nərli,
Girəydim yar qoynuna,
Çıxaydım tərli-tərli.

* * *

Fələk, səni dindirəydim,
Bilməzini bildirəydim,
Mənə yazı yazanda
Qələmini sındıraydım.

* * *

Haray naşı əlindən,
Tökmür daşı əlindən.
Suratım şikat eylər
Gözüm yaşı əlindən.

* * *

Haray yetim əlindən,
Yol ver ötüm əlindən,
Qoyub gedə bilmirəm,
Qoymur tutum əlindən.

* * *

Bulaq bulağa gəlsin,
Axsın bulağa gəlsin,
Sən evində sağlam ol,
Səsin qulağa gəlsin.

* * *

Bulağı bulandırma,
Bulaqdan su doldurma,
Könlüm təzə durulub,
Yenidən bulandırma.

* * *

Eləmi balasından,
Bal dadır balasından,
İnsan da heç doyarmı
Öz əziz balasından.

* * *

Qızıl gül olmadımmı?
Saralıb solmadımmı?
Süründü xublar köçü
Daldaca qalmadımmı?

* * *

Payız olar, yaz olar,
Güllər oyunbaz olar,
Sənə “gülüm” demərəm,
Gülün ömrü az olar.

* * *

Naxışım dizim üstə,
Yazaram dizim üstə,
Eşitsəm yarım gəlir
Sürünnəm dizim üstə.

* * *

Eləmi al yorğanı,
Üstü xal-xal yorğanı,
Gəlibdi can baratı
Üstümdən al yorğanı.

* * *

Əzizim beləmi eylər,
Çalınar belə min eylər.
Əzəli şirin dünyanın
Axırın beləmi eylər?

* * *

Eləmi bu dağınan,
Yol gedir bu dağınan,
Sənə yaxşı deməzlər,
Mən ölsəm bu dağınan.

* * *

Aya bax, ulduza bax,
Su üzündə buza bax,
Yetirdiyim oğula,
Köçürdüyüm qıza bax.

* * *

Qardaş-qardaş deyərlər,
Qardaş payı yeyərlər,
Qardaş evə girəndə
"Bacın qurban" deyərlər.

* * *

Ölürəm, üstümə gəl,
Yanıram, tüstümə gəl,
Sağlığıma çatmadın,
Barı qəbrim üstə gəl.

* * *

Apardı çaylar məni,
Həftələr, aylar məni,
Yüküm qurğuşun yükü,
Yorubdu taylar məni.

* * *

Ağlaram, ağlar kimi,
Dərdim var dağlar kimi,
Xəzəl ollam, tökülləm,
Virana bağlar kimi.

* * *

Eləmi, amana çalır,
Qaşların kamana çalır,
Yüz tümənə çalmayan canım
Bir çuval samana çalır.

* * *

Gedərəm elinizdən,
Uçaram gölünüzdən,
Məni saxlamaq olmaz,
Nə gəlir əlinizdən?

* * *

Arazı ayırdılar,
Qum ilə doyurdular,
Mənim nə vaxtım idi,
Yarımdan ayırdılar.

* * *

Arxalığın narışdır,
Bədəni dörd qarışdır,
Sən aranda, mən dağda
Nə uzaq ismarışdır.

* * *

Eləmi, qız aranda,
Köynəyi qızaranda,
Qalırsa oğlan qalsın
Qalmasın qız aranda.

* * *

Armud ağacı haça,
Əlim dolaşır saça,
Qurbanam o qardaşa,
Sevdiyin götrə, qaça.

* * *

Sən niyə girdin bağa,
Çiynin dəydi yarpağa,
Övlad toyu görmədin,
Nə tez getdin torpağa?

* * *

Eləmi, gülə-gülə,
Gül əkdim gülə-gülə,
Düşmən evimi yıxdı
Üzümə gülə-gülə.

* * *

Eləmi, gül anbarı,
Gül əkdim, güləm barı,
Nə gülür, nə güldürür,
Nə qoyur güləm barı.

* * *

Eləmi hər divana,
Hər dəli, hər divana,
Dərdin de dərd bilənə
Söyləmə hər divana.

* * *

Göy üzü damar-damar,
Göydən yerə nur yağar,
Ürək dediyin şüşə,
Sınsa onu kim yamar.

* * *

Alçalar allanıbdır,
Budaqdan sallanıbdır,
Elə bildim cavandır,
Saqqalı ağarıbdır.

* * *

Şamlara bax, şamlara,
Ördək çıxıb talvara,
Bizlərdə qayda budur,
Oğlan qıza yalvara.

* * *

Əzizinəm, ağ şamlar,
Yanar-sönər axşamlar,
Evli evinə gedər,
Evsiz harda axşamlar?

* * *

Ay çoban, iyli çoban,
Kəkilli, çilli çoban,
Qoy durum başına dolanım
Qız-gəlin huylu çoban.

* * *

Eləmi, tikə-tikə,
Doğra bağrım tikə-tikə,
Qoy mənə elim ağlasın
Kəfənim tikə-tikə.

* * *

Arxalığım məndildən,
Yaxası qızılgüldən,
Yar ilə mərcə gəldim
O dodaqdan, mən dildən.

* * *

Bu dərə, uzun dərə,
Getdikcə uzun dərə,
Burda bir bağ saldırdım,
Yar gələ üzüm dərə.

* * *

Çobanam qoynunuza,
Babalım boynunuza,
Ya məni evləndirin,
Ya alın qoynunuza.

* * *

Gəl-gəl gərəyimsən mənim.
İncim, pərəyimsən mənim,
Başqa vaxt istəməzdim,
Ölürəm, gəl, gərəyimsən mənim.

* * *

Eləmi, yazana qaldı,
Yazıb pozana qaldı,
Ay keçdi, il dolandı,
İnsaf yazana qaldı.

* * *

O da məni yandırır,
Bu da məni yandırır.
Özümü suya atıram
Su da məni yandırır.

* * *

Hansını deyim,
Oxuyum yasini, deyim,
Özüm təkəm, dərdim min,
İndi mən hansını deyim?

* * *

Bu dərənin uzunu,
Çoban, qaytar quzunu,
Gedin deyin xalama,
Mənə versin qızını.

* * *

Bənövşəyəm, bitərəm,
Boynum əyri tutaram,
Eşitsəm  yarım gəlir,
Boynumu düz tutaram.

* * *

Güləm mən,
Bülbüləm mən, güləm mən,
Nə gülür, nə güldürür,
Nə də qoyur güləm mən.

* * *

Fələyin qəhri mənə,
Qadası-qəhri mənə,
Doldurdu qəm piyalasın
İçirtdi zəhri mənə.

* * *

Göydə göyərçin ağlar,
Yuvada laçın ağlar,
Oğlu ölən ananın
Başında saçı ağlar.

* * *

Araza Kür dedilər,
Kürdən də kür dedilər,
Sevgilimi istədim,
Eldən sürgün etdilər.

* * *

Dağlar, səna dağlar,
Göy geymiş fəna dağlar.
Tutaydım yar əlindən
Gəzəydim səni, dağlar.

* * *

Eləmi, qar-qamışa,
Su axar qar-qamışa.
Yüz min alqış neyləyər
Bir fələk qarğamışa.

* * *

Qara su,
Axar gedər qara su.
Qardaş belin tağatı
Oğul gözün qarası.

* * *

Atım minənə qaldı,
Donum geyənə qaldı,
Dostum deyən olmadı,
Düşmən deyənə qaldı.

* * *

Bu yerlər el yeridi,
El köçdü, el yeridi,
Gözlərim bulaq yeri,
Yanağım sel yeridi.

* * *

Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz,
Qürbət eldə gəzənin,
Ürəyində yağ olmaz.

* * *

Dağların qarı mənəm,
Gün dəysə ərimərəm.
Qəbrimi quzeydən qazın,
Cavanam, çürümərəm.

* * *

İlan ağlı-qaralı,
İlan vuran saralı,
Sağ yanında yer eylə,
Mən də olum buralı.

* * *

Aşıqlar elmi deyir?
Tazyanaya telmi deyir?
O elə eyləyəndə,
Mənə "yıxıl, ölmü" deyir?

* * *

Qar daşı,
Qarlı dağdan qar daşı.
Bacıları görüm ki,
Ağlamasın qardaşı.

* * *

Qoyun dərədən gəlir,
Quzu bərədən gəlir,
Çıxım yol ayrıcına,
Səsin haradan gəlir?

* * *

Çay mənim, çeşmə mənim,
Çayımdan keçmə mənim.
Əlinə neştər alıb,
Yaramı deşmə mənim.

* * *

Sürü dərədən gəlir,
Quzu bərədən gəlir,
Yarım uzaq yoldadır
Görüm haradan gəlir?

* * *

Mən öldüm, anam qaldı,
Oduma yanan qaldı.
Dünyadan cavan getdim
Övladım nişana qaldı.

* * *

Bu dağlar qoşa dağlar,
Verib baş-başa dağlar.
Niyə susub dinmirsiz,
Dönübsüz daşa, dağlar?.

* * *

Apardı tatar məni,
Sürməyə qatar məni.
Nə bəzirgan gətirər,
Nə xoca satar məni.

* * *

Atım minənim yoxdu,
Donum geyənim yoxdu,
Yüz gün dərədə qalsam,
Xəbər soranım yoxdu.

* * *

Atı mindim köndələn,
Qolum yoxdu döndərəm,
Dəftərim, qələmim yox,
Kağız yazam, göndərəm.

* * *

Aşdım gəldim bərəni,
Gözüm görmür gələni.
Xeyri xoşa-halına,
Beyqafıldan öləni.

* * *

Qəlyanı ver çəkənə,
Doldurub ver çəkənə.
Dərdi çəkə bilmirəm,
Qaldırıb ver çəkənə.

* * *

Dünya, səndə qonağam,
Əylənmişəm, qonağam.
Gəl tökmə qaş-qabağın,
Gəldi-gedər qonağam.

* * *

Bu dağlar, hərəm dağlar,
Gülü yox, dərəm, dağlar.
Bir cüt oğlu ölənin
Ürəyi vərəm bağlar.

* * *

Əzizinəm qalasız,
Şəhər olmaz qalasız,
Mən ki getdim elimdən,
Siz salamat qalasız.

* * *

Eləmi, gecədən gedir,
Ay doğur, gecədən gedir,
Tək yatmağın üzündən
Zəhləm gecədən gedir.

* * *

Qarabağın meşəsi,
Qaradı bənövşəsi.
Qərib eldə gəzənin
Ağlamaqdı peşəsi.

* * *

Kağızım, ağ kağızım,
Dili yox, lal kağızım.
Gedirsən vətənimə,
Dil aç, yalvar, kağızım.

* * *

Gəncədən  gəl, Gəncədən,
Atın yesin yoncadan.
İlqarından dönübsən,
Belin qırılsın incədən.

* * *

Yol üstə duran oğlan,
Əlində “Quran” oğlan.
Quran qənimin olsun,
Əhdindən dönən oğlan.

* * *

Bulaq başı buz bağlar,
Dörd yanı yarpız bağlar.
Yarama məlhəm dedilər,
Gəlin açar, qız bağlar.

* * *

Eləmi, gülüm yandı,
Bülbülüm, gülüm yandı.
Qarnımda bağırsağım,
Ağzımda dilim yandı.

* * *

Əzizinəm, ya dəli,
Ya divana, ya dəli,
Dəysə özümkü dəysin,
Dəyməsin mənə yad əli.

* * *

Əzizim yaz ayları,
Al qələmi, yaz ayları.
Gəlirsə payız gəlsin
Gəlməsin yaz ayları.

* * *

Dərd məndə üz görübdür,
Meydanı düz görübdür.
Gedir, gedir, qayıdır
Yanımı yalqız görübdür.

* * *

Eləmi öy tikənə,
Sarmaşıb söy tikənə.
Allaha yalvararam
Dəyməsin öy tikənə.

* * *

Burda bir binə saldım,
Ağzını günə saldım,
Gördüm evim uçulub
Gözü yaşlı qayıtdım.

* * *

Qardaşım, sarı qardaş,
Qızılgül oysarı, qardaş,
Əllərin ipək olsun
Kəfənim sarı qardaş.

* * *

Bal dərdi, bala dərdi,
Hər güldən bəla dərdi.
Sağalar hər yaralar
Sağalmaz bala dərdi.

* * *

Qaranquşam, qaranquş,
Qanadım ayrıc-ayrıc.
Məni vuran xan oğlu
Qan qussun ovuc-ovuc.

* * *

Mən aşıq, alabaxta,
Qanadım taxta-taxta.
Məni vuran xan oğlu
Qan qussun laxta-laxta.

* * *

Payızdı, yazdı baxtavar,
Ördəkli, qazdı baxtavar.
Əlində dəftər, qələmi
Dedikcə yazdı baxtavar.

* * *

Eləmi, sən gələnə,
Dara zilfün gərdənə,
Əzrayıla can verməm
Saxlaram sən gələnə.

* * *

Mən aşiq gün doğana,
Yol gedir gün doğana,
Namazını burda qıl,
Üzün tut gün doğana.

* * *

Bu gələn Alım oloydu,
Qolunda qolum oloydu,
Kağız yazıb göndərsəm,
Görəsən, gələrmi oloydu?

* * *

Atam evində anam yox,
Əmim evində bacım yox,
Yüz il dərədə qalsam
«Harda qaldın» deyənim yox.

* * *

Başına mən dolanım,
Mən dönüm, mən dolanım,
Sən evində salamat ol,
Kölgəndə mən dolanım.

* * *

Əlimdə sicimim var,
Kürə atmağa gücüm var
Yan-yörəmə baxıram
Nə anam, nə bacım var.

* * *

Eləmi, gül üşüdü,
Şeh düşdü, gül üşüdü.
Uçub getdi bülbülüm
Bağçamda gül üşüdü.

* * *

Eləmi, vətən sarı,
Köynəyi kətan sarı.
Öldüm qərib ölkədə
Əllərim vətən sarı.

* * *

Eləmi, vətən yaxşı,
Köynəyi kətan yaxşı.
Gəzməyə qarıf ölkə
Ölməyə vətən yaxşı.

* * *

Əziziyəm, oyan gül,
Oyan bülbül, oyan gül.
Tez açıldın, tez soldun
Məni mağmın qoyan gül.

* * *

Yeri, hilalım yeri,
Boynu minalım yeri,
Sənə çəkdiyim zəhmət
Olsun halalın, yeri.

* * *

Ulduz səmaya gəlir,
Sözün deməyə gəlir.
Heç “al” deyənim yoxdur
Hamı yeməyə gəlir.

* * *

Kəkliyəm, oyla məni,
Daşdan-daşa qoyla məni,
Gecələr al qoynuna
Gündüzlər qoyla məni.

* * *

Xam arzular,
Kəklik daşda xam arzular,
Dur sallan, a boyun qurbanı
Qoy baxsın tamarzılar.

* * *

Bu dağ o dağdan ucadır,
Gündüzlər sənə gecədir,
Əlini ver əlimə,
Görüm halın necədir?

* * *

Çağır ha çağır oldu,
Yollar yağır oldu,
Adıma qazan asıldı,
Yediyim bağır oldu.

* * *

Eləmi, şeşə-şeşə,
Saqqalı, bığı şeşə,
Yarım yanıma gələydi,
Bığını eşə-eşə.

* * *

Dağlar, meşəli dağlar,
Tər bənövşəli dağlar,
Bizim el yurd yeridir,
Lalalı, meşəli dağlar.

* * *

Qar daşı,
Qarlı dağdan qar daşı,
Allaha xoş getməzmi
Bacı görsə qardaşı?

* * *

Qardaş-qardaş deyərlər,
Qardaş payı yeyərlər,
Qolun boynuma salsa
Onda qardaş deyərlər

* * *

Əzizinəm nərgizlər,
Bənövşələr, nərgizlər.
Qızlarda nə qaydadır
Qoynunda bir cüt nar gizlər.

* * *

Eləmi, yaxa qaldı,
Ay doğdu, gün yaxa qaldı,
Ev yiyəsi evindən getdi
Evciyəzi baxa qaldı.

* * *

İrəvanın sürüsü,
Çək dağları bürüsün.
Məni qoyub gediblər,
Oldum yadın birisi.

* * *

Bir ev tikdim gücünən,
Dəmirinən, tucunan.
Mən eldən ayrılmazdım
Ayırdılar gücünən.

* * *

Bu dağlarda biyan çox,
Biyanı heç dərən yox,
Dərdim çoxdur dünyada
Dərdimi anlayan yox.

* * *

Eləmi, oda yansın,
Qəlyanın oda yansın,
Necə ki, mən yanıram
Oddansın, o da yansın.

* * *

Yağaram yağış kimi,
Bitərəm qamış kimi,
Səni elə istərəm
Bostanda yemiş kimi.

* * *

Eləmi simi gözlər,
Tar çalan simi gözlər,
Qaşın kimi qaş olmaz
Gözlərin kimi gözlər.

* * *

Bazara keçi gəldi,
Nə idi suçu, gəldi,
Gəlin gedək köməyə
Camalın köçü gəldi.

* * *

Gözlərim göz götürmür,
Təhnizli söz götürmür,
Gələn mənə gəlibdir
Nağd alıb vej götürmür.

* * *

Dilim dilim bəlası,
Dilim başım bəlası,
Dilim burada durur
Başım çəkir bəlasın.

* * *

Yetimlər yetən yerdə,
Bayqular ötən yerdə,
Yetimdə nə qaydadır
Qalır gün batan yerdə.

* * *

Əzizinəm, ha səni,
Haqq saxlasın ha səni,
Xəstə könlü nar dilər
Mənim könlüm ha səni.

* * *

Eləmi, balasından,
Balamdan, balasından,
Ana da əl çəkərmi
Öz doğma balasından.

* * *

Araza gəmi gəldi,
Yel vurdu geri gəldi,
Gəlin gedək evimizə,
Cavanlıq dəmi gəldi.

* * *

Mən aşiqəm, Ağaxan,
Ağa soltan, ağa xan,
Buzlu meydan xam qalmaz
Bəlkə göydən yağa, xan.

* * *

Göy üzü damar-damar,
Göydən yerə nur yağar,
Ürək dediyin şüşədir
Sınsa onu kim yamar?

* * *

Qaynım, ağa qaynım,
Sallan gəl bağa qaynım,
Malım yox, dövlətim yox,
Canım sadağa, qaynım.

# Tırınqılar, qımqımalar...

* * *

Sabah oldu, işçi yola düzüldü,
Ala gözlər xumarlandı, süzüldü,
Ayın başı çervonları paylandı.
Dedim, dərin, qızlar, qar gəlir indi,
Gen dünya başıma dar gəlir indi.

Sabah oldu, işçi yala dırmandı,
Ala gözlər sağa-sola boylandı,
Tənbəl işçi zərbəçiyə qurbandı,
Dedim, dərin, qızlar, qar gəlir indi,
Gen dünya başıma dar gəlir indi.

Sabah oldu, işçi yola saylandı,
Ala gözlər sağa-sola boylandı,
Talvarın qabağı böyük xırmandı
Dedim, dərin, qızlar, qar gəlir indi,
Gen dünya başıma dar gəlir indi.

Traktorlar əkir, selkalar səpir,
Bir yandan dərilir, bir yandan tökür,
Göydən də durmadan yağışlar süzür,
Dedim, dərin, qızlar, qar gəlir indi
Gen dünya başıma dar gəlir indi.

* * *

Gəncəlisənmi, əmimoğlu,
İncəlisənmi, əmimoğlu,
Gəlib girəsən qoynuma
Dincəlisənmi, əmimoğlu.

* * *

Yağış gəlir yağa-yağa,
Bir ucu gəlir bizim bağa,
Əmim qızı həmzə balaq,
Gəlin gedək oynamağa.
Oynamağın vaxtı var,
Qızılgülün taxtı var.

* * *

Attılar attanır yalı sadaxlı,
Düyələr qalıbdır mıxa qadaxlı,
Bənövşə bığlıdı, lalə yanaqlı.
Budur gəlir sevgilim,
Budur gəlir öz gülüm.

* * *

Gəlin gedək Xan bulağa, xəzələ
Mən çit alım, sən tumanın təzələ
Gözüm düşüb o mehmanda gözələ.

* * *

Axşamdan yağan qar yağdı, bağladı.
Kəsildi bulaqdan yolu qızların.
Sənəyi doldurdu, qoydu kənara,
Üşüdü barmağı, əli qızların.

# Bu balama qurban...

* * *

Laylay çalım həmişə,
Karvan gedər enişə,
Yorğanında gül bitsin,
Yastığında bənövşə.
Laylay, çiçəyim, laylay.
Gözəl-göyçəyim, laylay.

* * *

Bala dərdi çəkməkdən
Soldu birçəyim, laylay
Balam, ay lay-lay, a lay-lay,
Gülüm, ay lay-lay, a lay-lay.

* * *

Payızım, yazım lay-lay,
Söhbətim, sazım, lay-lay,
Sən yat, çəkim keşiyin,
Körpəcə quzum, lay-lay,
Gülüm, ay lay-lay, a lay-lay.

* * *

Layla dedim yatasan,
Qönçə gülə batasan.
Qönçə gül payın olsun
Kölgəsində yatasan.
Laylay balam, a lay-lay,
Laylay gülüm, a lay-lay.

* * *

Laylay dedim gözünə,
Su ələnsin üzünə,
Heç vədə göz dəyməsin
Sənin qara gözünə.
Laylay balam, a laylay,
Laylay gülüm, a laylay.

* * *

Dağların lalasına,
Gözlərin alasına
Bibilər qurban olsun,
Qardaşın balasına.
Laylay balam, a laylay,
Laylay gülüm, a laylay.

* * *

Qoxusu güldən gəlir,
Güldən, bülbüldən gəlir.
Balamın  gül beşikdə
Yuxusu birdən gəlir.
Balam, ay lay-lay, a lay-lay,
Gülüm, ay lay-lay, a lay-lay.

* * *

Anan tel düzər sənə,
Bacın gül bəzər sənə,
Tanrıdan əhdim budu,
Dəyməsin nəzər sənə.
Laylay, güllü beşiyim,
Laylay, evim-eşiyim.

* * *

Sən yat, şirin yuxu tap
Mən də çəkim keşiyin.
Balama quzu qurban
Əllisi, yüzü qurban.
Maldan nə var qurbana,
Nənənin özü qurban.

* * *

Laylay dedim, yat dedim,
Yastığa baş at dedim,
Bala, çəkim nazını
Boya-başa çat dedim.
Balam, laylay, a laylay,
Körpəm, laylay, a laylay.

* * *

Sözün-soyun qurbanı,
Yaxşı boyun qurbanı.
Sən yeri mən bir baxım
Olum boyun qurbanı.
Balam, laylay, a laylay,
Körpəm, laylay, a laylay.

* * *

Laylay dedim, can dedim,
Yuxudan oyan dedim.
Sən yuxudan duranda
Canımı qurban dedim.
Balam, laylay, a laylay,
Körpəm, laylay, a laylay.

* * *

Balama can demişəm,
Ağlama, can demişəm.
Balam dil açan günə
Quzu qurban demişəm.
Balam, laylay, a laylay,
Körpəm, laylay, a laylay.

* * *

Laylay canım qurbanı,
El laylayın qurbanı.
Sən get şirin yuxuya,
Olum canın qurbanı.

* * *

Laylay dedim ellərdən,
Ətir dolu güllərdən,
Allah özü saxlasın
Gələn aylar, illərdən.

* * *

Laylayın bir quş idi,
Hasara qonmuş idi.
Əl uzatdım tutmağa
Mələklər tutmuş idi.

* * *

Layla dedim yatınca,
Qızlgülə batınca,
Sənə layla çalaram
Şirin yuxu tapınca.

* * *

Layla dedim yatınca,
Ay yerinə batınca,
Qollarım yorğun oldu
Sən yuxuya çatınca.

* * *

A qara tat,
Talvarda yat,
Bir şillə vurum,
Dur bir də yat.

* * *

Dağda dağanlar,
İnək sağanlar,
Oğlan doğanlar,
Bu balama qurban.

* * *

Qurban olum Qurvana,
Yüyürər, gedər xırmana,
Xırmançı vurar qıçına,
Yıxılar arxın içinə.
Arxın içi çiçəkdir,
Balam hamıdan göyçəkdir.

* * *

Anam-bacım, qız balam,
Damdırası saz balam,
Ördək balam, qaz balam.

* * *

Lay-lay dedim yatasan,
Şirin yuxu tapasan,
Qızılgül oylağın olsun
İçindəcə yatasan.

# Тар-тармаса

Tap-tapmaca, gül yapmaca
Məməli xatın, dişləri yox

***(Cücə)***

O nədir ki, mən deyirəm, "gəl, gəl,"
o gəlmir,
Deyəndə ki, "gəlmə, gəlmə," o gəlir.

***(Dodaq)***

Qah-qah qalası var bunun,
Qəm piyalası var bunun,
Nə doğar, nə uçurdar,
Uçar balası var bunun.

***(Arı)***

Hajılar haja gedər,
Cəhd eylər, gejə gedər,
Bir yumurtanın içində,
Sana, gör, neçə cücə gedər.

***(Nar)***

Tat-tatı götürür,
Tat oğlunu götürür,
Qızı yarpaq götürür,
Oğlu torpaq götürür.

***(Evin damı)***

Mən idim, hatəm idi,
Hatəm mənim atam idi,
Ər idik, arvad idik,
Bir həyətdə qardaş idik.

***(Qarışqa)***

Qaya altda dörd düdük.

***(İnəyin əmcəyi)***

Xanamın oxu düzdür,
Sana, gör neçə yüzdü,
Oğlu bazara gedib,
Anası evdə qızdı.

***(Əriş, arğac, gəbə, xana)***

O nədir ki, tezdən durub adamı minir.

***(Sənək)***

Ağac başında unnu dağarcıq.

***(İydə)***

Suya düşür dağılır,
Sudan çıxır yığılır

***(Atın quyruğu)***

Sudan çıxar dillənər,
Suya girər ənnənər.

***(Qurbağa)***

Əyrim, üyrüm ilancıq,
Onu tapmayan olsun qancıq

***(Yol, cığır)***

Dağdan gəlir, daşdan gəlir,
Bir balaca aslan gəlir,
Ard ayağın aldırmaz,
Başına noxta saldırmaz.

***(Əzrayıl)***

Halım haldan yuxarı
Qonub güldən yuxarı.
Bir əcayib quş gördüm
Dizi beldən yuxarı.

***(Çəyirtkə)***

Gedər, gedər yerində,
Altun kəmər belində.
Gecə-gündüz yol gedər,
Yenə durub yerində.

***(Dəyirman daşı)***

Dağdan gəlir dağ kimi,
Qolları budaq kimi,
Əyilir su içməyə,
Bəyirir oğlaq kimi.

***(İldırım)***

O nədi ki, sayı bir,
Həftəsi bir, ayı bir.
Hamıdan hündürdədi,
İşığı bir, boyu bir.

***(Günəş)***

Hay gedər, huy gedər,
Bir qarış yol gedər.

***(Beşik, yüyürük)***

Əkil, bəkil əkildi,
Kol dibinə çəkildi,
Gözəlliyi can alır,
Boynu nədən büküldü?

***(Bənövşə)***

Bu meşə gül meşəsi,
Altı tər bənövşəsi,
Bir kişinin min oğlu,
Hamsının bir peşəsi.

***(Bal arısı)***

Göy üzündə düzülür,
Baxdıqca göz süzülür,
Gün çıxanda yox olur,
Gün batanda çox olur.

***(Ulduz)***

Bağda sürünər, gəzər,
Az-az görünər, gəzər.
Oxşayır bir yumağa
Qorxuram əl vurmağa.

***(Kirpi)***

Gecə işığı çoxdu,
Gündüz işığı yoxdu.

***(Ay)***

Ağ inəyin qara südü

***(Tut, bəhməz)***

Başı daraq,
Quyruğu oraq.

***(Xoruz)***

Axşam oldu saralır,
Sübhü tezdən qaralır.

***(Lampa)***

Ələk olar, vələk olar,
Xırmanlarda gərək olar.

***(Külək)***

Həmişə insana quldu,
Getdiyi, gəldiyi eyni yoldu.

***(Qapı)***

Aşağı əyirəm tökülməz,
Qırağı çəpərdi, sökülməz.

***(Göz)***

Uzun boy, əyri ayaq,
Gəzir yastı-yapalaq.

***(Dəvə)***

Bazarda olmaz, tərəzidə durmaz,
Ondan şirin şey olmaz.

***(Yuxu)***

Yerdən çıxar ağappaq,
Başında yumru papaq.

***(Göbələk)***

Vur böyrünə şapalaq,
Qar yağsın qalaq-qalaq.

***(Ələk, un)***

Qara toyuq, qarnı yırtıq.

***(Buxarı)***

Özü birdir, gözü min.

***(Xəlbir)***

Bu gün çərşənbədi,
Könlünə düşən nədi?
Odu yox, ocağı yox,
Kölgədə bitən nədi?

***(Dələmə)***

Mən aşıq yüz iyirmi,
Qaş gözə düz iyirmi,
Vədə başı istərlər,
Altı min yüz iyirmi.

***(Namaz)***

Dam üstündə dana dingildər.

***(Dolu)***

Səsi var, canı yox,
Sümüyü var, qanı yox.

***(Saat)***

Bir damım var ağzından boğazınacan içi dolu yarmaçadır.

***(Ağız-diş)***

Bir damım var tək dirəkli.

***(Göbələk)***

Çil toyuq, çiləmə toyuq,
Başın kəsdim qanı soyuq.

***(Qarpız)***

Bir damım var dirəksiz,
İçində yatır ürəksiz.

***(Məzar, meyit)***

Onu sənə dirəyim.

***(Göz)***

# Belə rəvayət edirlər ki...

## *Kimin dərdi yoxsa...*

Belə nəql edirlər ki, keçmiş zamanlarda bir padşah başının əyanları ilə ova çıxıbmış. Birdən meşədə canım fida olmuş cənabi - Cəbrayılla qarşılaşır. Oturub xeyli söhbət edirlər, keçmişdən, gələcəkdən danışırlar. Padşah görür ki, cənabi Cəbrayıl çox şey bilir. Odur ki, ondun soruşur:

- Cənabi Cəbrayıl, sən mənim dostumsan, mənə açıq de görüm, mən nə vaxt öləcəyəm?

Cənabi Cəbrayıl ona cavab verir:

- Sənin altın daş, üstün dəmir olanda öləcəksən.

Söhbət burada bitir. Padşah ovunu edib sarayına qayıdır. Ay dolanır, il keçir, padşah yenə ova çıxası olur. Gün-günorta yerinə çatanda padşah bir az dincəlmək istəyir. Görür ki, yolun kənarında yastı bir daş var. Bir az gözünün acısını almaq üçün uzanır, yuxulayır. Əyanları onu gündən qorumaq üçün qılınclarını çıxarıb dörd tərəfdən baş - başa çatır, qurşaqlarını açıb qılınclarının ucuna keçirərək günlük düzəldirlər. Bu zaman cənabi Cəbrayıl onun yanına gəlir və deyir:

- Dostum, sənin fərzin tamamdır. İndi Əzrayıl gəlib sənin canını alacaq. Dur, nə sözün, tapşırığın varsa əyanlarına danış, vəsiyyətini elə.

Padşah gözünü açıb əyanlarına göz gəzdirir, yavaş-yavaş vəsiyyət etməyə başlayır:

- Mənim ömrümün axırıdır, ölümüm ya-

xınlaşıb. Anama deyərsiz ki, mənim ehsanımı bişirmək üçün meşəyə odun gətirməyə gedəndə elə odun gətizdirsin ki, bir dənə də olsun düyünü olmasın. Məni basırmağa aparanda mədrəsanlığa yeddi qədəm qalmış dayansın və mənim adımı çağırsın. Geri qayıdıb ehsanımı verəndə desin ki, kimin dərdi yoxdursa, ehsanı o adam yesin.

Padşah vəsiyyətini edib gözlərini yumur. Əhli-əyalı padşahın meyidini götürüb saraya qayıdır.

Ana balasının vəsiyyətini yerinə yetirir. Odun üçün meşəyə adam göndərir. Adamlar görür ki, meşədə bir dənə də düyünsüz ağac yoxdur. Məcbur olub düyünlü də olsa odun gətirirlər. Padşahın cənazəsini mədrəsanlığa aparanda ora çatmağa yeddi qədəm qalmış ana əmr edir: "Dayanın!" Qəfilə dayanır. Ana oğlunu adı ilə çağırır: "İskəndər!" Baxıb görür ki, mədrəsanlığın dörd tərəfindən anaya "hay" deyə cavab verirlər.

Padşahı basırıb geri qayıdırlar. Ehsan yeməyə oturanda ana ayağa durub deyir: "Kimin dərdi yoxdursa, o adam ehsandan yesin!" Hamı əlini geri çəkir, heç kəs yeməyə əl vurmur. Ana bunu görüb məclisdəkilə müraciətlə:

- Deməli, dünya belə gəlib, belə də gedəcək. Düyünsüz ağac, dərdsiz insan yoxdur. Odur ki, ehsandan yeyin, oğluma rəhmət oxuyun - deyərək əlini süfrəyə birinci uzadır.

## *Əzrayılın tapşırığı*

Allah cənabi Əzrayıla buyurur ki, gedib filan yerdə filan qadının canını alarsan. Əzrayıl Allahın buyurduğu evə gəlir, görür ki, canını alacağı qadın yatıb, balaları da yanında. İki uşağı bir tərəfində, kürəyinin ortasında, balacası qolunun üstündə, ananın döşü də ağzında yatır, hərdən də bir ağzını marçıldadaraq əmir. Cənabi Əzrayıl fikirləşir: “Allah yəqin ki, mənim günahımdan keçər, mən bu anaya necə qıyım. Onu öldürməyəcəyəm. Onu öldürsəm uşaqları yetim qalar, körpəsi də acından ölər. Qoy mən elə balacanın canını alım, ana o iki uşağına baxsın”. Əzrayıl belə də edir. İşini qurtarıb Allahın hüzuruna gəlir, hesabat verir. Allah qəzəblənib cənabi Əzrayılın qolundan tutub tullayır. Əzrayıl gəlib bir dərəyə düşür. Görür ki, qarşısında ucu-bucağı görünməyən bir dəryadır. Dəryanın ortasında dəyirmi bir daş suyun üzünə çıxıb. Daşın üstündə ot cücərib. Üç günlük bir quzu da otu iştahla otlayır. Allahdan vəhy gəlir: “İndi gördünmü, mən istəsəm daşı da göyərdərəm. Sən indi get, o qadını öldür. Uşaqların ruzusunu ozüm verəcəm”.

## *Vəsiyyət*

Keçmiş zamanlarda varlı-hallı bir kişi olur. Onun həmişə ayağında qızılı rəngdə başmağı, əynində ətəyi haşiyəli kəşmiri ipəkdən xələt, belinə qumaşdan bağladığı kəmər, başında bahalı buxara papağı olardı. Dünyanı yorub yolda qoymuşdu. Günlərin bir günü dünyalar yola salmış bu nurani kişi xəstələnib yorğan-döşəyə düşür. Zər baftalı, ipək yorğan-döşəyə uzanıb oğlunu yanına çağırır. Oğlu gəlib atasının yatağının aşağısında oturur. Atası ona deyir ki, yaxın otur, mən səni yaxşı görə bilim. Oğlu atası ilə üzbəüz oturur. Kişi dərindən nəfəs alıb qayğılı gözlərini oğlunun üzündə gəzdirib sözə başlayır:

- Oğul, mən ömrümü yaxşı yaşamışam, öləndə nisgilli qalmayacaqsan. Sənə bir vəsiyyətim var. Bax, evin küncündəki o sandığın içində iki qutu var. Qutuların hərəsində bir zərf var. Mən öləndən sonra birinci göy haşiyəli qutunu, məni basırıb evə qayıdanda isə ikinci qara haşiyəli qutunu açıb içindəki məktubu oxuyarsan.

Kişi vəsiyyətini edib, arvad-uşağı ilə halallaşıb bu dünyaya əbədi olaraq gözünü yumur. Oğul durub birinci qutunu açır. Zərfi cırıb atasının öz dəsti-xətti ilə yazdığı məktubu oxuyur. Görür ki, atası yazıb: "Oğlum, bilirsən ki, mənim bir ayağım xəstədir, odur ki, məni torpağa tapşıranda ayağım üşüməsin deyə bir ayağıma corab geydirərsən". Oğul atasının bu son arzusunu yerinə yetir-

mək istəyir, mollanın yanına gedib atasının axırıncı istəyini bildirir. Molla icazə vermir, deyir ki, bu, şəriətə ziddir. Nə qədər yalvar-yaxar edirsə bir xeyri olmur. Məcbur qalıb gedir şəhərin hörmətli, dünya görmüş, elmli, müdrik adamlarının yanına, atasının son vəsiyyətini danışır. Onlar da razı olmayıb deyirlər ki, insan dünyaya necə gəlibsə, eləcə də getməlidir. Oğul kor-peşiman evinə qayıdıb atasını dəfn-kəfn edib torpağa tapşırır. Sonra gedib qutudakı ikinci zərfi açıb məktubu oxuyur: "Oğlum, gördün ki, adam öləndə özü ilə heç bir tay corab da apara bilmir". Yəni dünya malı dünyada qalandır. Dünya malına etibar yoxdur. İnsana qalan ancaq elədiyi yaxşılıqlardır.

## *Mən ona öyrənincə...*

Belə nəql edirlər ki, qoçaq bir kişi varmış. Arvadı ilə çox mehriban, şən-firavan, deyə-gülə yaşayırmış. Kişi hörükçü imiş. Ev tikəndə aşağıdan daşı elə atırmış ki, yuxarıdakı bənna onu asanlıqla tuturmuş.

Pis, bədniyyətli adamlar həmişə olub, indi də var. Kişini həmin o pis adamlardan birinin gözü götürmür, ona pislik etmək istəyir. Bir küpəgirən qarı tapır. Tapşırır ki, sən get hörükçünün arvadını yoldan çıxar, elə et ki, kişiynən arası dəysin. Küpəgirən qarı şirin dilini işə salıb arvadı ərindən döndərir. Kişi əvvəlki şövqlə işləyə bilmir.

Günlərin birində kişi evə gəlir, aftafasını su ilə doldurub ayaqyoluna gedir. Orada aftafanın qulpunu və lüləyini sındırır, gətirib bir küncə tullayır. Başlayır heyfsilənməyə. Arvad ərinə təskinlik verib deyir:

- Heç qəm eləmə, ay kişi, nə çoxdur bazarda aftafa, gedib birini də alarsan.

Kişi başını qaldırıb arvadının üzünə baxıb deyir:

- Arvad, almağına alaram, ancaq bir şeyi başa düşmürsən. Neçə illərdi mən ona öyrəşmişəm, o mənə öyrəşib.O,məni görüb,mən də onun səmtini bilirəm. Mən təzəsini alası, o mənə öyrəşəsi, mən ona öyrəşəsi, iş-işdən keçər.

Arvad barmağını dişləyib fikrə gedir: “Ay-hay, bu sözləri kişi mənə eşitdirir, mən düz yola qayıtmalıyam, kişiyə əvvəlki kimi qulluq etməliyəm”.

Ərlə arvad yenidən mehriban yaşamağa başlayır, can deyib can eşidirlər.

## *Cinlərin bayramı*

Keçmişlərdə mamam (bibim) qızı Nabat çaylağa paltar yumağa gedir. Ocaq qalayıb qaynar qazan asır. Özü çimir, paltarları yuyur, evdə də anası ha gözləyir, qız gəlib çıxmır. Axşama yaxın görür ki, budur, Nabat qoltuğunda paltar tayası gəlir. Bərk açıqlanır, durub onu vurmaq istəyir:

– A günü qara, bu nə vaxtın gəlməyidir? Qız uşağı bu zamana qədər çöldəmi qalar?

Nabat cavab verir:

– Ay ciji, qoy bir nəfəsimi dərim, başıma gələnləri sənə danışım. Elə paltarları təzəcə yumuşdum ki, kimsə məni çağırdı. Mən səs gələn tərəfə getdim. O səs məni yenə də adımla şirin-şirin çağırdı. Səs çağırdı, mən getdim. Gethaget, gəldim dağlar arasında düzəngah bir yerə çıxdım. Sən demə həmin gün cinlər, əyatınlar bayram edirlərmiş. Geniş süfrə açmış, hamısı dövrələmə bardaş qurub oturmuşdular. Məni də dəvət etdilər. Başa düşdüm ki, mən cin yığnağına gəlib çıxmışam. Yadıma düşdü ki, belə vaxtı, «bismillah» deyərlər. Bu sözü deyəndə cinlər, şəyatinlər bərkdən güldülər. Səhvimi anladım. Tez dedim: «Bissimillah-rəhmanir-rəhim». Belə deyən kimi cinlər yox oldu. Baxdım ki, çayın kənarındayam. Tez paltarları da götürüb evə gəldim.

Anası Allaha şükür edib qızını döyməkdən vaz keçir.

## *Cinin muncuğu*

Qocalar danışardı ki, Əlimərdan deyilən bir ağa vardı. Onun Rəşid adında igid bir oğlu və qız gözəlliyi olan bir atı varmış. Oğlu Rəşid çölə, biçinə gedəndə atı minər, çöldə otlağa buraxar, axşam qayıdanda minib gələrmiş. Hər dəfə atası Əlimərdan ağa ata yaxınlaşar, onun tərləmiş bədənini sığallayar, körüklənmiş burnuna baxıb oğlunu danlayardı:

– Atı bu qədər çapıb yormazlar, bir də görərsən atın bağrı çatladı, öldü.

Rəşid təəccüblə atasına baxıb, deyərdi:

– Mən onu ancaq bir gedəndə, bir də gələndə minirəm.

Əlimərdan ağa barmağını dişləyir, fikrə dalır. Səhəri gün atın üstünə mazut sürtüb çölə ötürür. At axşam üstü qan-tər içində evə qayıdır. Görürlər ki, üstündə gözəl-göyçək bir qız uşağı oturub. Onu atdan düşürürlər, yaxasına sancaq, boğazına muncuq taxırlar,. Onu ev qızı kimi işlədirlər. O da gəbə-kilim toxuyur, evi silib-süpürür, biş-düş edir, bulaqdan su gətirir. Günlərin birində bulaq başında qızların birindən xahiş edir ki, mənim yaxamdakı sancağı çıxardın, mən ondan qorxuram. Qızlar sancağı çıxardan kimi qız dönüb olur cin. Qaçıb yolun kənarına gedir. Başlayır oradan səslənməyə:

– Ay Əlimərdan ağa! Ay Əlimərdan ağa!

Xanada qaldı muncuğum,
Yandı dilim - dilçəyim,

Mənim muncuğumu ver, çıxım gedim.

Əlimərdan ağa qızı evə gətirən gün onun boynuna bağladığı muncuğu çıxardıb xananın ağacından asmışdı. Bir neçə gün cin səhər-axşam hey bu sözləri deyib Əlimərdan ağanın rahatlığını pozurdu. Axırda ağa nökərə deyir ki, "bu cin lap zəhləmi tökdü. Onun mərətini verin, çıxıb getsin". Cin muncuğunu alandan sonra yox olur.

# *Molla qayası*

Karvansara yaxınlığında qayanın döşündə bir molla və bir ayı heykəlləşib. Belə rəvayət edirlər ki, bir molla eşşəyinə minib meşənin içi ilə Karvansaraya doğru gedirmiş. Başını qaldırıb günə baxanda görür ki, namazın vaxtıdır. Dəstəmaz alıb namaz qılmağa başlayır. Elə bu zaman bir ayı yaxınlaşıb onu parçalamaq istəyir. Molla namazını yarımçıq kəsib Allaha yalvarır: “Xudaya, canım sənə fida olsun. Qoyma ayı məni parçalasın. Məni də, onu da yerimizdəcə daşa döndər”. Allah mollanın səsini eşidir və hər ikisini daşa döndərir. Gedib baxsanız görərsiniz ki, molla əlləri yuxarı Allaha yalvarırmış kimi, ayı da ayaq üstə daşlaşıb. O vaxtdan həmin qaya “Molla qayası” adlanıb.

## *Əyirdəkli dağ*

Keçmiş vaxtlarda yaz başlayan kimi sığırçılar mal-qara sürülərini dağlara sürər, binələr qurar, alaçıqlar düzəldərdilər. Hələ kənddə ikən arvadlar köç tədarükü görər, əyihdək bişirər, xurcuna yığar, ulağa, öküzə yüklərdilər. Mamam danışardı ki, keçmiş zamanlarda bir dəfə yenə aran dağa köçəndə əyirdək bişirirlər, xurcuna yığıb xam öküzə yükləyirlər. Öküz özünü çibinlərdən qorumaq üçün atılıb düşəndə, təpik atanda əyirdəklər bir-bir xurcundan yerə tökülüb daşa dönür. Həmin daş şəklini almış əyirdəklər indi də durur və əyirdəklərin töküldüyü dağa «Əyirdəkli dağ» deyirlər.

## *Qaybalılar yatağı*

Belə nağıl edirlər ki, keçmişdə «Qaybalılar yatağı» deyilən bir yer varmış. Axarlı-baxarlı, yaşıllıqlar, gövdəli ağaclıqlar içində yerləşirmiş. Yatağın üstündə iki bulaq var imiş: Acı və Şirin bulaq. Yatağın sahibi Qaybalı kişi olub. Yatağın yaxınlığında ikinci bir yataq olur. Bu da olur Diri deyilən bir kişinin yatağı. Diri kişi qoyunları bulağa suvarmağa gətirir. Qoyunları suvarır, yununu qırxır və yun qırıntıları bulağın gözünü tutur. Bunun üstündə Qaybalıların oğlu Hacıkərim kişi ilə Diri kişinin sözü çəpləşir. Diri kişi cəld tərpənərək, tüfəngi çiynindən aşırıb Hacıkərim kişini nişan alıb öldürür.

Hacıkərim kişinin arvadı hamilə imiş. Gün keçir, ay dolanır, arvadın bir oğlu olur. Uşağa atasının adını verirlər - Hacıkərim. Uşaq böyüyür, 12-13 yaşına çatanda Diri kişi haqqında eşidir. Yaylağa gəlib Diri kişini tapır. Diri kişi bu zaman yataqda, bulaq başında, ağacın kölgəsində uzanıb mürgü vururmuş. Qoyunları suvarmağa gətirən Hacıkərim Diri kişiyə yaxınlaşıb onu səsləyir:

– A Diri baba! Mənim dədəmi sənmi öldürübsən?

Diri kişi cavab vermir.

Hacıkərim kişini yenidən sorğu-suala tutur:

– Çiynindəki tüfəngnənmi öldürübsən?

Diri kişi yenə məhəl qoymur, onu uşaq sanıb cavab vermir, ağacın kölgəsində mür-

güləməyinə davam edir. Onun saymamazlığı uşağı lap cin atına mindirir, tüfəngi hərləyib kişini nişan alıb güllələyir. Hacıkərim anasının yanına gəlib qürurla deyir ki, dədəmin intiqamını aldım. Anası oğlunu qucaqlayıb deyir:

– Şükürlər olsun Allahıma, qisas qiyamətə qalmadı. Oğlum qisasımızı aldı.

## *Onda öləcəyəm...*

Günlərin birində baba nəvəsilə oturub şirin-şirin söhbət edirmiş. Birdən nəvə babadan soruşur:

– Baba, sən nə vaxt öləcəksən?

Baba cavab verir:

– Sən öləndən sonra.

Baba ilə nəvənin söhbətini eşidən gəlin qaş-qabağını tökür. Axşam işdən evə qayıdan ərinə şikayət edib qaynatasının oğluna dediyi sözləri ərinə çatdırır. Oğul acıqlı halda atasından soruşur:

– Ay dədə, o nə sözdü uşağa demisən?

Atası təmkinlə oğluna "otur" deyib məsələni başa salır:

– Sənin oğlun məni – babasını görüb tanıyır, məni çox istəyir. Ola bilsin ki, nəticəm məni görməsin və tanımasın. Mən öləndə neçə ki nəvəm sağdı, mənim qəbrim üstə gəlib ziyarət edəcək, yasin oxutduracaq. Elə ki, nəvəm qocalıb öldü, bax onda mən də öləcəm.

Oğul peşiman olub atasından üzr istəyir.

## *Qaynana ilə gəlin*

Nurani bir arvad, onun da aman-zaman bir oğlu var imiş. Arvad təklikdən, bekarçılıqdan o qədər yeyib-içirmiş ki, eni boyunu basır, köklükdən yeriyə bilmir, nəfəsi daralırmış.

Oğluna deyir:

– Mən xəstəyəm, məni həkimə apar.

Oğlu onu həkimə aparır. Həkim arvada baxıb soruşur:

– Ay ana, yanında oğlundan başqa kimin var?

Ana deyir:

– Heç kimim.

Həkim deyir:

– Get, oğlunu evləndir, bir ildən sonra yanıma gələrsən.

Arvad həkimin dediyini edir, oğlunu evləndirir. Bir il keçir. Bu bir ildə o qədər arıqlayır ki, yeriməyə taqəti olmur. Oğluna deyir ki, məni həkimə apar. Oğlu anasını loğmanın yanına aparır. Loğman onu görüb arvadın oğluna deyir:

– Ananı mənim anamın yanına apar. İki-üç aydan sonra yenidən mənim yanıma gətirərsən.

Oğlu elə də edir. İki-üç ay ərzində iki qadın danışa-gülə yeyib-içirlər. Arvad yenidən kökəlir. Oğlu onu loğmanın yanına gətirir. Loğman ona baxıb deyir:

– İndən belə get, ye-iç, danış, gül, gününü keçir. Heç kimə də baş qoşma. Sənin xəstəliyin-zadın yoxdu.

## *Haqq var, divan yox*

Üç tacir uzaq diyara alverə gedir. Satdıqlarını satıb, aldıqlarını alandan sonra öz şəhərlərinə qayıdası olurlar. Pulu böləndə başçı payı artıq götürür. O biri iki yoldaş sözü bir yerə qoyurlar ki, tacirbaşını öldürək, pulu da bölək. Qaranlıqda, çölün düzündə kimdi bunu görən. Üçüncü kişi, yəni başçıları onların söhbətini eşidir, onlara deyir:

– Mən belə başa düşdüm ki, siz məni öldürmək istəyirsiniz. Onda mənim sizdən bir xahişim var, ona əməl edin. Mən gələndə arvadım ikicanlı idi. Bəlkə də indi azad olub. Ona deyərsiz ki, oğlum olsa adını "Haqq var, divan yox" qoysun.

Tacirlər onu öldürüb, ordaca basırırlar, pulu da bölürlər. Tacirlər yol gəlib şəhərlərinə çatırlar. Tacirbaşının arvadı eşidir ki, tacirlər gəlib. Ərindən xəbər tutmaq üçün onların yanına gedir. Tacirlər ona deyirlər ki, bəs ərin naxoşladı, öldü, biz də dəfn-kəfn etdik. Ancaq ərin vəsiyyət edib dedi ki, arvadıma deyin, oğlum olsa adını "Haqq var, divan yox" qoysun.

Arvad kor-peşiman evə qayıdır. Uşağın da adını ərinin vəsiyyətinə görə "Haqq var, divan yox" qoyur.

Günlərin birində ölkənin padşahı paltarını dəyişib şəhəri gəzməyə çıxır. Birdən qulağına qəribə səs gəlir. Görür ki, bir qadındı, uşağını çağırır: "Ay Haqq var, divan yox, ay Haqq var, divan yox!" Arvaddan soruşur:

– Bu necə addır uşağa qoymusan? Bu sirdən məni agah elə!

Arvad əhvalatı ona danışır. Padşah barmağını dişləyir, ürəyinə nəsə damır. Sağ qalmış tacirləri saraya – divanxanaya çağırtdırır və əhvalatı olduğu kimi öyrənir. Padşah əmr edir ki, bu iki taciri edam ağacına aparıb dara çəksinlər. Padşah bu əməlilə sübut edir ki, onun məmləkətində haqq da var, divan da var.

## *Onun günahı səninkindən çoxdu*

Bir kişinin atı və qılıncından başqa heç nəyi yox imiş. Bir gün daxmasında oturub üzünü qırxırmış. Görür ki, saçı-saqqalı ağarıb. Peşimançılıqla fikir edir: “Bu yaşıma çatmışam, nə ailəm var, nə uşağım, günahım isə çoxdu”.

Günlərin birində kişi atını minib pərişan halda yol gedirmiş. Birdən bir nurani qoca bunun qabağına çıxır, xəbər alır:

– Niyə belə bikefsən?

Kişi cavab verir:

- A kişi, çıx yolunan get, nəyinə lazımdır?

Nurani qoca əl çəkməyib bir də soruşur.

- Mənim dərdimi soruşma, qardaş, dərdimə əlac yoxdu.

– Dərdini de, bəlkə əlac eləyə bildim.

Kişi deyir:

– Bu yaşa çatmışam, heç nəyin sahibi olmamışam. Ancaq günahım çoxdur.

O biri nurani kişi üzünü göyə sarı qaldırıb Allaha kişinin dərdini izhar edir.

Qeybdən səs gəlir:

– Getsin yeddi yolun ayrıcında bostan əksin, qarpız-yemiş becərsin.

Kişi elə də edir. Bostan əkir. Vaxt gəlir, bostan yetişir. Məhsulun çoxluğunu görüb kişi ordaca oturur, fikir edir:

– Mən bu qədər qarpızı-yemişi nə edim, alan yox, satan yox.

Kişi sükut içində ikən nurani kişi yenidən peyda olur, onun halətini görür və Allaha

müraciət edir ki, bəs kişi indi nə etməlidi?

Qeybdən yenə səs gəlir:

– Get kişiyə de ki, yoldan keçənlərə desin, qarpız-yemiş götürün, kəsin, yeyin, aparın.

Deyilənə görə, bostan Əli süfrəsidir, yoldan ötən-keçən ondan yeməlidir.

Kişi belə də edir. Günün isti vaxtı olur. Görür ki, yolnan bir kişi tələsik gəlir. Yoldan keçənə deyir:

– A kişi, qarpız kəs, ye.

Kişi dayanmır, tələsik yoluna davam edir. Bostançı qeyzlənir, arxadan çatıb kişinin başını qılıncla üzür və peşiman-peşiman bostanın qırağında oturur. Nurani kişi yenə gəlir, əhvalatdan halı olur. Qeybdən səs gəlir:

– Sənin günahlarından keçirəm. Sən öldürübsən doxsan doqquz adam, o öldürüb yüz adam. O kişi yüz birinci adamı öldürməyə gedirdi. Onun günahı səninkindən çoxdu.

## *Haramlıq*

Keçmiş zamanlarda ailəli iki qardaş olur. Hərəsinin də bir oğlu. Qardaşlar və qardaş arvadının biri çölə işləməyə gedir. Evdə qalan o biri qardaşın arvadı evdə olan bir yumurtanı bişirir. Yarı bölüb uşaqlara verir. Axşam evə dönən qardaşlardan böyüyü görür ki, yuvasına azuqə daşıyan qarışqalar bu dəfə azuqəni evə yox, çölə daşıyır (o vaxtkı evlər torpaqdan və baddan olurmuş). Başa düşür ki, bu evdə nə isə bir haramlıq olub. Ər arvadından soruşur:

– Sən mənə düzünü de görüm, niyə qarışqalar yemini çölə daşıyır?

Öz səhvini başa düşən gəlin düzünü deməyə məcbur olur:

– Allahdan gizlin deyil, bəndədən nə gizlədim? Mən yumurtanı böləndə böyük hissəsini qaynımın uşağına yox, öz oğluma verdim.

## *Kərə Kərəm*

Qaçaq Kərəm Qıraq Kəsəmən obasında, Zal oğlu İsgəndərin ailəsində doğulub. İsgəndər kişi kəndlilərin haqqını müdafiə etdiyi üçün Sibirə sürgün olunur və orada vəfat edir. Atasının ölümündən sonra onun silahını götürən Kərəm qaçaqlığa başlayır. Qafqazda, Türkiyədə, İranda məşhur, igid el qəhrəmanına çevrilir. Rusiya çarının onu tutmaq üçün etdiyi cəhdlər boşa çıxır. Bu qəhrəman igidin adına rəvayətlər, dastanlar qoşulur.

Bir gün qonşu mahalda başqa bir Kərəm də peyda olur. O, özünü Qaçaq Kərəm adlandıraraq yol kəsir, adamların var-dövlətini qarət edir. Söz gedir Qaçaq Kərəmə çatır. O gəzib quldur Kərəmi tapır və deyir:

– Sən kimsən?

Quldur deyir:

– Mən Qaçaq Kərəməm.

Qaçaq Kərəm bir qədər fikirləşib:

– Qaçaq Kərəm mənəm. Sən isə quldursan. Bizi fərqləndirmək üçün bir yol var: sənin qulağını kəsəcəm, olacaqsan kərə Kərəm – deyib quldurun bir qulağını xəncərlə dibindən üzür. O gündən biri olur Qaçaq Kərəm, o biri də olur Kərə Kərəm.

## *Hər kənddə bir ev tik*

Bir kişinin bir oğlu var imiş. Günlərin bir günü kişi xəstələnir. Oğlunu yanına çağırıb vəsiyyət edir:

– Oğul, mənim vaxtım tamamdı, ölürəm. Məndən sonra tək qalmayasan deyə hər kənddə bir ev tik.

Oğlu fikir edir ki, mən nə qədər ev tikməliyəm? Bu qədər pulu haradan tapım? Fikirli halda kənd içinə çıxır. Bu zaman bir qoca kişi ona yaxınlaşır və oğlandan niyə bikef olduğunu soruşur. Oğlan atasının vəsiyyətini ona danışır.

– Sən başa düşməmisən ki, atan sənə nə demək istəyib. Atan demək istəyib ki, hər kənddə özünə bir dost tut. Gedəndə də ürəklə gedib dostunun evində qala biləsən.

## *Hərənin öz qisməti*

Bir kişinin zəmisi vardı. Gedib görür ki, zəmidə ikicə sünbül əmələ gəlib. Yel əsdikcə sünbüllər dilə gəlib danışır. Sünbüllərin biri o birinə deyir:

– Mən günçıxana qismətəm.

O biri də deyir:

– Mən günbatana qismətəm.

Kişi sünbüllərin bir sözünü sınamaq qərarına gəlir, bu iki sünbülü kəsib evinə gətirir, ipnən bağlayıb divardan asır.

Aradan az keçir, çox keçir. Günlərin birində kişi həyətə çıxanda görür ki, çöldə iki yol adamı dayanıb, salam verib soruşur:

– Hardan gəlib hara gedirsiniz?

Yolçular cavab verirlər:

– Yol adamıyıq, səfərə gedirik, gecələməyə yerimiz yoxdu. Bizi bir gecəlik qonaq saxlarsanmı?

Kişi cavab verir:

- Niyə saxlamıram, Allaha da qurban olum, onun qonağına da. Keçin içəri.

Kişi onları evə dəvət edir. Qonaqlar içəri keçirlər. Ancaq evdə yeməyə bir şey olmadığından qonaqlara heç nə verə bilmirlər. Kişi arvadına işarə edib deyir:

– Yuxarıdan asılmış sünbülləri təmizlə, kirkirədə çək, qonaqlara bişir.

Arvadı elə də edir, qonaqlarını yedizdirir.

Ev yiyəsi soruşur:

– Siz indi deyin görüm, hardan gəlib, hara gedirsiniz?

Biri deyir:

– Günçıxandan günbatana gedirəm.

O biri də deyir:

– Günbatandan günçıxana gedirəm.

Kişi barmağını dişləyib fikirləşir:

– Ay hay, sünbüllərin dediyi düz imiş.

## *Həcci evində də qəbul edə bilərsən*

Qaynata ilə qaynana Həcc dövrü Məkkəyə gedirlər. Evin gəlini küləfirəngidə oturubmuş. Evin qulluqçusu saç asıb çörək bişirirdi. İkicanlı olan qulluqçunun ürəyindən ət xörəyi keçir. Həyətdə qaçan küçüyü kəsib dərisinə təpir, ocağın qoruna basdırır, evə keçir. Evin gəlini tez nökəri çağırır, ocaqdakı küçüyü tullatdırır, bir quzu kəsdirir, ətini dərisinin içinə qoydurub qora basırtdırır. Bir az keçmiş qulluqçu gedib əti götürür, yeməyə başlayır.

Həccə getmiş qaynata ilə qaynana Kəbəni təvaf etdikdə gözlərinə gəlinləri görsənir. Bu bir sirr olaraq qalır. Evə dönən qocalar gəlindən soruşurlar:

– Sən də Həccə getmişdin?

Gəlin and içib aman edir ki, nə Həcc, nə Kəbə, nə ziyarət?

Qocalar yenidən soruşurlar:

– Onda düzünü de, biz gedəndən sonra bizdən gizlin nə etmisən?

Gəlin olan əhvalatı danışır.

Qaynatası deyir:

– Üzün ağ olsun, gəlin! Sən bizdən qabaq gedib Kəbəni dolanıb, Həcci qəbul etmisən.

## *Vaxt gələcək ki...*

Məhəmməd hümmət, dünya binnət olandan hadisələr təkrar olunur.

Günlərin bir günü Süleyman peyğəmbər (ə.s.) camaatı yığıb iclas keçirir. Onların dərd-sərini, kimin nəyə ehtiyacı olduğunu öyrənir.

Dünyanın gərdişindən, gedişatından söhbət açır. Elə bu dəmdə əjdaha qiyafəli bir nəfər sürünə-sürünə onlara yaxınlaşır, bir qıraqda dayanıb söhbətə qulaq asır. Onu gəldiyini Süleyman peyğəmbər görmüşdü. Odur ki, söhbətini qurtarıb əjdahadan soruşur:

- Kimsən, nəçisən, hardan gəlib hara gedirsən? Mənə görə nə qulluğun, sözün var? De, səni dinləyirəm.

Əjdaha irəli gəlir, əlini sinəsinə qoyur, təzim edib deyir:

- Ya peyğəmbər, mən evlənmək fikrinə düşmüşəm. Sizdən özümə bir qız istəyirəm.

Peyğəmbər camaata göz gəzdirib onlara müraciət edir:

- Ay camaat, kim öz qızını bu əjdahaya ərə verə bilər?

Camaatın içinə bir uğultu düşür. Hamı pıçıldaşır: "Bu əjdahaya qızımızı verə bilmərik".

Kənarda bir küncdə dayanmış, cındırından cin hürkən, qoca bir kişi irəli yeriyib deyir:

- Ya peyğəmbər, canım sənə fida olsun, qoy sənin sözün yerə düşməsin, mən qızımı

bu əjdahaya verməyə razıyam.

Kişi daxmasına gəlir, əhvalatı arvadına danışır. Kişinin böyük və ortancıl qızları razı olmurlar. Deyirlər, əgər yaxşıdırsa əjdahaya Süleyman peyğəmbər öz qızını versin, biz getmirik. Evin kiçik qızı atasına deyir: "Atayi-mehriban, icazə versən, mən ona gedərəm". Qız anası, bacıları ilə görüşür, atası onu gətirib əjdahaya təhvil verir. Əjdaha qızın qolundan tutub çiyninə atır və yanını basa-basa yeriyib izdiham içində yox olur.

Günlər keçir, ay dolanır, atanın ürəyindən keçir ki, gedib qızını görsün, görsün ki, qızının yaşayışı necədir, necə dolanır?

Gəlir Süleyman peyğəmbərin yanına, ondan məsləhət almaq istəyir. Süleyman peyğəmbər öz çəliyini kişiyə verib deyir: Götür bu çəliyi, gedərsən, qarşına bir dağ çıxacaq. Dağın başında durub çəliyi tullayarsan. Çəlik hara sancılsa sənin qızının məkanı demək oradadır. Nəbadə yolda gördüklərini bir kimsəyə danışasan. İndi get, sənə uğur olsun.

Kişi evinə qayıdır. Arvadına deyir: "Ayınnan-oyunnan düzəlt, gedirəm qızımızı görəm". Ana tez əl-ayağa düşür, bir zənbil düzəldib kişinin əlinə verir. Kişi ailəsilə görüşüb halallaşır, yola rəvan olur. O, gəlib bir dağın dibinə yetişir. Dağın başına qalxmağa başlayır. Yarıyolda hamilə bir itə rast gəlir. İt ona hürmür, qarnındakı balaları hürməyə başlayır. Kişi bunu yadında saxlayır. Dağın başına çatır. Oradan çəliyini gücü gəldikcə aşağı tolazlayır. Çəlik gəlib

dağın döşündə yerə sancılır. Kişi daşın döşünə çatır, aşağı əyilib çəliyi götürmək istədikdə yer yarılır, cənnət-məkan bir mənzərə görür. Görür ki, bura elə bir yerdi ki, gül-gülü çağırır, bülbül-bülbülü çağırır. Güllərin, ağacların içində gözəl bir saray ucalıb. Göy çəmənlikdə kişinin qızı oturub, pəhləvan cüssəli igid bir oğlan da başını qoyub qızın dizinin üstünə, yatıb.

Kişi onlara yaxınlaşır. Qızı tez dümsükləyib oğlanı oyadır. Oğlan cəld sıçrayıb ayağa qalxır.

Kişi gəlib qızı ilə öpüşüb-görüşür, oğlanlada soyuq-soyuq salamlaşır. Qız oğlana gizlincə deyir ki, atam səni tanımadı, get əvvəlki libasını geyin, gəl.

Oğlan gedir, əjdaha paltarını geyib gəlir. Kişi əhvalatı biləndən sonra oğlanla yenidən öpüşüb görüşür. Bir neçə gün qızının, kürəkəninin yanında qonaq qalmış kişi evinə qayıtmaq istəyir:

- Qızım, neçə gündür sizə qonağam, anan da indi nigaran qalıb. İzn versəydiniz gedərdim.

Qızı və kürəkəni ona izn verirlər. Kişi onlarla görüşüb "yolçu yolda gərək" deyib yola çıxır. Gəlib bir dağın döşünə çatır. Görür ki, burda üç bulaq var, hər bulağın başında da bir at leşi. Birdən üç quş uçub gəldi. Hərəsi bir bulağın başına qondu, atın ətindən yedilər, sudan içdilər, bulağın gözündə çimib-çıxdılar, yaxınlıqdakı daşın üstünə qonub çırpındılar, qurundular və uçub getdilər. Kişi

bunu da yadında saxladı. Yoluna davam edib bir alma bağına çatdı. Alma ağacının biri o qədər meyvə gətirmişdi ki, budaqları yerə dəyirdi. Kişi bir alma dərdi, kəsdi, gördü ki, almanın içi iylənib. Onu tullayıb başqa bir alma dərdi. Onu da kəsəndə gördü ki, almanın bir tərəfi sağlam, bir tərəfi xarabdı. Xarab yerini tullayıb, sağlam tərəfini yedi. Sonra üç alma qoparıb dəsmalına bükdü, cibinə qoyub yoluna davam etdi. Gəlib komasına yetişdi. Qızının xoşbəxt olduğunu arvadına danışdı. Axşam olduğundan yıxılıb yatdılar. Səhər açılan kimi Süleyman peyğəmbərin yanına getdi. Yolda gördüklərini peyğəmbərə nağıl etdi. Peyğəmbər, kişinin danışığını axıra kimi sakitcə dinlədi. Sonra üzünü kişiyə tutub danışmağa başladı:

- Sənin gördüyün it və qarnındakı balaları o deməkdir ki, vaxt gələcək, böyüklərə söz deməyə imkan verməyəcəklər, böyüklər susacaq, balacalar danışacaq. Gördüyün quşlar, at leşi də o deməkdir ki, vaxt gələcək, qardaş qardaşın malını, heyvanını damından oğurlayacaq, kəsib yeyəcək, satacaq, and içib aman eləyəcək ki, xəbərim yoxdur. Qaldı ki, almalara, alma insanın daxilini göstərir. Vaxt olacaq ki, insanlar üzdən şafaqlı görsənəcək, ancaq içi xəstə olacaq. Sənin görüb bilmədiklərinin mənası budur.

İndi, dərdin alım, Süleyman peyğəmbər dediklərinin hamısını görə-görə gəlmişəm. İndi zəmanə şeytan zəmanəsidir. Çalışın şeytana uymayın, özünüzdən muğayat olun.

## *Oğlanın evlənməsi*

Keçmiş zamanlarda kasıb bir ailə, onların da bir oğlu var imiş. Oğlan kasıb olduğuna görə heç kim qızını ona vermək istəmirdi. Günlərin bir günü ata-ana oğlu ilə oturub bikef-bikef söhbət edirdilər. Elə bu zaman bir quş «pırr» eləyib daxmanın açıq pəncərəsindən içəri uçdu, gəlib barxananın üstünə qondu, silkindi, dönüb gözəl bir qız oldu. Ata-ana bu gözəl qızı görüb oğluna dedi: «Ay bala, onsuz da sənə qız tapa bilmirdik. Allah özü yetirdi. Sən gəl elə bu qızı al» Oğlan razılaşdı, ata-ana toy edib bu qızla oğlunu evləndirdilər. Şad-xürrəm yaşamağa başladılar, Allah da bir ildən sonra onlara bir cüt oğul payı verdi.

Günlərin bir günü oğlanın anası tələf olur, onu yüyətə çıxardırlar. Yasa yığışan kənd adamları hamısı yerə döşənmiş palazın üstündə bardaş qurub oturur. Gəlin isə gedib iri bir daş gətirir. Qoyur mərəkənin qırağına, tumanının ətəklərini də yığıb oturur daşın üstündə.

Meyiti yüyətdən çıxarıb cənazəyə qoyurlar və qəbristanlığa tərəf aparırlar. Cənazəni qaldıranda gəlin gülür. Nə isə, ölünü basdırıb evə qayıdırlar. Axşam düşür, camaat dağılışıb gedəndən sonra, ər arvadından acıqlı halda soruşur:

- Düzünü de görüm, hamı yerdə oturduğu halda sən niyə daş gətirib oturdun? Bir də cənazə yerdən qalxanda niyə güldün?

Arvadı ərinin üzünə baxıb cavab verir:

- Allahdan gizli deyil, səndən nə gizlədim? Sənin anan yaxşı adam olmayıb, dünyanı çaxnaşdırıb, adamları bir-birilə vuruşdurub. O, öləndə gördüm ki, qapı-baca qanın içindədir. Qana batmayım deyə gedib daş gətirib oturdum. Qaldı, cənazə qalxanda gülməyimə onu da deyim, agah ol. Anan ömründə ikicə dəfə yaxşılıq edib. Bir adama bir tay çarıq, bir adama isə köhnə, keçəl bir süpürgə verib. Cənazə qalxanda bir tay çarıq asıldı cənazənin bir qulpundan, süpürgə də asıldı o biri qulpundan. Bax, mən onda güldüm.

Ərinin gəlinə acığı tutdu. Əlini qaldırıb onu vurmaq istədikdə gəlin quşa döndü, pərvazlanıb pəncərədən uçaraq gözdən itdi. Deyilənə görə, o, canım fida olmuş Allahın quş cildinə girmiş mələklərindən olub.

## *Ananın nəziri*

Bir ananın aman-zaman bir oğlu varmış. O, uzaq səfərdə imiş. Ana əllərini göyə açıb Allaha yalvarır. Deyir, oğlum sağ-salamat qayıtsın, gedib üç gün qavırda yatacam». Ay keçir, il dolanır, ananın oğlu qayıdıb evinə gəlir. Ana şadyanalıq edir, el-oba oğlunun görüşünə gəlir. Get-gəl başa çatdıqdan sonra ana oğluna nəziri olduğunu danışır. Oğlu bikef olub deyir: «Ay ana, nəzir deyirdin-deyirdin, heç olmasa maldan, puldan deyəydin». Anasının sözündən dönməyəcəyini görən oğul anası ilə gedir qəbristanlığa, köhnə bir qəbri qazır, anasını qoyur ora, üstünü də torpaqlayır. Gecənin bir yarısı ana soyuqdan başlayır titrəməyə. Birdən qəbir açılır, mələk cildində bir nəfər ona bir yorğan verib qeyb olur. Arvad yorğanı üstünə salıb gecəni keçirir. İkinci gecə arvad başlayır acından əsnəməyə. Bir də görür ki, budur ha, qəbrin üstü açıldı. Həmin şəxs əlində yemək dolu qazan, qab-qaşıqla içəri daxil oldu. Əlindəkiləri yerə qoyub yox oldu. Arvad bir gecə, bir gün o yeməkdən yeyib, yorğanın altına girib yatır. Vaxt tamam olanda oğlu gəlib anasını evlərinə aparır. Oğul anasından bu üç gündə nə baş verdiyini soruşdu. Anası başına gələnləri danışdı. Dedi: «Ay oğul, o yorğan ki var idi, o vaxtı ilə bir yetimə verdiyim iç köynəyim idi. O xörəyi ki, mənə gətirmişdilər, o da belə olmuşdur: qapımıza nəzir yığmağa gələn dilənçiyə həm nəzir vermişdim, həm də yedirdib-içizdirib, sonra yola salmışdım. Onlar idi mənim qarşıma çıxanlar. Yaxşılıq edərsən, qabağına yaxşılıq çıxar, psilik edərsən, pislik çıxar.»

## *Əzrayılın can alması*

Bir kişiynən arvadı baş-başa verib günlərini keçirirmişlər. Günlərin bir günü arvad xəmir yoğurur, kişisinə deyir ki, mən çörək bişirənə kimi sən də get bazara, yavanlıq al, isti-isti xamıralıynan yeyək. Kişi səbət, banka götürüb bazara gedir, bazarlıq edib evinə qayıdır. Yolda qajın (kiçik arx - *red.*) üstündən tullananda yıxılır, səbətin içindəkilər dağılır, bankası da qırılır. Bikef halda qajın qırağında oturur. Bu zaman yolnan bir atlı keçirmiş. Gəlib kişinin yanına çatanda deyir: «A kişi, burda nəyə oturubsan? Dur min tərkimə, gedək.» Kişi ayağa durur, atın tərkinə oturanda at çökür, kişi yıxılır. İkinci dəfə oturmaq istədikdə at yenə çökür. Nəhayət üçüncü dəfə at özünü tarazlayır və onlar yola rəvan olurlar. Başlayırlar yolboyu söhbətləşməyə. Atlı o biri kişiyə deyir: «Yıxılanda bir dedinmi, Allah şeytana nəhlət eləsin?» Yıxılan kişi cavab verir: «Yox, deməmişdim, demərəm də. Çünki biz onnan dostuq. Dost dostu söyməz. İndi sən de görək, hardan gəlib, hara gedirsən?» Atlı kişi deyir: «Mən can alanam. Allahdan tapşırığım var, üç xəstənin canını almalıyam. Mən can alanda sən gözümə görünmə. Yoxsa gözümün qızan vaxtı bilmərəm, səni də öldürərəm». Elə bu dəmdə birinci xəstənin daxmasına çatırlar. Atlı içəri keçir, o biri kişi gizlənir. Can alan xəstənin iri tikəsini qulağı boyda edir. Daxmanın içərisi qanla dolur. Sonra

ikinci xəstənin daxmasına gedir. Onu dörd hissəyə parçalayır. Üçüncü xəstəni isə əlində gül dəstəsi tutaraq, arabir xəstənin burnuna tutub iylədərək yavaş-yavaş canını alır. Bütün bunların şahidi olan o biri kişi yol gedən vaxt atlıdan soruşur: «Sən niyə hərəsinin canını bir cür aldın?» Atlı cavab verir: «Canını birinci aldığım adam ömrü boyu çox-çox günahlar, pis işlər görüb. Ona görə onu tikə-tikə etdim. İkincinin günahı birincinin günahından az olduğundan ona az əzab verdim. Üçüncü də ki, gördün, çox növcavan idi, heç bir günah işlətməmişdi, cənnətlik-cəhənnəmlik işlər görməmişdi. Hələ nadan idi, heç nədən başı çıxmırdı. Ona görə də onu incitmədim, gül iylədə-iylədə canını aldım. Yəni demək istəyirəm ki, cənnət-cəhənnəm var, axirətdə haqq-hesab çəkmək var. İndi sən şeytanla dostluq etsən də o dünyada cavab verməli olacaqsan.»

## *Göy daşdan yaranmış adam*

Bir kişiynən arvadı pis-yaxşı ömür sürürdülər. Onların uşaqları olmurdu. Günlərin birində kişi başqa vilayətə alverə gedir. Arvad daxmasında oturub nəhrə çalxayırdı. Nəhrənin altına göy bir daş qoymuşdu. Birdən bir oğlan uşağı qaça-qaça gəlib arvada xəbər gətirir:

- Ay xala, muştuluğumu ver ərin uzaq səfərdən qayıtdı!

Arvad tez ayağa durur, uşağın muştuluğunu verib yola salır, nəhrənin altındakı göy daşı götürüb parçaya bükür, küncdəki beşiyə qoyur və başlayır beşiyi yırğalamağa. Kişi qapını açıb içəri qədəm qoyanda arvadı deyir:

- Xoş gəldin, ay kişi! Gözlərin aydın olsun, sən gələnə qədər bir oğlumuz oldu. Budur bax, beşikdə yatıb.

Kişi irəli keçib sevincək bələyi qaldırır və körpə bir oğlan uşağının yatdığını görür. Ər-arvad uşağı naz-nemətlə böyüdürlər. Uşaq böyüyüb yekə oğlan olanda kəndin sürüsünə çoban gedir. Çobanlar sürüləri yaylağa qaldıranda bu oğlanı da özlərilə aparırlar. Alaçıqlar qurulur, yerlər düzəldilir. Çobanlar gündüzlər qoyunları otarır, axşamlar yeyirlər, içirlər, söhbət edirlər. Ancaq balaca çoban heç bunlara qarışmır. Təpənin üstündəki daşın üstündə hey oturur; gün çıxanda oturur üzü günçıxana tərəf, günortadan sonra üzünü döndərir günbatana tərəf.

Çobanlar onun bu hərəkətinə mat-məəttəl qalırlar. Nə qədər çağırırlarsa oğlan yaxına gəlmir ki, gəlmir. Dağdan arana enmək vaxtı çatır. Çobanlar yır-yığış edib, yola hazırlıq görürürlər. Nə illah eləyirlər, oğlan onlarla getməyə razı olmur. Baş çoban ona yalvarmağa başlayır: Ay oğlum, inad eləmə, dur gedək, səni burda qurd-quş yeyər, tək görüb öldürərlər.

Oğlan «nırt» deyib durur. Baş çoban deyir:

- Birəm, birriyim haqqı, sənin sirrini öyrənməyincə səndən əl çəkdi yoxdu. Deməsən səni də öldürəcəm, özümü də.

Oğlan görür ki, bu kişi ondan əl çəkməyəcək, odur ki, deyir:

- Mən daşam, özüm də göy daşdan əmələ gəlmişəm. Göy daş da heç vaxt yerindən tərpənməz.

Kişi yenə əl çəkmir. Oğlan kişini azdırmaq üçün əlini irəli uzadıb deyir:

- Ora bax, ora bax, gör o nədir?

Kişi qanrılıb geri baxır. Heç nə görməyib oğlana sarı çönür. Baxır ki, oğlan hardadır. Yerində bir göy rəngli daş qalıb. Göy daşın ətrafı isə parça-parça daşlarla doludur. Odur ki, deyirlər-bütün daşlar parçalanıb dağılar, bircə göy daşdan başqa.

Hə, balalarım, göy daşı duza qoyulmuş kələmin, pomidorun üstünə qoyurlar, çünki göy daşı heç duz da parçalaya bilmir.

## *Nəzir vermə*

Yadımdadır, biz dağda olanda, bir də eşidirdik ki, arvadlar səs-səsə verib deyirdilər:

- Aazz... bir bax, ələm gəzdirən gəlir.

Ələm gəzdirənlər dərviş libasında gəzirdilər. Onlar əllərində ələm kənddən-kəndə, eldən-elə, obadan-obaya gedərək nəzir yığırdılar. Onlar gəzə-gəzə bizim obaya da gəlib çıxmışdılar.

Hamı nəzir deyirdi - kimi deyirdi, qızımın bəxti açılsın, ərə getsin, ələm gəzdirənə nəzir verəcəm, kimi deyirdi, malım xəstələnməsin, ölməsin nəzir verəcəm. Deyilən nəziri də qoyurdular ya yükün altına, ya da həyətdəki daşın altına.

Ələm gəzdirən əlindəki ələmi atırdı. Ələm gəlib nəzir qoyulan yerə düşürdü. Ələmgəzdirən arvadlara deyirdi: «İndi gedin ələm düşən yerdən nəzirnizi götürün, gətirin verin mənə»

Arvadlar da ələmgəzdirənə mat qalaraq gedib nəziri götürüb verirdilər ələm gəzdirənə.

## *Dərdsiz adam yoxdur*

Bu dünyada heç kimləri olmayan iki qardaş var idi. Qardaşlardan biri ağıllı, o biri isə ağıldan bir az kəm idi. Günlərin birində qardaşlar çörək yeməyə oturdular. Süfrə açıb bir qab qatıq və çörək gətirdilər. Qardaşlardan biri dedi, çörəyi qatığa doğrayaq yeyək, o biri dedi, batıraq yeyək. Onların sözü çəp düşdü, xeyli cəhlibəs etdilər. Bu zaman bir nəfər doqqazdan keçirmiş. Qardaşların başının qarışıq olduğunu görür, həyətə girir, çörəyi qatığa doğrayıb yeyir, sonra da ağzını-burnunu silib yoluna davam edir.

Günlərin birində yenə də qardaşlar oturub söhbət edirdilər. Biri o birindən soruşur: Görəsən bu dünyada dərdsiz adam varmı? Biri dedi var, o biri dedi, yoxdur. Nə isə, yenə də iki qardaşın arasında cəhlibəs düşdü. Ağıllı qardaş sözə xitam vermək üçün dedi: “Gedib dünyanı gəzib-dolaşacam, görüm dərdsiz adam var, ya yox?” Ağıllı qardaş ayağa durur, ayağına dəmirdən başmaq geyinir, əlinə dəmirdən əsa alıb yola rəvan olur. Qabağına çıxandan dərdi olub-olmadığını soruşur. Kimi deyir var, kimi deyir yoxdur. Bu minvalla gəlib çıxır padşahın vilayətinə, oturur elçi daşının üstündə. Ağıllı qardaş elçi daşının üstündə oturmaqda olsun, sizə kimdən xəbər verim, kimdən danışım, vilayətin padşahından.

Padşahın dünya gözəli bir arvadı olur.

Aya deyirmiş sən çıxma, mən çıxacağam, günə deyirmiş sən çıxma, mən çıxacağam. Hamı onun xətti xalına, gül camalına aşiq olmuşdu. Padşah arvadını həddindən çox istəyirdi. Aralarında and içib əhdi-peyman bağlamışdılar ki, birinə bir şey olsa, nə arvad yenidən ərə gedəcək, nə də kişi yenidən evlənəcək. Ay keçir, il dolanır, günlərin bir günü padşahın arvadı möhkəm xəstələnir. Halı elə xarablaşır ki, onun günlərini sayırlar; bu gün ölər, sabah ölər. Padşah görür ki, arvadın halı lap xarablaşdı, əhdinə sadiq qalsın deyə gedib özünü xədim elətdirir. Ancaq atalar yaxşı deyib ki, çıxmayan cana ümid çoxdur.

Günlər keçir, padşahın arvadı sağalmağa başlayır. Günü-gündən halı yaxşılaşır, allan-bullan vaxtlarında olduğu kimi gözəlləşir. Ayağa durub yenə də xanımlıq etməyə başlayır. Padşah hiss edir ki, arvadının könlündən ər keçir, başına gətirdiyi hal-qəziyyəni ona danışır. Söhbətinin axırında deyir ki, əgər istəyirsənsə mehtərimlə yata bilərsən. Arvad ərinin dediyi kimi də edir. Padşah başına ikiəlli qapaz vurur və kor-peşiman ömrünün sonunu gözləyir.

Günlərin birində padşah arvadı ilə imarətində küləfirəngidə oturub yemək yeyirmişlər. Elə bu zaman ona xəbər gətirirlər ki, bəs deməssənmi, elçi daşının üstündə dəmir başmaqlı, dəmir əsalı yoldan ötən bir nəfər oturub padşahı görmək istəyir. Padşah əmr edir ki, o qərib kimdirsə buraxın gəlsin. Elçi daşının üstündə oturan adam içəri keçir, pad-

şahla arvadına baş əyir. Padşah onu süfrə başına dəvət edir. Qərib otursa da süfrəyə əlini uzatmır. Padşahdan soruşur:

- Bir de görüm, bu dünyada sənin dərdin varmı?

Padşah qəmgin-qəmgin deyir:

- Eh..., nə işinə, nəyinə lazımdır, mənim dərdim var, yox? Qabağında çörəyini ye!

Qərib yolçu əl çəkmir, qətiyyətlə deyir:

- Dərdini deməsən yeyən deyiləm!

Padşah məcbur olub başına gələnləri ona danışır. Yolçu ayağa qalxır, qeyzlə əlini yelləyib deyir:

- Eh, sənin çörəyin heç yeyiləsi deyilmiş ki! Sənin dərdin hamının dərdindən betərdir.

Yolçu oradan çıxıb kor-peşman qardaşının yanına qayıdır. Hal-qəziyyəni qardaşına danışır və deyir: Bu dünyada dərdsiz adam yox imiş.

## *Əzrayıl peşəsinə necə yiyələndi?*

Adəm atamızla Həvva anamızın 73 uşağı olur. Allah - təala onların hərəsinə bir dil verir. Onların hərəsi bir dildə danışırdı. Allahımız uşaqlara bir günü bir il qədər vermişdi. Uşaqlar bir gündə bir yaş böyüyürdülər. Allah mələklərdən birini yerə göndərir ki, get gör, onların yaşayışı nə yerdədir?

Mələk yerə enir. Görür ki, kişi məlul-müşkül, fikirli gəzir. Mələk kişidən soruşur:

- A kişi, niyə belə məlul-müşkül durubsan? De görək, nə olub?

Kişi cavab verir:

- Sənin nəyinə gərəkdir? Çıx get yolunnan, mənim dərdimə əlac edə bilməzsən.

- Yox, deməyincə getməyəcəm.

Kişi görür ki, yol adamı ondan əl çəkməyəcək, deyir:

- 73 uşağım var, hərəsi də bir dildə danışır. Nə mən onların dilini başa düşürəm, nə onlar mənim dilimi başa düşürlər. Bilmirəm başıma haranın daşını salım?

Yol adamı deyir, mən sənə cavab gətirəcəyəm, məni gözlə. Belə deyib qeybə çəkilir. Gedir Allahın hüzuruna, olanları danışır. Allah mələyə tapşırıq verib deyir:

- Gedərsən yerə, kişinin uşaqlarını iki-iki cütləyib ayırarsan, deyərsən gedib ayrıca yaşasınlar.

Mələk Allahın tapşırığını yerinə yetirir. Bir uşaq tək qalır. Kişi deyir, bu tək uşağı neyniyim? Mələk deyir, onun da cavabını

sənə deyəcəm, məni gözlə.

Mələk Allaha "bir uşağı neyləyək" dedikdə Allah belə cavab verir:

- O uşaq adamların canını alacaq. Adı Cənabi-Cəbrayıldır.

Mələk yenidən yerə qayıdır və yeniyetmə oğlana deyir ki, Allah sənə adamların canını almaq vəzifəsini tapşırdı və adını da Əzrayıl qoydu. Allah deyib ki, gündə 100 adam öləcək, 101 adam diriləcək. Əzrayıl gündə 100 adamın canını almalıdır.

Oğlan qəti imtina edib deyir, mən bu qədər adamı öldürüb, bu qədər günahın altına girə bilmərəm.

Allahdan mələyə vəhy gəlir. Mələk Allahın sözlərini oğlana çatdırır:

- Allah deyir ki, mən hər adama bir cür ölüm yazmışam. Kimi getdiyi yerdə öləcək, kimisinin üstünə ağac düşəcək, kimisini meşədə qurd-quş yeyəcək. Tək bircə nəfər öz yorğan döşəyində öz əcəli ilə öləcək. Ancaq hamısının canını sən alacaqsan. 99 adamın ölməyini səndən bilməyəcəklər, tək bir adamdan başqa.

Oğlan razılaşır, Əzrayıl adını götürür və öz vəzifəsini icra etməyə gedir.

Odur ki, deyirlər: Allah dünyada 72 dil yaradıb. Dilin sahiblərinin əcdadı, atası, anası, Allahı bir, dini və dili ayrıdır.

## *Çobanın duası*

Bir bədxasiyyət, heç kəsin xeyrinə-şərinə yaramayan, nataraz sözləri və bəd hərəkətləri ilə hamını zara gətirən kişi günlərin bir günü ömrünü başa vurur. Qohum-əqrabadan, qonum-qonşudan onun yas yerinə heç kim gəlmir. Onun yazıq arvadı nə qədər ona-buna yalvarsa da hərə bir bəhanə ilə kişini dəfn eləməkdən boyun qaçırır.

Əlacı kəsilən arvad səhərin alatoranında kişinin meyidini salır bir iri kisəyə, çox çətinliklə onu qaldırır ulağın belinə, əlinə də bel alıb çölə yollanır. Məqsədi bu imiş ki, kənddən aralı bir yerdə xəndək qazsın və kişinin meyidi olan kisəni ora salıb üstünü torpaqlasın.

Nəzərdə tutduğu yerə çatanda arvad görür ki, bir çoban dağın döşündə qoyun sürüsü otarır. O, çobanı haylayır ki, ay qardaş, gəl mənə kömək elə. Çoban sürünün qabağını qaytarıb arvadın yanına gəlir ki, nə məsələdir. Arvad hal-qəziyyəni çobana danışır və xahiş edir ki, kömək elə bir xəndək qazaq, kişinin meyidini bir təhər basıraq.

Çoban beli götürüb dəli-tərsinə dərin bir xəndək qazır, içində meyid olan kisəni atır xəndəyə və üstünü torpaqlayır. Arvad fikir verir ki, çoban xəndəyi doldurub qurtarandan sonra əllərini göyə qaldırıb dodaqaltı nəsə deyir. Ancaq buna əhəmiyyət vermir, qayıdır evə.

İki-üç gündən sonra arvad yatanda kişisi-

ni yuxuda görür. Görür ki, o, cənnətin gülüstanında hurilərin əhatəsində gülür, oynayır. Bu haqda heç kəsə bir söz demir. Sonra qonşulardan biri də belə bir yuxu gördüyünü söyləyir. Daha sonra bir başqası da yuxuda kişini cənnətdə görür. Mərhumun arvadı daha biganə qala bilmir, gedir kənd mollasının yanına və əhvalatı ona danışır. Molla onu dinləyib deyir ki, ay bacı, mən də iki-üç dəfə belə yuxu görmüşəm. Özü də baxıb mənə barmaq qıjayırdı ki, sən məni dəfn etməyə gəlmədin, indi görürsənmi, mən cənnətdəyəm.

Sonra molla deyir, yaxşı gəlmisən, birlikdə məscidə gedək, bu məsələni axunda danışaq, görək nə deyir. Gedirlər axundun yanına və əhvalatı əvvəldən axıra danışırlar. Axund soruşur ki, bəs mərhumu kim dəfn eləyib? Arvad cavab verir ki, çöldə bir çoban sürü otarırdı, ondan xahiş elədim, o da gəlib dərin bir xəndək qazdı və kişinin meyidini ora atıb üstünü torpaqladı.

Axund soruşur ki, bəs ölünün üstündə heç bir dua oxunmadımı? Arvad deyir: - Vallah, mən dəqiq eşitmədim, ancaq çoban əllərini göyə açıb öz-özünə elə bil nəsə deyirdi.

Axund qərara gəlir ki, gedək çobanı tapaq, soruşaq görək nə deyib.

Yollanırlar çobanın yanına. Çoban sürünü yenicə yatağa endirmişdi. O, axundu, mollanı və arvadı hörmətlə qarşılayıb alacığa dəvət etdi. Axund ondan soruşdu:

- Çoban qardaş, yəqin ki, yadındadır, on

dörd gün bundan əvvəl bu qadının ərini dəfn eləmisən, bəlkə deyəsən onu dəfn edəndə hansı duanı oxumusan?

Çoban gülümsədi:

- Hörmətli axund, mən çoban adamam, nə bilirəm dua nədir? Sadəcə olaraq meyidi dəfn eləyib qurtarandan sonra iki əlimi göyə açıb Allaha yalvardım ki, rəhminə qurban olum, ey Ulu Tanrı, mən necə dəfə sənin göndərdiyin qonaqları hörmətlə qəbul edib, hörmətlə də yola salmışam. Gecə-gündüz neçə adam gəlib ki, çoban qardaş, Allah qonağı istəyirsənmi? Demişəm - Allaha da qurban olum, onun qonağına da. Hamısını da qulluğunda durub, lazımınca yola salmışam. İndi mən də sənə bir qonaq göndərirəm, ya Allah, ona öz dərgahında yaxşı bir yer ayır və rəhmini əsirgəmə.

Axund çobanın əlini sıxıb deyir:

- Sənin duanı Allah-Təala eşidib, çoban qardaş, sənin duan cəhənnəm odunda yanası bir bəndəni o əzabdan xilas edib, onu cənnətə göndərib...

## *Kor canavar*

Bir çoban Ceyrançöldə ağanın sürüsünü otarırmış. Hər ay sürüdən iki baş seçmə heyvan yoxa çıxırmış. Çoban bu işdən heç cür baş açmır. Canavar aparsa bir səs küy olardı, oğru gəlsə mütləq bilərdi. Gündüz otlaqda da qala bilməz. Bəs bu heyvanlar necə olur?

Bu sual çobanı çox narahat edir. Fikirləşir ki, burada xain əli var, gərək gecə yatmayam, bunu öyrənəm. Ona görə gecə pal-paltarlı yerinə uzansa da yatmır, qulağı səsdə gözləməyə başlayır. Bir gecə keçir, iki gecə keçir, heç nə baş vermir. Üçüncü gecə səhərin açılmasına xeyli qalmış sərdəndə yerə döşənib şirin-şirin gövşəyən davarların içində bir şaqqıltı eşidilir. Səhər yuxusundan gözləri yumulan çoban tez diksinib yerindən sıçrayır. Hisli qara çıranın işığında yoldaşlarının yerinə nəzər salır, görür ki, ikisi də rahatca yatıb. Ara qapısını açıb sərdənə boylanır.

Nə görsə yaxşıdır?! Görür ki, ikiillik bir ərəmik şişək silkinib sürünün içində ayağa durdu. Heyvan bir-iki dəfə dartınıb gərnəşəndən sonra tullanıb xalxaldan çıxdı, başladı çölə tərəf qaçmağa. Çoban yubanmadan dəmirli çomağını əlinə alıb düşür şişəyin dalınca. Heyvan tullana-tullana dərəyə enir, oradan qalxır döşdəki qayalığa. İki qayanın arasındakı kahaya girir və daha çıxmır. Kahadan eşitdiyi səsdən başa düşür ki, nəsə heyvanı parçaladı və yeməyə başladı.

Çobanı maraq bürüyür və havanın lap işıqlaşmasını gözləyir. Onsuz da səhərə az qalırdı. Günəşin al şəfəqləri Ceyrançölün hər tərəfini nura qərq edəndə o, kahaya lap yaxınlaşır və heyrətdən donub qalır. Kahada başını qabaq ayaqları üstünə qoyub rahatca uzanmış bir kor canavar parçaladığı heyvanın ətindən doyana qədər yeyəndən sonra sus düşmüşdü. İki-üç ayda sürüdən yoxa çıxan seçmə erkəklərin buynuzları, lül-yağ qoyunların sümükləri də burada idi.

Artıq hər şey ona aydın olur. Allah bu kor canavarın qismətini bu iki qayanın arasındakı kahada yetirirmiş. Bunu yəqin edəndən sonra çoban qayıdır yatağa və yır-yığış edib yoldaşlarına bildirir ki, mən getdim kəndə, daha məni gözləməyin, çobanlığın daşını atdım...

Evə gələndə arvadı təəccüblənib deyir: A kişi, nə tez qayıtdın? Çoban deyir: «Arvad, daha çobanlıq eləyən deyiləm. Qurban olduğum Allah kor canavarın qismətini yuvanın ağzında yetirir, mənə bir qismət yetirməyəcəkmi?» Sonra da əhvalatı danışır arvadına. Arvad nə qədər deyir ki, ay kişi, ağlını başına yığ, başqa nə iş bacarırsan, get çobanlığının dalınca, ikimiz də evdə oturmaqla dolana bilmərik.

Çoban arvadın sözünə məhəl qoymur. Deyir ki, mən evdə oturan deyiləm. Səhər mənə bir neçə günlük yol azuqəsi hazırla, başımı götürüb gedəcəyəm bu xarabadan. Qismətimi tapmamış geri qayıdan deyiləm.

Nə qədər dilə tutsa da arvad kişini fikrindən döndərə bilmir. Səhər kişi arvadın hazırladığı bağlamanı götürüb yola düzəlir. Az gedir, çox gedir, neçə kənddən keçir, axır bir kəndin kənarında arxın üstündəki söyüdün altında dincəlməyi qərara alır. Sərin arx suyunda yuyunur, bir az naharlanır və söyüdün kölgəsində uzanır. Beləcə də gözünə yuxu gedir.

Kəndin kənarındakı evdən bir qız uşağı əlində vedrə arxdan su götürməyə gələndə burada yatan kişini görüb təəccüblənir. Kişini silkələyib oyatmaq istəyir ki, ay əmi, oyan, burada niyə yatmısan, hara gedirsən? Yuxudan kal oyanan kişi qıza acıqlanır: «Cəhənnəmə gedirəm, neynirsən?» Qız əlindəki vedrəni atıb evə qaçır: «Ay ana, orada bir kişi uzanıb yatır, deyir cəhənnəmə gedirəm». Sən demə iyirmi gün bundan əvvəl həmin qadının qardaşı rəhmətə gedibmiş. O, təlaş içində qaça-qaça gəlir arxın kənarına: «Ay qardaş, doğrudanmı cəhənnəmə gedirsən?» Kişi hiss edir ki, burada nəsə var, deyir: - Əlbəttə, yalan ha demirəm. Qadın yalvarır: - Ay qardaş, sənə qurban olum, bəlkə mənim qardaşımı oralarda görəsən, bu yaxınlarda rəhmətə gedib... Kişi bu cavabı eşidəndən sonra, çox peşimanlayır. Elə hesab edir ki, yəqin onu dəli hesab edirlər. Odur ki, durur ayağa, gəldiyi yolla geri qayıtmağa başlayır. Evə çatıb əyin-başını dəyişir və gedir çobanlığının dalınca.

## *Böyürtikan kolu niyə həmişəyaşıldır?*

Bədheybət bir əjdaha suyun qabağını kəsib insanları suya həsrət qoymuşdu. Gündə gözəl və cavan bir qız və ya bir oğlan tələb edirdi. Əjdaha onu yeyənə qədər suyu buraxırdı, camaat tez qablarını doldururdu. Günlərin birində növbə Süleyman peyğəmbərin oğluna çatdı. Süleyman peyğəmbər fikirləşdi: «Neyləyə bilərəm, camaatdan artıq deyiləm ki, gərək oğlumu aparıb verəm əjdahaya, camaat susuzluqdan qırılmasın». Oğlunu da götürüb əjdahanın dayandığı qayanın yanına yol alır. Yolu yarı eləmişdi, baxdı ki, göydən bir ağ qoç, bir qara qoç buynuzlaşa-buynuzlaşa yerə enir. Qoçlar gəlib yaxınlıqdakı böyürtikan kolunun üstünə düşdülər. Nə illah elədilərsə də özlərini böyürtikan kolunun tikanlarından xilas eləyə bilmədilər. Yunları əlçim-əlçim olub kolda qaldı. Qoçların böyürtikan koluna qarğış eləməkdən başqa əlacları qalmadı: «Sənin görüm, qışınla yazın bir olsun».

Odur ki, böyürtikan kolunun yarpağı heç vaxt tökülmür, qış, yaz, yay, payız yarpaqları həmişə yaşıl olur.

Bilin ki, balalarım, hər şeyin sahibi var, heç nə Allahın nəzərindən kənarda qalmır. Allahın göndərdiyi qoçları böyürtikan tutub özündə saxlamasaydı, o da o biri ağaclar, kollar kimi fəsillərdə donunu dəyişərdi.

## *Yaşıl alov içində*

Keçmiş zamanlarda bir molla varmış. Bu kişi həm dua yazırmış, həm hərzə-hərzə danışırmış, həm də dua yazmaq üçün çoxlu rüşvət alırmış. Günlərin birində molla Allahın rəhmətinə gedir. Onu basırırlar. Ancaq hər axşam günün qulağı yatanda kişi qəbirdən xortlayır, yaşıl alovun içində ayaqüstə durub tükürpədici səslə qışqırırmış:

Danışdığım yalan,
Yediyim haram,
Yazdığım cadı,
Oğlum Hacı, oğlum Hacı.

Kənd əhli axşam düşəndən sonra qorxudan çölə-bayıra gedə bilmirmiş. Zara gəlmiş camaat bu dərdi gedib şəhərin axunduna danışır. Axund onları səbrlə dinləyib deyir:

- Gedin onun qəbrini qazanları tapın, deyin ki, bellərini, külünglərini götürüb axşam getsinlər qəbrin yanına, qolpunda gizlənsinlər. Görəndəki qəbrdən alov çıxır, arxadan bellə vurub kişinin beynini partlatsınlar. Kişi onda həmişəlik öləcək.

Gedənlər qayıdıb gəlir. Axundun məsləhətini kənd əhlinə danışırlar. Axund necə demişdisə elə də eləyirlər və bu qorxudan canları qurtarır. İndi, a bala, dünya şeytan dünyasıdır. Hər yerin, hər şeyin sahibi var. Allah adamın alnına nə yazıbsa, o da olacaq. Qismətdən qaçmaq olmaz.

## *Ruhun zühuru*

Bir ailənin cavan bir oğlu Allahın rəhmətinə gedir. Onu dəfn-kəfn edirlər. Ata-ana oğlunun ölümünə dözə bilmir, tez-tez qəbrinin üstünə gedib ağlayırmış. Bir dəfə də qəbrə yaxınlaşmaq istəyəndə qəbrdən bir ilanın çıxdığını görürlər. İlan başdaşının yanında başını şahə qaldırıb ata-anaya tərəf fışqıraraq haça dilini onlara sarı uzadır. Onlar ha çalışır, qəbrə yaxın düşə bilmirlər. Bir gün, beş gün, bir ay, ilan onları yaxın buraxmır. Əlacsız qalan ata-ana kəndin mollasından məsləhət istəyirlər. Molla onlara cavab verir: «O ilan oğlunuzun ruhudur. Nə vaxtsa sizlərdən hansınızsa çox böyük günah iş tutubsunuz, oğlunuz sizdən bərk inciyib. İlan da oğlunuzun incimiş ruhudur ki, sizi indi yaxın buraxmır»

İndi, a bala ata-ana olanda nə olar? Gərək heç kimi özündən incik salmayasan, incitməyəsən. Yoxsa o dünyada inkir-minkirə cavab verməli olacaqsan.

## *Sünbüllərin yoxa çıxması*

Bir gəlin olur, həyətdə fətir bişirirmiş. Balaca oğlu qaçaraq gəlib deyir ki, çölə çıxmışam, yanımı sil. Gəlin eləmə tənbəllik, fətirin qırağından kəsib uşağın yanını təmizləyir.

Deyilənə görə əvvəllər sünbül ayağından təpəsinə kimi bar verirmiş. Gəlinin bu hərəkətindən sonra sünbül küsür, aşağıdan yuxarıya qurumağa başlayır. Ruzularının kəsiləcəyini başa düşən it dal ayaqlarının üstündə durub üzünü göyə tutaraq Allaha yalvarır: «Ay Allah, sən mənim ruzumu kəsmə». Deyirlər ki, Allah itin duasını eşidib sünbülün ancaq başındakı barını saxlayıb.

## *Dovşan insandan necə yaranıb*

Bir çoban dağın döşündə qoyun otarırmış. Bir də görür ki, çiynində sənək bir oğlan uşağı dağın ətəyindəki çaya enib su doldurur. Çoban başını bir də qaldırıb baxanda görür ki, oğlan dönüb gözəl bir qız olub. Çoban bu qıza bir könüldən min könülə aşiq olur. Qızı da götürüb obasına gəlir, toy edib qızı özünə arvad edir. Bir ildən sonra Allah bunlara əkiz uşaq verir. Biri qız, biri oğlan olur. Uşaqlar yavaş-yavaş böyüyür. Günlərin birində çobanın arvadı yenə də çaya su gətirməyə gedir. Çayın qırağına çatanda yenidən dönüb oğlan cildinə girir, bir daha evinə qayıtmır. Uşaqlar gecə-gündüz ana deyib ağlaşırlar.

Bir gün, canım fida olmuş Süleyman peyğəmbər iclas keçirirmiş. Hamı yığışıb Süleyman peyğəmbərə qulaq asırmış. Bu dəmdə uşaqlar da gəlib çıxırlar. Camaatın içində dayanmış oğlanı görüb tanıyırlar. «Ana» deyib ona sarı qaçırlar, onun ətəyindən yapışıb ağlaşırlar. Oğlan uşaqları itələyib deyir: «Mən kişiyəm, kişi də uşaq doğarmı?»

Süleyman peyğəmbər uşaqlara bərk qeyzlənir, deyir ki, o uşaqların hərəsinə bir şapalaq vurun, çıxıb getsinlər. Uşaqları oradan qovub çıxardırlar. Uşaqlar qaçmaq istəyəndə Süleyman peyğəmbər deyir: onların dalınca kündə atın. Adamlardan biri xəmirdən olan kündəni uşaqların dalınca atır. Uşaqlar dönüb dovşan olurlar. Deyilənə görə kündə dovşanların dal ayağının dizlərinə yapışır. Ona görə dovşanın dal ayaqlarının dizi kündə kimidir.

## *İsaq-Musaq quşu*

Belə nağıl edirlər ki, bir kişinin arvadı ölür. Əkiz oğlu-İsa və Musa qalır yetim. Kişi gedib qonşu kənddən bir arvad alıb gətirir. Arvad bədəsil çıxır. Kişiyə deyir ki, apar bu uşaqları meşədə azıt. İti görüm, qurdu görüm bu uşaqları görməyim. Əlacsız qalan kişi uşaqlarını və aman-zaman bir danası vardı, onu da götürüb meşəyə odun yığmağa gedir. Uşaqlarına deyir ki, siz durun dananın yanında, dana otlasın, mən də gedim odun yığım. Kişi çıxıb gedir. Axşam olur, kişi gəlib çıxmır. Uşaqlar ağlaşa-ağlaşa evlərinə qayıdırlar. Analıq görür ki, uşaqlar gəlib, dana yoxdur, soruşur, dana hanı? Uşaqlar qorxudan əsə-əsə cavab verir:

- Başımız oynamağa qarışdı, bir də gördük ki, nə dana var, nə atamız.

Analıq uşaqların üstünə qışqırıb deyir:

- Gedirsiz meşəyə, axtarıb dananı tapırsız. Tapmayınca evə qayıtmırsız.

Uşaqlar gecənin qaranlığında qorxa-qorxa meşəyə yollanırlar. Dananı axtara-axtara quşa dönürlər. Ağacdan biri-birlərini səsləyirlər: İsa, tapdınmı? «Yox». Musa, tapdınmı? «Yox». O gündən onlar meşədə, ağacın budağında oturub oxuyurlar. Adları da olur İsaq-Musaq quşu.

Hə balalarım, Allah bütün körpələri atalı-analı eləsin. Heç bir körpə atasız-anasız, yetim qalmasın. Allah pis adamlara nəhlət eləsin.

Amin, ya Rəbbim!

## *Yarasanın çubuq axtarması*

Günlərin birində quşlar bir yerə yığışıb iclas keçirirlər ki, özlərinə padşah seçsinlər. Belə bir şərt qoyurlar ki, hansı quş daha yüksəkliyə qalxsa o da padşah seçiləcək. Toğluqaldıran qartal göylərə sarı qanad çalır. Bunu görən yarasa girir qartalın qanadının arasına. Yerə enəndə hamı görür ki, yarasa qartalla bərabər yerə enir. Quşlar qartalı padşah seçmək istədikdə yarasa razı olmayıb deyir: «Gördünüz ki, mən də onunla bərabər uçmuşam». Quşlar deyir: Yaxşı, biz səni padşah seçərik, ancaq sən get bizə bir tərəfi əyri, bir tərəfi düz olan bir çubuq tap gətir. Əgər tapıb gətirsən sən qeyd-şərtsiz olursan quşların padşahı. Yox, əgər tapmasan bura gəlmirsən.

O gündən başlayaraq yarasa çubuq axtarışındadır. Tapa bilmədiyi üçün quşların içinə gedə bilmir, hətta gəcələr də yatmayıb ağacdan asılı vəziyyətdə qalır.

## *Çobanın qurbanı*

Xeyrimliynən Əskipara kəndləri arasında yerləşən bir dağ var. Çoban sürüsünü yaylağa aparırmış, dağa çatanda bir az dincəlmək istəyir. Ətrafına baxıb su axtarır ki, həm içsin, həm çay qoysun, həm də itə yal çalsın. Görür ki, yaxınlıqda sudan əsər-əlamət yoxdur. Ağacın kölgəsində oturur. Başındakı motal papağını çıxardır. Əllərini göyə qaldırıb Allaha yalvarır: «Ay Allah, mənə bir içim su yetir, sənə bir ağ qoç, bir qara qoç qurban kəsəcəm» Bir az keçmiş dağın ortasındakı yarğandan su şırıltı ilə axmağa başlayır. Çoban papağını bitdəyirdi, papağından iki bit götürüb dırnağı ilə basıb əzir və deyir: «Ay Allah, bu da sənin qurbanın, kəsdim» söz ağzından çıxan kimi, çoban daşa dönür. Dağın ətəyində yatmış sürü, alıqlı-palanlı eşşək, əllərini çənəsinin üstünə qoyub uzanmış çoban iti, çoban əlində əsa hamısı daşa dönür.

# Göydən üç alma düşdü...

(nağıllar, mifoloji hekayələr)

## *Yadımdan çıxardaram*

Biri varıydı, biri yoxuydu, bir uşaq varıydı. Bu uşağın nə atası vardı, nə də anası. Heç bir yaxın qohumu da yoxuydu ki, buna əl tutsun. Gecəsi-gündüzü öküzlərlə keçirdi. Bu öküzlər də ona atasından qalmışdı. Bu uşağın o qədər işi olardı ki, heç adamlarla danışmağa vaxtı olmazdı. Hər gün o, çöldə öküzlərlə dərdləşərdi. Bir gün yenə yer şumlayanda başladı öküzlərlə danışmağa:

– Ho, ha, gözüm qara öküz, ho, ha, canım ağ öküz.

Özü də bu sözləri elə dedi ki, elə bil uşaq təzə dil açır. Qoy uşaq öküzləri haylamaqda olsun, sizə kimdən deyim, ölkənin padşahından. Padşah həmin gün vəzir-vəkillə gəzməyə çıxmışdı. Yolu həmin uşağın işlədiyi əkinin yaxınlığından keçirdi. Birdən padşahın qulağına səs gəldi. Xəlvət yer seçib başladı qulaq asmağa. Nə görsə yaxşıdı, yeddi-səkkiz yaşında bir uşaq öküzlərlə danışır. Vəzirdən, vəkildən soruşdu:

– Bəs bu nə olan işdi? Məgər mənim ölkəmdə adam yoxdu ki, bu uşaq öküzlərlə danışır?

Heç biri də bu məsələni aça bilmədi.

Padşah özü uşağın yanına gəlib soruşdu:

– Bala, sən kimlə danışırsan?

Uşaq dedi:

– Padşah sağ olsun, mən öküzlərlə danışıram.

Padşah soruşdu:

– Ay oğul, bir adam tapmırsan bu vilayətdə, öküzlərlə danışırsan?

Uşaq dedi:

– Var, ancaq onlarla danışmağa mənim vaxtım yoxdu. Əgər öküzlərimlə danışmasam danışmağı da yadımdan çıxardaram.

Padşah təəccübləndi. Ürəyində ondakı ağıla, fərasətə afərin dedi.

Padşah soruşdu:

– Sən ən yüksək mükafata layiqsən, gedib xəzinədardan alarsan.

Sonra bir namə yazıb uşağa verdi. Uşaq saraya gedib naməni xəzinədara verdi. Bəli, uşağa qızıl-gümüş verib yola salırlar. Hətta ona qulluqçular da verirlər. Uşaq həmin qızıl-gümüşə özünə gözəl bir ev tikdirir, güngüzəran düzəldir.

İndi sizə kimdən deyim, kimdən danışım oğlanın qonşusundan. Həmin qonşu tacir idi. Səfil, yetim uşağın belə bir ev tikdirməsi ona birtəhər gəldi. Özünü uşağın yanına yetirdi. Soruşdu ki, bəs bu nə olan işdi. Padşah o vaxt uşağa demişdi ki, bu sirri heç kimə açmasın. Uşaq əvvəl demək istəmədi. Tacir onu qorxuzdu, uşaq da hər şeyi açıb ona danışdı.

Bəli, tacir gəldi həmin yerə. Başladı öküzlərlə danışmağa. Padşah yenə oradan keçirdi. Bu dəfə gördü ki, bir kişi öküzlərlə danışır. Dedi ki, bəs bu nə işdi? Uşaq necə demişdi, tacir də elə dedi. Padşah o saat başa düşdü ki, iş nə yerdədi, "Buna bax, o, bu yaşında dil sındırır. Yox, yox bu fırıldaqdı.

Mənə kələk gəlmək istəyir. Ay sən özün öləsən, məni aldada bilməzsən”.

Padşah ona bir kağız yazıb verir ki, apar bunu saray əhlinə ver. Tacir sevindiyindən heç kağızı da açıb baxmır, aparıb verir. Kağızı açıb görürlər ki, padşahın möhrü ilə yazılıb: “Saraya çatan kimi öldürün”.

Öz ayağı ilə ölümə gələn tacir cəzasına çatır. Ona görə deyirlər, quyunu dərin qazma, birdən özün düşərsən.

Göydən üç alma düşdü, biri mənim, biri nağıla qulaq asanların, biri də qıraqda durub istəmirəm deyənlərin!

## *Barmaq qardaşların nağılı*

Biri var imiş, biri yox imiş, Allahdan gizli heç nə yox imiş. Bir kişinin beş oğlu var imiş. Birinin adı Başbarmaq, ikincisinin adı Başarabarmaq, ortancılın adı Uzunhacı, dördüncünün adı Qantörəcə, sonbeşiyin adı Gədəbarmaq imiş. Onlar oynayıb-oynayıb yorulurlar və acırlar. Başbarmaq qardaş o biri qardaşlarına deyir:

- Acmışıq, gedək çörək yeyək.

Başarabarmaq qardaş deyir:

- Çörək yoxdur, nə yeyək?

Uzunhacı qardaş deyir:

- Allah verəndən yeyərik.

Qantörəcə qardaş deyir:

- Allah verməsə nə yeyək?

Gədəbarmaq qardaş deyir:

- Gedək oğurluq eləyək.

Bu sözü eşidən böyük qardaş Başbarmaq bərk qəzəblənib deyir:

- Bu balaca qardaşımızın deyəsən başı xarab olub. O dilimizi gödək, başımızı da aşağı edər. Buna görə onun başını kəsmək lazımdır.

Qardaşlar axırıncı barmağın başını kəsirlər. Ona görə Gədəbarmağın boyu qalan o biri barmaqların boyundan balacadır.

Barmaqlar haqqında mahnı da qoşublar:

- Baş barmaq, başara barmaq.
Uzunhajı, Qantörəcə,
Vay Gədəbarmaq.

Nağılımız da burada qurtardı.

## *Daşa dönmüş şahzadə*

Biri vardı, biri yoxdu, uzaq vilayətlərdən birində bir padşah yaşayırdı. Onun gözünün ağı-qarası İsmayıl adlı bircə oğlu varıydı. İsmayıl həddi-buluğa çatanda atası öldü. Atasının qırxı çıxmamış anası vəfat etdi. Vəzir, vəkil fikirləşib İsmayılı atasının yerinə şah qoydular. Amma İsmayıl dərd, fikir içindəydi. Ev, həyət elə bil onu yeyirdi. Bu qərara gəldi ki, baş götürüb bu yerlərdən getsin. İsmayıl az getdi, çox getdi, gəlib bir bulağın başına çıxdı. Burada dincini almaq üçün uzandı, özü də bilmədən yuxuya getdi. Belə bir vaxtda başqa bir vilayətin şahzadəsi Məmməd başının atlıları ilə ova çıxmışdı. Onlar gəlib İsmayılın yatdığı bulağa yaxınlaşdılar. Şahzadə İsmayılı görüb dayandı, atdan düşdü, İsmayılı oyatdı. Onun kim olduğunu, hardan gəlib, hara getdiyini soruşdu. İsmayıl başına gələnləri danışdı. Onda Məmməd dedi:

– Lap yaxşı oldu. Mən də təkəm, gedərik bizə, sən də olarsan mənim qardaşım.

O, İsmayılı atına mindirib evlərinə gətirdi.

Anasına dedi:

– Ana, İsmayılı köynəyindən keçirt, o da olsun mənim qardaşım.

Məmmədin anası İsmayılı köynəyindən keçirtdi. Beləliklə, şahın bir oğlu vardı, oldu iki. Bu iki qardaş deyə-gülə vaxtlarını çox şən keçirirdilər. Şahın qırx gözəl otağı varıydı. Məmməd gündə atasından bir otağın açarını alıb baxırdı. Növbə qırxıncı otağa

çatanda şah oranın açarını vermədi. Məmməd əl çəkmədi. Axırda şah, İsmayılı yanına çağırıb dedi:

– İsmayıl, oğlum, sən bir ağıllı oğlansan, açarı vermədiyim üçün ürəyinə başqa şey gəlməsin. O otaqda gözəl bir qız şəkli var. Məmməd onu görən kimi vurulacaq. Onun dalınca gedəcək, ancaq məqsədinə nail olmayacaq. Çünki çox padşahlar o qızın yolunda qərq olub. İndi mən açarı sənə verərəm. Sən qapını açanda sol tərəfdəki divarda qızın şəkli asılıb, tez onu götürüb gizlədərsən.

Şah açarı İsmayıla verdi. O, Məmmədlə otağa girdi. Qapını açanda İsmayıl tez şəklə yaxınlaşıb gizlətmək istədi. Amma Məmməd ondan qabaq şəkli görmüşdü. O, yalvarıb şəkli İsmayıldan aldı. Qızın gözəlliyini görən Məmməd bir könüldən min könülə qıza vuruldu. Halı xarablaşdı, taqəti kəsildi, dedi:

– Yox, qardaş, mən mütləq bu qızın arxasınca gedəcəm.

Məmməd evlərinə qayıtdı. Ata-anası nə qədər yalvarıb yaxardılarsa, Məmmədi yolundan saxlaya bilmədilər. Məmməd atına minib yola düşdü. İsmayılın ürəyi durmadı. Şahdan Məmmədin dalınca getməyi üçün izn istədi.

Şah dedi:

– Oğul, İsmayıl, Məmməd heç nə bilmir. Bir haldaki gedirsən, onda ona yoldaş ol, kömək elə. Amma ağlım kəsmir ki, o qızı ala biləsiniz. Çünki çox padşahlar o qızın arxasınca getdilər, amma bir şey hasil edə bilmədilər.

İsmayıl atını mindi, bir qədər də yemək

götürüb Məmmədin dalınca getdi. O gəlib Məmmədi bir bulağın üstündə tapdı. Bir az çörəkdən-zaddan yeyib gecəni orada qaldılar. Səhər tezdən durub üz tutdular getməyə. Gethaget gəlib bir şəhərə çatdılar. Gördülər bu şəhərin kənarında çoxlu çadırlar qurulub. İsmayılla Məmməd bir qarının evində qonaq qaldılar. Qarıya pul verdilər ki, bazarlıq eləsin. İsmayıl qarıdan soruşdu:

– Ay qarı nənə, sizin şəhərin kənarında nə çox çadır qurulub, onlar kimlərindir?

Qarı dedi:

– Oğul, bizim məmləkətin Mahmud şah adında padşahı var. Onun da Savad adında bir gözəl qızı var. İndi gördüyünüz çadırlar o qıza gələn elçilərin çadırlarıdı. Ancaq Mahmud şahın qızı heç kimi bəyənib getmir.

İsmayıl başa düşdü ki, bu həmən axtardıqları qızdı. Nə isə, axşam yeyib-içib rahatlandılar. Amma İsmayıl çox fikirli idi. O düşünürdü: «Ay dadi-bidad, iki qardaş gəlmişik qızı aparmağa. Bir halda ki, bu cür məşhur şahlara, igid şahzadələrə o qızı vermirlər, heç bizə verərlərmi? Yox, burada hiylə işlətmək lazımdı.»

Onu da deyim ki, İsmayıl evdən çıxanda xeyli qızıl götürmüşdü. Səhər açılan kimi İsmayıl qızılı götürüb bir zərgərin yanına gəldi.

– Zərgər qardaş, bu qızıldan mənə bir ceyran düzəldə bilərsənmi?

Zərgər dedi:

– Düzəldərəm, nə üçün düzəltmirəm.

- Bu qızılların hamısını sənə verirəm. Bun-

dan mənə bir ceyran düzəlt, artıq qalan qızıl sənin olsun.

Sabahısı İsmayıl zərgərin düzəltdiyi ceyranı alıb qayıtdı. Məmmədə dedi:

– Qardaş, oynamaq bilirsənmi?

Məmməd dedi:

– Bir az bilirəm.

İsmayıl fikrini ona söylədi.

- Sən ceyranın içərisinə girəcəksən. Mən çalacam, sən oynayacaqsan. Biz şəhərdə beləcə tamaşa göstərəcəyik. Onda Mahmud şah bizim sorağımızı eşidib saraya aparacaq. Onun qızının səndən xoşu gələcək, öz otağına aparacaq.

Məmməd onunla razılaşdı və səhərdən başladılar onlar tamaşa çıxarmağa. Şəhərin camaatı onların başına toplaşdılar. Baxıb pul verirdilər. İsmayıl yığılan pulların hamısını qarıya verirdi. Qarı isə pulu gətirib sandığa qoyurdu. Pulun sayı-hesabı yoxuydu. Sevindiyindən qarı bilmirdi nə eləsin.

Beləliklə, bir neçə gün keçdi, bütün aləmə səs yayılmışdı ki, bəs şəhərə belə bir adam gəlib, ceyran oynadır.

Bir gün Savad xanım qaravaşı göndərdi bazara ki, lazım olan bəzi şeyləri alsın. Qaravaş bazara gedəndə gördü ki, vallah, o qədər adam yığılıb ki, iynə atsan, yerə düşməz. O, nə qədər boylandısa, heç nə görə bilmədi. Axırda pul verib bir hambalın belinə çıxdı. Xeyli tamaşaya baxdı. Sonra xanımın yanına gəldi. Savad xanım dedi:

– Ay qız, bu vaxta qədər harda itib batmısan? Bəs şeylər hanı?

Qaravaş dedi:

– Eh, ay xanım, oturmuşuq dörd divarın arasında, heç nə görmürük. Bazarda camaat yığılıb tamaşaya baxırdı. Bir cavan oğlan mahnı çalırdı, bir ceyran da oynayırdı. Mən də bir hambala pul verib ayağımın altına yatırtdım, çıxıb bir az tamaşaya baxdım. Nə olar, xanım, atandan xahiş elə, oğlanı saraya çağırtdırsın, tamaşa göstərsinlər, bir az da biz baxaq.

Qaravaş elə maraqla danışırdı ki, Savad xanımda da baxmağa həvəs yarandı. O, atasının yanına gedib dedi:

– Atacan, deyirlər şəhərə tamaşa çıxardanlar gəlib, yaxşı da oyun göstərirlər. Sən əmr elə, onu saraya çağırsınlar, biz də baxaq.

Şah razılıq verdi.

İndi də sizə deyim Məmmədlə İsmayıldan. Gündüzlər onlar tamaşa göstərib axşamlar qarının evində gecələyirdilər. Yazıq Məmməd gündüzlər oynamaqdan o qədər yorulurdu ki, dildən-nəfəsdən kəsilirdi.

Bəli, səhər açıldı. Bu vaxt şahın adamları gəlib ceyranı da götürüb saraya gəldilər. Hamı düvrələmə bardaş qurub oturdu. Savad xanım da qırx incəbel qızla burdaydı. İsmayıl çaldı, ceyran oynadı. Bu tamaşa padşahın özünün də xoşuna gəldi. Axşam düşdü. İsmayıl ceyranı da götürüb getdi. Padşah dedi:

– Sabah yenə gəl.

Sabah İsmayıl yenə gəldi. Getmək vaxtı gələndə Savad xanım atasına dedi:

– Atacan, qoy oğlan getsin. Ceyranı mən öz otağıma aparacam. Gecə oynadacam.

Şah icazə verdi. İsmayıl sabah ceyranı aparmaq üçün gələcəyini söylədi.

Savad xanım ceyranı öz otağına apardı. Qulluqçularla bir xeyli ceyranı oynatdılar. Yatmaq vaxtı gələndə qulluqçuların hamısı öz otağına getdi. Səltənət xanım da yumşaq yatağına uzanıb yatdı. Məmməd içəridən baxdı ki, xanım da yatıb. O, ceyranın içindən çıxıb yuyundu. Sonra stolun üstündəki yeməklərdən yedi, yuxuya getmiş gözəl Savad xanıma yaxınlaşdı. Özünü saxlaya bilməyib qızın üzündən öpdü, yenidən ceyranın içərisinə girdi. Səhər açıldı. Hamı yuxudan oyandı. Savad xanım aynaya baxanda gördü ki, yanağının bir tərəfinin şövqü sınıb, kimsə üzündən öpüb. Qız hirsləndi. Qaravaşları çağırdı:

– Utanmırsınız, yatanda məni niyə öpübsünüz?

Qulluqçular təəccübləndilər:

– Ay xanım, sən nə danışırsan, biz dəlizad deyilik ki, səni öpək, indiyə qədər niyə öpmürdük?

Xanım onlara inanmadı.

Bəli, İsmayıl saraya gəldi. Yenə tamaşa göstərdi. Arada girəvəyə salıb ceyranın qulağına pıçıldadı:

– Qardaş, neylədin?

Məmməd cavab verdi:

– Bu gecə qızın üzündən öpmüşəm.

İsmayıl dedi:

– Ayə, sən neyləyibsən, ehtiyatlı ol, duyuq düşərlər. Səni öldürərlər.

Axşam düşdü. Savad xanım ceyranı yenə

öz otağına apardı. Qızlarla çalıb oynadılar. Məmməd yenə də qız yatandan sonra əl-üzünü yudu. Stolun üstündəki yeməklərdən yedi. Sonra yaxınlaşıb qızın üzündən öpdü, ceyranın içinə girdi.

Səhər Savad xanım gördü ki, indi də o biri üzünü öpüblər. Fikirləşdi: "Yaxşı, bəs bu kim ola". Kənizlərdisə, indiyə kimi niyə öpmürdülər? Yəqin iş bu ceyrandadı. Gecə mən onu pusaram".

Xanım daha üstünü vurmadı. Axşamı gözlədi. Yenə ceyranı oynatdı. Hərə öz otağına çəkildi. Xanım yerinə girdi, özünü yuxuluğa vurdu. Gecədən xeyli keçmiş gördü, budur, ceyranın bir tərəfi açıldı, içindən bir oğlan çıxdı. Əl-üzünü yuyandan sonra yemək yedi. Elə yaxınlaşıb qızı öpmək istəyəndə Savad xanım onun qolundan tutdu:

– Ay oğlan, sən nə cürətlə məni öpürsən. Mənim üstümdə aləm bir-birini qırır. Bütün padşahlar mənə elçi düşür, heç biri məni ala bilmir. Amma sən məni öpürsən. Bu saat sənin boynunu vurduracam.

Məmməd dedi:

– Xanım, mən də sənə elçi göndərənlərdən biriyəm. Mən səni aparmaq üçün qardaşımla gəlmişəm. Başqa yol olmadığından biz sənin yanına hiylə ilə gəlməyi qərara aldıq. Bura məni sənin məhəbbətin gətirib. Al, bu da sənin şəkilin. Bir də ki, xanım, sən mənim haqqımda başqa fikirdə olma. Mən də bir şah oğluyam. Sən razı ol, biz evlənək.

Savad xanım gördü ki, bu oğlan həm yaraşıqlıdı, həm də qorxmazdı. Odur ki, dedi:

– Oğlan, atam məni sənə xoşluqla verməyəcək. Sən məni ancaq qaçıra bilərsən.

Beləliklə, onlar sabah gecə hamı yatandan sonra qaçmağı qərara aldılar. Səhər İsmayıl saraya gəldi. Yenə də ceyranı oynatdı. Qızın otağına aparanda o, ceyranın qulağına pıçıldadı:

– Qardaş, neylədin, qızla danışa bildinmi?

Məmməd ona gecə saraydan birlikdə qaçacaqlarını söylədi.

İsmayıl dedi:

– Yox, qardaş, bu yaxşı fikir deyil. Sarayın qapıları gecə bağlı olur. Sən qızla danış, sabah bağa gəzməyə çıxanda qaçırt.

Gecə hamı dağılandan sonra Məmməd ceyranın içindən çıxıb qardaşının məsləhətini qıza dedi. Onlar razılaşdılar.

Bəli, sabah açıldı, üzünüzə sabahlar xeyirliyə açılsın. İsmayıl yenə saraya getdi, şahın qarşısında təzim elədi:

– Padşah sağ olsun, artıq mən bu şəhərdən çıxmalıyam. Odur ki, bu gün ceyranı aparacam.

Padşah izn verdi. İsmayıl ceyranı apardı. Savad xanım səhər atasından icazə alıb qırx incəbelli qızla bağı seyrə çıxdı. Vədələşdikləri vaxtda Məmmədlə İsmayıl atın belində qızlara yaxınlaşdılar. Savad xanımı quş kimi qamarlayıb atın üstünə qoydular. Qızlar Mahmud şaha xəbər apardılar ki, bəs nə durmusan, qızı qaçırtdılar. Bu xəbər elçi gələnlərə də çatdı. Onlar atdanıb sel kimi İsmayılgilin dalınca düşdülər. İsmayıl gördü ki, yox, əşi, bu xına o xınadan deyil, qızı ala-

caqlar. Odur ki, qıza dedi:

– Sən tez paltarını çıxart, ver mən geyinim. Sən oğlan paltarı geyin.

Savad xanım paltarını İsmayıla verdi. İsmayıl geyinib üz-gözünü bürüdü, atdan düşüb yolun qırağında oturdu. Lap qabaqda gələn atlılar İsmayıla çatdılar. Elə bildilər ki, bu həmin qızdı.

Gedən atlıların dalınca dedilər, ay qorxaqlar, bir qızı ki, apara bilməyəcəksiniz, niyə qaçırdırsınız? Dəstənin başçısı qızı tərkinə alıb geri qayıtdı.

Hə, yadınıza salım ki, İsmayıl qıznan paltarını dəyişəndə demişdi ki, gecələdiyi bulağın başında məni gözləyərsiniz. Savad xanımın dalınca gedən dəstə saraya qayıtdılar. İsmayılı qız bilib aparan oğlan həmin gecə onun yanına gələndə dedi:

– Ay qız, mən Rum padşahının qızıyam, adım da Heyran xanımdı. Hər yerdə mənim camalımdan danışılırdı. Ancaq mən eşitdim ki, elə bir qız var ki, məni öz gözəlliyi ilə kölgədə qoyur. Doğurdan da, belə oldu. Sənin şöhrətin, sənin gözəlliyin məni gözdən saldı. Mənim paxıllığım tutdu. And içdim ki, o qızı özüm gətirəcəm, qoy nə ərə getsin, nə də ki, məndən üstün olsun. Biz elə bacı kimi bir yerdə yaşayarıq. Ancaq başqaları elə bilərlər ki, biz ər-arvadıq. Sən mənimlə razılaşırsanmı?

İsmayıl dedi:

– Xanım, mən sənlə razıyam. Ancaq bu da insaf deyil. Sən keç o biri otağa, üzünü çevir Allaha, dua elə. Bəlkə səsini eşitdi, səni

oğlan elədi. Biz də xoşbəxt olduq.

Aydınlıq gecəydi. Heyran xanım o biri otağa keçdi. Dua elədi, amma kor-peşiman qayıtdı. Heç nə olmadığını söylədi. Onda İsmayıl dedi:

– Xanım, mən heç bir günah eləməmişəm. Saf, təmiz bir qızam. Qoy mən dua eləyim.

İsmayıl çölə çıxdı. Bir qədərdən sonra otağa gəlib doğurdan da kişi olduğunu söylədi. Heyran xanım çox sevindi.

İsmayıl dedi:

– Xanım, biz burada qala bilmərik. Xəbər tutarlar, yaxşı olmaz. Gəl biz buradan qaçaq.

Onlar gecəyarısı atlanıb yola düşdülər. İsmayılgil gəlib gördülər ki, Məmmədlə Savad xanım həmin bulağın üstündə gözləyirlər. Bunlar bir yerdə yedilər, içdilər, uzanıb dincəlməyə başladılar. Burada İsmayıl açıb bütün əhvalatı söylədi. Heyran xanım bildi ki, aldanıb. Artıq gec idi. Səhərə az qalmışdı. Lakin İsmayılın yuxusu qaçmışdı, yata bilmirdi. Bu vaxt gördü ki, bulağın başındakı ağaca üç göyərçin qondu. Onlardan biri dedi:

– Bacılı-bacılı, bilirsən bunlar kimdi?

O biri dedi:

– Bunlar İsmayılla Məmməddi. Evlərinə qayıdırlar. Ancaq bunları üç ölüm təhlükəsi gözləyir. Əgər bu yolda böyüklüyü İsmayıl eləsə, yaxşı olacaq, ölməyəcəklər. Ancaq evə qayıdanda yazıq İsmayılın axırı heç olacaq.

Birinci göyərçin dedi:

– Niyə, ay bacı?

Kiçik göyərçin dedi:

– Bunların qabağına bir ağac çıxacaq, bu

ağacın üstündə yaraşıqlı bir qırqovul görəcəklər. Əgər onu tutsalar, vəhşi çöl quşlarına dönəcəklər. Ancaq vurub öldürsələr heç nə olmaz. İkinci, bunların qabağına yəhərli bir at çıxacaq. Kim o ata minsə, dönüb vəhşi at olacaq. Üçüncü dəfə qabaqlarına bir arx çıxacaq. O sudan kim içsə, zəhərlənib öləcək. Mənim dediklərimi kim yerinə yetirsə, yaxşı olacaq. Amma bu sirri kim açsa, daşa dönəcək.

Göyərçinlər "pırr", eləyib uçub getdilər. Səhər açıldı. Yola düşməyə hazırlaşanda İsmayıl dedi:

– Məmməd, əzizim, bu yolun böyüklüyünü mənə etibar eləsən, sizlə gedərəm. Yox, razı deyilsənsə, getmərəm.

Məmməd güldü:

– Ay qardaş, sən nə danışırsan. Böyüklük etmək istəyirsən elə, daha bizlə niyə getmirsən?

Bəli, İsmayıl qabağa düşdü. Bir qədər getmişdilər ki, qabaqlarına bir qırqovul çıxdı.

Məmməd dedi:

– Yaxşı oldu, elə bunu tutub atama apararam. O, qırqovulu çox sevir.

Məmməd quşu tutmaq istəyəndə İsmayıl oxla quşu vurub yerə saldı.

Məmməd dedi:

– Niyə belə elədin?

İsmayıl dinmədi. Bir qədər getmişdilər ki, qabaqlarına bir yəhərli at çıxdı.

Məmməd dedi:

– Yaxşı oldu, atım yorulub, heç gedə bilmir, elə bunu mən minərəm.

Məmməd sıçrayıb ata minmək istəyəndə

İsmayıl xəncərlə atı vurub öldürdü. Məmməd hirsləndi:

– Yox, sən məni istəmirsən. İstəsəydin, yorulmuş atımı onunla dəyişərdim, sən onu öldürdün.

İsmayıl yenə dinmədi. Xeyli getmişdilər ki, qabaqlarına bir arx çıxdı.

Məmməd sevincək dedi:

– Bu lap yaxşı oldu. Bir az su içib dincələk.

Bunu deyən kimi İsmayıl suya yaxınlaşıb xəncərlə suyun ortasından vurdu. Arx qupquru qurudu.

Məmməd hirsindən yeri-göyü gəmirirdi. Onlar küsüşdülər.

Evə kimi danışmadılar.

Padşah oğlanlarını böyük sevinclə qarşıladı. Məmməddən soruşdu:

– Oğul, necə gedib, necə gəldiniz?

Məmməd dedi:

– Ata, lap yaxşı oldu. İsmayıl mənə çox köməklik elədi, amma qayıdanda o, mənə dağ çəkdi.

Məmməd yoldakı hadisələri atasına danışdı.

Padşah dedi:

– İsmayıl, oğul, sən niyə belə elədin?

İsmayıl dedi:

– Padşah sağ olsun, bunu məndən soruşmayın.

Padşah dedi:

– Yox, gərək deyəsən.

İsmayıl dedi:

– Padşah sağ olsun, sonra peşiman olacaq-

san.

Padşah əl çəkmədi ki, çəkmədi.

İsmayıl dedi:

– Padşah sağ olsun, o qırqovulu tutsaydıq, biz hamımız vəhşi çöl quşlarına dönəcəydik.

Bunu deyən kimi İsmayılın ayaqları daş oldu.

– Əgər o ata minsəydik, biz hamımız vəhşi atlara dönəcəydik.

Bunu deyən kimi İsmayıl yarıya qədər daş oldu.

Padşah qışqırdı:

– İsmayıl, daha bəsdi, danışma.

İsmayıl dedi:

– Yox, padşah sağ olsun, yarı daş, yarı adam kimə lazımdı. Üçüncüsü, əgər o su içilsəydi, hamımız zəhərlənib ölərdik.

Bunu deyən kimi İsmayıl daşa döndü. Hamı yasa batdı. Ağlaşma, şivən qopdu. Ancaq artıq geciydi. Daş olmuş İsmayılı gətirib bir otağa qoydular. Heyran xanım onun üstündə göz yaşları tökdü. Məmməd isə lap dəli kimi olmuşdu. O, baş götürüb evdən getdi. O düşündü ki, bəlkə İsmayıla bir əlac tapa. Çox gəzdi, dolandı, axırda İsmayılın yatdığı bulağın başına gəldi. Uzandı. Elə bu vaxt üç göyərçin gəlib ağaca qondu. Biri o birinə dedi:

– Bacılı-bacılı, bilirsən, bu kimdi?

O biri dedi:

– Bu, İsmayılın qardaşı Məmməddir. İsmayıl onun ucbatından daşa dönüb. İndi bu onun dərdinə əlac axtarır.

Böyük bacı deyir:

– Ay bacı, onun əlacı yoxdurmu? Əgər

bilirsənsə, de.

O biri dedi:

– Bacılı, əgər Məmməd bu bulağın suyundan aparıb daşa dönmüş İsmayılın üstünə töksə, o sağalar.

Bunu deyib göyərçinlər uçub getdilər. Məmməd sevincək bulağın suyundan götürüb geri döndü. Suyu İsmayılın üstünə tökən kimi o silkinib daş cildindən adam cildinə çevrildi. Hamı sevindi. Şah qırx gün, qırx gecə toy eləyib oğlanların ikisini də evləndirdi. Onlar xoşbəxt ömür sürüb, dövran keçirdilər. Siz də murazınıza çatasınız.

Göydən üç alma düşdü, biri mənim, biri nağıla qulaq asanların, biri də kənarda durub istəmirəm deyənlərin.

## *Hər kəsin öz ruzusu*

Biri varmış, biri yoxmuş, keçmiş zamanlarda bir padşah var imiş. Günlərin bir günü bu padşah yatıb bir yuxu gördü, eyni açılıb dedi:

– Kim gəlib elçi daşının üstündə otursa, nə istəsə verəcəyəm.

İş elə gətirdi ki, birdən-birə üç dost gəlib elçi daşının üstündə oturdu.

Padşah dedi:

– Eybi yoxdu, mən söz vermişəm, sözümə də əməl eləyəcəm. Bu üç nəfər məndən nə istəsə, verəcəm. Gedib bu üç nəfəri yanıma gətirin.

Gedib elçi daşının üstündə oturanları padşahın hüzuruna gətirdilər. Padşah onları xoş üzlə qarşılayıb dedi:

– Nə arzunuz var, deyin. Əhd eləmişəm ki, bu gün kim elçi daşının üstündə oturub nə istəsə, onun arzusunu yerinə yetirəcəm.

Üç nəfərdən biri dedi:

– Padşah sağ olsun, mən istəyirəm ki, mənə yüz qızıl verəsiniz.

Padşah dedi:

– Sənin arzun yerinə yetdi.

Əmr elədi, buna gətirib yüz qızıl verdilər.

İkinciyə dedi:

– Sənin arzun nədi?

İkinci dedi:

– Padşah sağ olsun, mən arzu eləyirəm ki, nə ola padşah öz qızını mənə verə.

Padşah dedi:

– Yaxşı, sənin də istəyin yerinə yetdi.

Oğlum, de görüm sən nə istəyirsən?

Üçüncü dedi:

– Padşah sağ olsun, mənim heç kimdən asılacağım yoxdu, səndən də heç bir təmənnam yoxdu, sən kimsən ki, mən səndən nə isə istəyim. Mənim ruzumu versə, o gözəgörünməz verəcək, nə versə, qəbulumdu. Sən nə karəsən ki, mənə ruzu verəsən.

Bu söz oğlanın ağzından çıxan kimi elə bil padşahın başına bir qazan qaynar su tökdülər. Padşahın hirsindən gözü kəlləsinə çıxdı. Dedi:

– Bunu götürün sarayın yeddinci mərtəbəsindən kəlləsi üstə yerə tullayın!

O saat padşahın əmri yerinə yetirildi. Bu oğlanı yeddinci mərtəbədən kəlləsi üstə aşağı tulladılar. Oğlanın sözləri Allaha ayan olmuşdu. Oğlanı yuxarıdan aşağı kəlləsi üstə tullayanda mələklər onu götürüb yerə qoydular. Oğlan qaçaraq saraydan uzaqlaşdı. Hamı elə bildi ki, o, yerə düşüb parça-parça olub.

Oğlan getməkdə olsun, görək o biri yoldaşlarının başına nə gəldi. Onlardan biri padşahın qızını diləmişdi, padşah da qızını ona vermişdi. O biri isə padşahdan yüz qızıl istəmişdi, padşah onun da diləyini yerinə yetirmişdi. Bunlar şər qarışanda birlikdə gəlib bir çöllü-biyabana çıxdılar. İki çadır qurdular, birində padşah qızı ilə dostun biri, o birində isə yüz qızıl alan gecələməli idi. Bir xeyli keçmiş padşah qızını diləyən yoldaş öz-özünə fikirləşdi ki, "mən padşah qızını almışam, ancaq heç nəyim yoxdu, gedim dostumu öldürüm, yüz qızılını ondan alım, ömrümün

axırına kimi firavan yaşayım". Bunu fikirləşən oğlan o biri yoldaşının çadırına girdi. Bıçaqla vurub onu öldürdü.

Oğlan hay-küy saldı ki, dostumu quldurlar öldürüb qaçdı. Qız oğlanın bütün hərəkətini görmüşdü.

Qız dedi:

– Yalan deyirsən, onu sən öldürdün.

Oğlan dedi:

– İndi burda səndən, məndən başqa heç kim yoxdu, gəl bu pulu da götürüb gedək, ömrümüzün axırına kimi xoşbəxt həyat sürək.

Qız dedi:

– Mən heç vaxt sənlə bir yastığa baş qoya bilmərəm, sən öz dostunu puldan ötrü öldürdün, özün də ölməlisən.

Bunu deyib qız qəflətən bıçağı onun ürəyinin başına sancdı. Oğlan o saat canını tapşırdı.

Qız yüz qızılı da götürüb yola düzəldi. Az getdi, üz getdi, dərə-təpə düz getdi, bir də gəlib üçüncü oğlanla qarşılaşdı.

Qız dedi:

– Ay oğlan, mən əhd eləmişəm ki, kim birinci qabağıma çıxsa, onunla evlənəcəm, gəl evlənək, bu qədər də pulum var, gedib yaxınlıqdakı şəhərdə yaşayarıq.

Oğlan dedi:

– Yox, mənim ruzumu Allah yetirəcək, gəl bacı-qardaş olaq.

Qız dedi:

– Yaxşı, mən razıyam, ancaq nə iş tutsaq bir-birimizlə məsləhətləşək.

Oğlan dedi:

– Yaxşı.

Onlar yola düzəldilər, az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, dağlar aşdılar, çaylar keçdilər, gəlib bir dağın ətəyinə çatdılar.

Bir də gördülər qabaqlarında bir qurd dayanıb. Oğlan tüfəngini qaldırdı ki, qurdu öldürsün.

Qız dedi:

– Dayan.

Oğlan dedi:

– Niyə?

Qız dedi:

– Şərtimizi yadına sal.

Oğlan dedi:

– Yadımdadı.

Qız dedi:

– Onda əl saxla.

Oğlan əl saxladı, qurd qeyb oldu. Onlar gedib qurdun mağarasına girdilər. Gördülər ki, mağara ağzınacan qızılla doludu. Çox sevindilər, bildilər ki, Allah onların ruzusunu yetirib. Onlar məsləhətləşdilər, nə qədər yaxşı usta var, çağırıb dedilər:

– Gərək bizə elə imarət tikəsiniz ki, padşahın sarayı onun yanında heç nə olsun.

Ustalar başladılar işə. Üç il gecə-gündüz işlədilər. Üç ilin tamamında imarət hazır oldu. Bu imarətin şöhrəti hər tərəfə yayıldı. Əhvalat gedib padşaha da çatdı. Padşahla vəzir bu imarətin sahibinin kim olduğunu öyrənmək istəyirdilər. Padşah bir gün onlara qonaq gəlir. Padşahın qızı yemək hazırlayır. Bu qız o qədər gözəl plov bişirirmiş ki, atası onun ətrindən qızının bişirdiyini başa düşür.

Oğlandan soruşur:

– Burda sən kimlə yaşayırsan?
Oğlan deyir:
– Padşah sağ olsun, mənim bir bacımdan başqa heç kimim yoxdu. Burda bir bacımdı, bir də mən.
Padşah deyir:
– Bacını çağır.
Oğlan deyir:
– Padşah sağ olsun, mənim onunla bir şərtim var, biz nə eləsək, məsləhətləşirik, qoy gedim deyim, əgər razı olsa, çağırım gəlsin.
Padşah deyir:
– Yaxşı, get məsləhətləş.
Oğlan gedib əhvalatı qıza danışıb deyir:
– Padşah səni çağırır, nə deyirsən?
Qız deyir:
– Artıq hər şeyi danışmağın vaxtı gəlib çatıb.
Qız gəlir. Padşah öz qızını tanıyır, onlar görüşüb öpüşürlər. Bundan sonra oğlan bütün başına gələnləri padşaha danışır. Sonra deyir:
– Padşah sağ olsun, biz bu günə kimi bacı-qardaş kimi yaşamışıq.
Padşah deyir:
– Oğul, sən düz deyirsən, adamın ruzusunu Allah verir, mən o iki dostuna nə istədilər verdim, səni isə öldürmək istədim, ancaq onların heç biri xoşbəxt ola bilmədi, sənsə öz ruzunu tapdın.
Padşah qırx gün, qırx gecə toy eləyib öz qızını bu oğlana verir. Onlar xoşbəxt ömür sürüb öz murazlarına çatdılar, siz də öz murazınıza çatasınız.

## Ovçunun sirri

Biri varıydı, biri yox idi, Kamil adında bir ovçu var idi. Ovçu Kamil gününü ovçuluqla keçirirmiş. O, ən yaxşı ovçulardan biriymiş.

O, hər gün yarağını-yasağını götürüb ova çıxarmış. Axşamlar da ovdan qayıdıb evə gələrmiş. Ovçu Kamil xoş xasiyyətli, ədalətli bir adamıymış.

Onda belə bir xasiyyət varıymış ki, ova getdiyi vaxt başına gələn əhvalatı ovdan qayıdanda arvadına söyləyərmiş. Yenə günlərin bir günü Ovçu Kamil öz yarağını-yasağını yığışdırıb yola düzəldi. Az getdi, çox getdi, iynəyarım yol gedib bir səhralığa çıxdı. Xəncəri belində, ox-kamanı çiynində bütün səhranı dolaşandan sonra gəlib bir çəmənliyə yetişdi.

Burada gəzərkən gözü iki ilana sataşdı. İlanlardan biri əlvan rəngli, alabəzək, naxışlı, gözəl bir ilanıydı, o birisi isə qara neybətin biri idi. İlanları görən Ovçu Kamil maddım-maddım onlara tamaşa eləməyə başladı. Bir də gördü ki, neybət ilan sürünüb gözəl ilana sarmaşdı. Ovçu Kamil qəm dəryasına batdı, nə dinir, nə danışır, nə oturur, nə də ki, irəli gedirdi. Neybət ilanın gözəl ilanın belinə minməsi ona çox təsir eləmişdi. Ovçu Kamil öz-özünə fikirləşdi: Heç rəva deyil bu gözəllikdə ilanın belinə qara neybət ilan minsin. Bu ədalətsizliyi aradan qaldırmasam, onda mən günaha batmış olaram.” O, çox fikirləşdikdən sonra istədi ki, o neybət ilanı vursun. Sonra öz-özünə dedi: "Mən nə

eləmək istəyirəm, bəlkə oxu atdım gedib o qara ilana yox, gözəl ilana dəydi. Yox, yaxşı-yaxşı fikirləşmək lazımdı". Çox götür-qoy elədikdən sonra başqa əlac tapmayıb qara ilanı vurmaq qərarına gəldi. Oxla qara ilanı nişan aldı, oxunu ehmalca çəkməyə başladı. Ox gedib gözəl ilana dəydi. Qara neybət ilan tez qaçmağa üz qoydu. Gözəl ilan isə yaralanmış bədənini çox yavaş sürüyürdü. Bu gözəllikdə ilanın yaralanması Ovçu Kamilə o qədər təsir elədi ki, taqəti olmadı hərəkət etsin. Ovçu Kamil kor-peşiman, fikir-xəyal içində evə gəlməyə başladı. Evə çatdı, heç bir söz danışmayıb üzünü qibləyə tutub qəmgin-qəmgin baxdı. Ovçunun arvadı gördü ki, əri çox pərişandır. Çünki Ovçu Kamil həmişə evə qayıdanda gülərüzlə başına gələn əhvalatı əvvəldən axıra kimi arvadına danışardı. Arvadı bu səfər bir bədbəxtliyin üz verməsini başa düşüb soruşdu:

– A kişi, söylə görüm, bu gün niyə bikefsən? Danış görək, çöldə başına nə gəlib?

Kişi arvadının səsini eşidib qəddini düzəldərək cavab verdi.

– Ay arvad, heç nə olmayıb, elə yorulmuşam ki, danışmağa taqətim yoxdu.

Arvad onun dediyinə inanmadı. Yenə soruşdu:

– Ay kişi, Allaha bax, tanrıya bax, söylə görüm, başına nə gəlib ki, sən belə qəmgin oturubsan? Mən uşaq-zad deyiləm, görürəm ki, bu gün çox fikirlisən.

Ovçu Kamil gördü ki, arvad işin məqamına çatmayınca ondan əl çəkən deyil.

Başladı hadisəni əvvəldən axıra söyləməyə:

– Ay arvad, Allahdan gizli deyil, daha bəndədən nə gizli. Mən bu gün ova gedən deyildim. İstəmədən getdim, özüm öz əlimlə bir pis iş tutdum. Ov axtardığım vaxt çəmənlikdə iki ilana rast gəldim. İlanlardan biri çox gözəl, naxışlı bir ilan idi. O biri neybət ilan idi, minmişdi o gözəl ilanın belinə. Mənim vicdanım onu qəbul eləmədi. Çalışdım ki, qara neybət ilanı vurub öldürüm, ancaq mən deyən olmadı. Əvəzinə ox o gözəl ilana dəyib yaraladı. Ona görə də tutduğum bugünkü işdən çox peşimanam. Elə bil ki, mənim öz həyatımda böyük bir bədbəxtlik üz veribdi. Bilmirəm neyləyim ki, bu günahı üstümdən götürüm.

Arvadı gördü ki, Ovçu Kamilin halı çox pərişandı. Onun üçün də dilxoşluq edib, ona ürək-dirək verməyə başladı:

– A kişi, onun fikrini niyə eləyirsən? Sən bilə-bilə onu vurmayıbsan ki, ondan ötəri də dilxor olursan. Adam da durduğu yerdə yıxılıb ölür. Sən o haqda heç fikir eləmə.

Ancaq Ovçu Kamil nə qədər başını qatırdısa da o hadisəni heç yadından çıxara bilmirdi. Yadına düşdükcə ürəyi alovlanırdı.

Ovçu Kamil o gecəni bir təhər səhər elədi. Dostları onun qəmgin olduğunu görüb soruşdular:

– Qardaş, nə olub, niyə belə kədərlisən, yoxsa başına bir iş gəlib?

Ovçu Kamil bu dəfə hadisəni olduğu kimi dostlarına danışmağa başladı. Dostları ona ürək-dirək verdilər:

– Qardaş, sən heç o haqda qəm eləmə. Çünkü olacağa çarə yoxdu. Sən ilanı özün bilə-bilə vurmayıbsan ki, vaysınırsan. Həyatda çox belə işlər baş verir.

Ovçu Kamil bu haqda fikirləşməkdə olsun, sizə kimdən deyim, o qara neybət ilandan. Hansı ki, qabaqcadan qaçıb əhvalatı o gözəl ilanın atasına xəbər verib. Sən demə, bu gözəl ilan da ilanlar padşahının qızıymış. İlanlar padşahı bu əhvalatı eşidəndən sonra qızını yanına çağırıb hadisənin lap bünövrəsini öyrənmək istədi. Qız isə baş verən əhvalatı başqa cür söylədi. Dedi:

– Mən yolla gedəndə Ovçu Kamillə rastlaşdım, o məni vurub yaraladı.

Bunu eşidəndə ilanlar padşahı çox qəzəblənib dedi:

– Bəs mənim qızımın günahı nəymiş ki, Ovçu Kamil onu vurub şikəst eləyib.

İlanlar padşahı car çəkib bütün ilanları yanına çağırtdırdı. İlanlar hamısı onun əmrilə toplaşdılar. İlanlar padşahı əmr elədi:

– Gedin Ovçu Kamili yanıma gətirin.

İki ilan Ovçu Kamilin dalınca yollandı. İlanlar gəlib Ovçu Kamilə əhvalatı söylədilər. Ovçu Kamil bunu eşidən kimi barmağını dişlədi. O, xeyli fikrə getdi. Ancaq nə elədiyini, nə edəcəyini özü də bilməyib ilanlarla getməyə razılaşdı. Ovçu Kamil öz-özünə fikirləşdi ki, hadisəni olduğu kimi ilanlar padşahına söyləsin. Yolda ilanlar ondan soruşdular:

– Niyə ilanlar padşahının qızını vurub yaralayıbsan?

Ovçu Kamil əhvalat necə baş vermişdisə, hamısını əvvəldən axıra kimi ilanlara danışdı:

– Mən ova çıxmışdım, çəmənlikdə iki ilana rast gəldim. İlanlardan biri qara, o birisi isə gözəl, naxışlı ilanıydı. O, neybət ilanın gözəl ilanın belinə mindiyini mən rəva bilməyib neybət ilanı nişan aldım. Atdığım ox isə o neybət ilana yox, gözəl ilana dəydi. Tutduğum işdən özüm də çox peşiman olmuşam.

İlanlar Ovçu Kamilə qulaq asıb dedilər:

– İndi ki, sən ilanlar padşahının qızını bilə-bilə vurmayıbsan, onda hər şeyi olduğu kimi padşahımıza danışarsan. Danışıb qurtarandan sonra ilanlar padşahı sənin günahından keçib səndən soruşacaq ki, məndən nə istəyirsən. Onda sən ona cavab ver ki, heç bir şey istəmirəm, ancaq bircə ağzıma tüpür. Bu sözü deyəndə o sənə deyəcək ki, axı tüpürsəm ağzında saxlaya bilməzsən. Onda sən deyərsən ki, eybi yoxdu, tüpür, mən saxlaram. O sözdən sonra ilanlar padşahı sənin ağzına tüpürəcək. Sən isə bütün dünyada yaşayan heyvanların, quşların dilini biləcəksən.

Onlar gedib yetişdilər ilanlar padşahının hüzuruna. İlanlar padşahı Ovçu Kamili görən kimi ona yer göstərdi, soruşdu:

– Qızımı niyə vurubsan?

Ovçu Kamil əhvalatı olduğu kimi ilanlar padşahına danışdı. Sonra tutduğu işdən də peşiman olduğunu söylədi. Bunu eşidəndən sonra ilanlar padşahı Ovçu Kamildən soruşdu:

– İndi sən o qara ilanı tanıyarsanmı?

Ovçu Kamil dedi:

– Tanıyaram.

Bunu eşidən kimi ilanlar padşahı əmr elədi: bütün ilanlar gəlib buradan keçsinlər. Bütün ilanlar gəlib keçməyə başladı. İlanlar padşahı Ovçu Kamilə dedi:

– O qara neybət ilanı görən kimi mənə göstər.

Ovçu Kamil dedi:

– Baş üstə.

Ovçu Kamil ayağa qalxıb qəddini düzəldərək bütün ilanları bir-bir gözdən keçirirdi. Bütün ilanlar gəlib keçdi, neybət ilandan başqa.

Ovçu Kamil dedi:

– O ilan gəlib keçmədi.

İlanlar padşahı soruşdu:

– Buradan daha hansı ilan gəlib keçmədi?

Elə bu vaxt dedilər ki, qapıçı qara ilan gəlib keçməyib. Həmin saat ilanlar padşahı qara ilanın da gəlib keçməsini əmr elədi. İlanlar gedib qara ilanı da padşahın hüzuruna gətirdilər. Ovçu Kamil o qara neybət ilanı görən kimi ilanlar padşahına dedi:

– Padşah sağ olsun, bu həmin qara neybət ilandı ki, sənin qızını bunun üstündə yaralamışam.

Padşah bunu eşitcək əmr elədi ki, o qara neybət ilanı cəzalandırsınlar. Sonra üzünü Ovçu Kamilə çevirib dedi:

– Ey ovçu, məndən nə istəyirsən, de, verim.

Ovçu Kamil ilanlar padşahına baş endirib dedi:

– Padşah sağ olsun, mən sizdən heç bir şey istəmirəm. İzn verin çıxım gedim evimə.

İlanlar padşahı yenə soruşdu:

– Ey Ovçu, sən mənə yaxşılıq eləyibsən, qorxma, de görüm, əvəzində nə istəyirsən?

Ovçu Kamil bir enişə, bir yoxuşa baxıb çəkinmədən ilanlar padşahına dedi:

– Padşah sağ olsun, mənim sizdən bir xahişim var.

İlanlar padşahı soruşdu:

– Nədir xahişin, de.

Ovçu Kamil dedi:

– Xahişim odur ki, heç olmasa bircə dəfə ağzıma tüpür.

İlanlar padşahı Ovçu Kamilin bu sözünü eşidən kimi xeyli fikrə gedib dedi:

– Tüpürərəm, ancaq qorxuram ki, ağzında saxlaya bilməyəsən.

Ovçu Kamil cavab verdi:

– Sən o haqda qəm eləmə, sən tüpür, saxlamağı məndən.

İlanlar padşahı dedi:

– Yaxşı, yaxın gəl.

Ovçu Kamil ilanlar padşahına yaxınlaşdı. İlanlar padşahı onun ağzına tüpürüb dedi:

– Ey Ovçu Kamil, indi get, ancaq bu sirri saxlaya bilməyəcəksən. Əgər bu sirri başqasına söyləməsən, onda sən dünyada yaşayan bütün canlıların, heyvanların, quşların, hətta otların, çiçəklərin dilini biləcəksən. Elə ki, bunu başqasına söylədin, bütün bunlar əlindən gedəcək. Sonra isə sənin üçün daha pis olacaq.

Ovçu Kamil dedi:

– Padşah sağ olsun, bu sirri heç kimə söyləmərəm.

Ovçu Kamil bunu deyib üz qoydu evinə getməyə. Heç kəsə bir söz demədi. Artıq o bütün heyvanların, quşların, dünyada olan bütün canlıların dilini bilirdi. Günlərin bir günü Ovçu Kamil arvad-uşağı ilə birlikdə səfərə çıxmaq fikrinə düşdü. Onlar yola düzəldi. Yolda atın qulunu anasından geri qalmışdı. Ovçu Kamil onların aralarındakı danışığı eşitdi.

Qulun kişnəyərək anasına dedi:

– Ay ana, yavaş get, məni də gözlə ki, sənə çatım.

At da kişnəyib dedi:

– Ay bala, mən nə edim? Sən bir tək canını gətirə bilmirsən. Amma mən özümü, qarnımdakı balamı, Ovçu Kamili, Ovçu Kamilin arvadını, arvadının belindəki uşağı, bir də arvadın qarnındakı uşağı aparıram. Hələ bir mənə deyirsən ki, ay ana, gözlə, mən də gəlim.

Ovçu Kamil qulunnan anasının söhbətini eşidib ucadan gülməyə başladı. Ovçunun arvadı onun gülməyini eşidib təəccüblənərək soruşdu:

– Ay kişi, de görüm, sən öz-özünə niyə gülürsən?

Ovçu Kamil arvadına cavab verdi:

– Heç, ay arvad, elə-belə, yadıma gülməli bir əhvalat düşdü, ona gülürəm.

Arvad dedi:

– Ay kişi, sən dəlisən, cinlisən, başına at təpib, nədi ki, öz-özünə gülürsən. De görüm,

niyə güldün?

Ovçu Kamil yenə dedi:

– Mən heç bir şeyə gülmürəm.

Arvad dedi:

– A kişi, əl çəkən deyiləm. Ya bu saat nəyə güldüyünü deməlisən, ya da mən səndə oturmayacam. Çıxıb gedəcəm dədəmin xarabasına.

Ovçu Kamil dedi:

– Ay arvad, səni and verirəm o səni yaradan Allaha, məndən əl çək.

Arvad dedi:

– Sözüm sözdü, deməsən səndə oturan deyiləm.

Ovçu Kamil gördü ki, arvadı əl çəkmək istəmir, qərara gəldi ki, bu sirri ya üzsün, ya düzsün. Xeyli fikirləşdikdən sonra arvadına dedi:

– Sənin atana da lənət, anana da. O sən, o da sənin atan evi. İndi düşüb gedə bilərsən. Madam ki, sən məni eşitmirsən, bu gündən mən səni boşayıram. Düş atdan, hara gedirsən get.

Arvad gördü ki, Ovçu Kamil çox acıqlıdı, yavaş-yavaş başladı yumşalmağa, dedi:

– A kişi, mən səninlə zarafat eləyirəm, sən də başladın inanmağa.

Ovçu Kamil arvadınnan barışdı, başladılar yollarına davam etməyə. Onlar az gedib, çox gedib bir qoyun sürüsünə rast gəldilər. Örüşdən keçən arx sürünü iki hissəyə bölmüşdü. Qoyunların yarısı arxın bir tərəfində otlayırdı, yarısı o biri tərəfdə. Elə həmin vaxt arxın bu tərəfində bir qoyun mələyib arxın o tərəfində

otlayan qoçu öz yanına çağırmağa başladı. Qoç arxın o tərəfindən cavab verdi:

– Sən məni öz yanına niyə çağırırsan? Sən mənim yanıma gəlməkdən, mən sənin yanına gələcəm? Mənim üçün nə var, sən olmasan, sənin yoldaşın olar, sənin yoldaşın olmaz, bir başqa qoyun olar. Onun üçün də deyirəm ki, mənim sənin yanına gəlməyə heç həvəsim yoxdu. Əgər könlün varsa, sən özün gəl mənim yanıma. Mən də Ovçu Kamil deyiləm ki, arvaddan qorxam, heç bir söz deməyib yalvaram. Yox, mən elə eləmərəm, necə ki, Ovçu Kamil elədi.

Qoyun ilə qoç arasında gedən bu söhbətə Ovçu Kamil axıra qədər qulaq asıb xeyli fikrə getdi. Sonra da xəyalında bu söhbət haqqında fikirləşib yenə öz-özünə başladı gülməyə. Arvad yenə düşdü Ovçu Kamilin üstünə, soruşdu:

– Ay kişi, sən dəli olubsan, yoxsa yuxu görürsən, durduğun yerdə şaqqanaq çəkib gülürsən? And verirəm səni yaradan Allaha, sən gəl bu sirri məndən gizlətmə. Daha keçib, hər nə olubsa, məni agah elə. Bəlkə elə bir gülməli şey var, mən də güləcəm.

Ovçu Kamil arvadına dedi:

– Ay arvad, sən nə danışırsan? Sən məni lap dəli qayırıb oynadırsan. Hələ deginən görüm, güləndə nolar?

Arvad Ovçu Kamildən əl çəkməyərək onun zəhləsini apardı:

– A kişi, gəl sən məni allatma.

Ovçu Kamil dinmədi. Arvad yenə cin atına mindi:

– A kişi, deyirsən bu sirri de, demirsən daha məndən sənə arvad olmayacaq, çıxıb gedəcəm dədəmin evinə.

Kişi nə qədər elədisə, arvad öz dediyindən dönmədi. Axırda Ovçu Kamil dedi:

– Ay arvad, sən ki, məni eşitmirsən, daha səni saxlamayacam, gedə bilərsən. Mən sənin nazını çəkməkdən yoruldum.

Arvadı gördü ki, kişi artıq gerçəkləyib, onu qovacaq. Başladı Ovçu Kamilə yalvarmağa.

– A kişi, qadan alım, mən elə zarafat eləyirdim ki, görüm sən nə deyirsən.

Axırda onlar barışıb yollarına davam etməyə başladılar, gedib bir zəmiyə çatdılar. Bura Ovçu Kamilin çox xoşuna gəldi.

– Ay arvad, düşək, bir az dincələk.

Ovçu Kamilin bu sözü arvadın çox xoşuna gəldi. Onlar atdan düşüb bir bulağın başında əyləşdilər. Bir qədər istirahət elədikdən sonra Ovçu Kamil qarşısındakı hündür zəmilərin başındakı iri sünbülləri nəzərdən keçirməyə başladı. O, gedib sünbüllərin arasından baxa-baxa keçəndə gördü ki, iki sünbül var, hər ikisi bir boyda, bir buxundadı. Eşitdi ki, sünbüllərin biri o birinə deyir:

– Məni məğribdən gələn adam yeyəcək.

O birisi isə deyir:

– Məni isə məşriqdən gələn adam yiyəcək.

Ovçu Kamil bu iki sünbülün söhbətinə qulaq asdıqdan sonra fikrə getdi. Bu söhbət Ovçu Kamili çox təəccübləndirdi. O, bu sirri sınaqdan keçirmək üçün sünbüllərin hər

ikisini qırıb götürdü ki, bu söhbətin doğru olub-olmadığının şahidi olsun. Arvadının yanına gəlib dedi:

– Ay arvad, bu iki sünbülü verirəm sənə, saxla, saxlamasan, əlimdən qurtarmazsan.

O saat arvadı bir şey anlamış kimi kişidən soruşdu:

– A kişi, sünbülləri neyləyirsən, belə bərk-bərk tapşırırsan?

Ovçu Kamil dedi:

– Ay arvad, gərək elə hər şeyi sənə deyim? Bu sünbüllər mənə lazımdı ki, gətirmişəm.

Arvad dinmədi, sünbülləri götürüb xurcunun gözünə qoydu. Onlar getməyə hazırlaşdılar.

Ovçu Kamil dedi:

– Ay arvad, yolçu yolda gərək, dur şeylərini də götür, yola düşək.

Onlar gəlib mənzilə çatdılar. Bir müddət orada qalıb dincəldilər, sonra öz evlərinə qayıdıb gəldilər. O iki sünbül arasında gedən söhbət Ovçu Kamili çox maraqlandırırdı. Hərdən yadına düşdükcə çox götür-qoy eləyib onların yaxşı yerdə saxlanması üçün fikirləşirdi. Ovçu Kamil öz-özünə dedi: "Necə olursa olsun, mən bu əhvalatı öyrənəcəm". Yeyib içəndən sonra arvadını yanına çağırıb dedi:

– Bax, olmaya-olmaya o iki sünbülü mənsiz tələf eləyəsən ha. Sonra əlimdən qurtara bilməzsən. Nə vaxt ki, mən özüm istədim, onda gətirib özümə verərsən.

Arvad təəccüblə soruşdu:

– Ay kişi, böyük sovqat-zad deyil ki, onun üstündə əsirsən. Daha bəsdir tapşırdığın, saxla deyirsən, saxlayaram. Daha burada nə var ki, tez-tez tapşırırsan.

Ovçu Kamil səhər tezdən oyanıb, yenə əvvəlki qaydada yarağını-yasağını götürüb ova çıxdı. Ox-kaman çiynində, qılıncı belində gəzdiyi yerlərə gəlib çıxdı. Onun yolu yenə həmin çəmənlikdən düşdü. O, istədi ki, həmin çəmənlikdən ötüb keçsin, ancaq mümkün olmadı. Çünki həmin çəmənlikdə iki ceyran otlayırdı. Bu ceyranlar bir-biri ilə şirin-şirin söhbət eləyirdilər. Ceyranlardan biri o birinə dedi:

– Tez ol buradan gedək, yoxsa Ovçu Kamil gəlib bizi vurar.

İkinci ceyran isə dedi:

– Bəs sən bilmirsən ki, Ovçu Kamil burada yoxdu, gedib səfərə. Hələ gec gələr. O gəlincə biz bu gözəl çəmənlikdə doyunca otlayarıq, günümüzü yaxşıca keçirək.

Birinci ceyran dedi:

– Bir söylə görüm, Ovçu Kamilin on günlük səfərə getməsini kimdən eşidibsən?

İkinci ceyran dedi:

– Bəs sən bayaqları o qara neybət ilanla o gözəl ilanın söhbətini eşitmədin?

Birinci ceyran dedi:

– Mən heç onların söhbətlərinə qulaq vermədim. İndi sən söylə görüm, bəs ilan haradan bilir ki, Ovçu Kamil ongünlük səfərə gedib?

İkinci ceyran dedi:

– Bəs sən bilmirsən bir ay bundan qabaq

Ovçu Kamil istəyib o qara ilanı öldürsün, amma onu öldürə bilməyib, ilanlar padşahının qızını yaralayıb. O qara ilan isə ilanlar padşahı tərəfindən cəzalandırılıb. İndi o qara ilan çalışır ki, Ovçu Kamili vurub öldürsün. Amma girəvə tapa bilmir. Həmin neybət ilan Ovçu Kamildən qisas almaq üçün onun arxasınca evinin üstünə çıxır, nə qədər çalışır, imkan tapmır ki, Ovçu Kamildən qisasını alsın. Həmin gün Ovçu Kamilin arvadından eşidib ki, onlar on günlük səfərə gedəcəklər.

Ovçu Kamil özü haqqında danışılan bu xəbəri eşitcək həm təəccübləndi, həm də qəzəbləndi. Ovçu Kamil istəyirdi ki, ceyranları ovlasın, ancaq fikrindən əl çəkdi. Sonra fikirləşdi ki, bəlkə lənətə gəlmiş neybət ilan elə buradadı, bəlkə o məni görür ki, burdayam. Çalışır ki, məndən qisas alsın. Sonra ayağa qalxıb əvvəlcə o iki ilanı gördüyü yerə tərəf üz qoydu. Həmin yerə çatanda gördü ki, ilanların hər ikisi əvvəlki yerlərindədi.

Bunları görcək Ovçu Kamil çox qəzəbləndi, yenə qara ilanı nişan aldı. Ox açılan kimi yenə də gözəl ilan yerə sərildi. Qara ilan qaçdı. Ovçu Kamil ikinci dəfə gözəl ilanı vurduğuna çox təəssüfləndi. Öz-özünə dedi ki, heç rəva deyil ki, bu neybət ilanın əvəzinə ikinci dəfə o gözəl ilanı vurub yaralayıram. Ovçu Kamil ordan yenə kor-peşiman qayıdıb evinə gəldi. Heç bir kəsə bir söz demədən fikir dəryasına qərq oldu.

Arvadı Ovçu Kamilin belə dilxor ovdan qayıdıb gəldiyini görüb soruşdu:

– A kişi, niyə belə bikefsən, olmaya yenə

bir bədbəxtlik üz verib, qaş-qabağını sallayıbsan?

Ovçu Kamil başına gələn əhvalatı arvadına danışdı:

– Ay arvad, bu gün atdığım ox açılıb o gözəl ilana dəydi. Onun üçün də belə dilxoram.

Arvadı ona ürək-dirək verməyə başladı:

– Ay kişi, fikir eləmə, olacağa çarə yoxdu, nə eləmək olar? Adam da birdən yıxılıb ölür. Olan işdi. Təzədən heç bir şey edə bilməzsən. Gərək o yerə ova getməyəydin.

Bunlar burda söhbət eləməkdə olsun, sizə kimdən deyim, ilanlar padşahından. Yenə ilanlar padşahına xəbər verdilər ki, qızını yenə Ovçu Kamil vurub yaralayıb. İlanlar padşahı bu xəbəri eşitcək çox qəzəbləndi.

– Ovçu Kamil mənim qızımı indi nə üçün vurubdu? Birinci dəfə o qara neybət ilanın üstündə vurmuşdu. İndi isə o qara ilan yoxdu, onu cəzalandırmışam.

İlanlar padşahı yenə ilanları göndərdi ki, getsinlər Ovçu Kamili onun yanına gətirsinlər. Həmin ilanlar gəlib Ovçu Kamilə dedilər:

– İlanlar padşahı səni çağırır.

Ovçu Kamil durdu, ilanlarla birlikdə yola düşdü. İlanlar soruşdu:

– Ay Ovçu Kamil, yenə nə əhvalat üz verib?

Ovçu Kamil öz başına gələn əhvalatı ilanlara nağıl elədi. Ancaq ilanlar buna çox təəccüb elədilər, dedilər:

– Sən nə danışırsan, padşah çoxdan o qara ilanın qətlinə fərman verib. Bu mümkün

deyil.

Gəlib ilanlar padşahının yanına çatdılar. İlanlar padşahı dedi:

– Qızımı indi niyə vurubsan? Birinci dəfə o qara neybət ilanın üstündə vurmuşdun ki, sənin günahından keçdim. Bəs indi nə üçün mənim qızımı yenə vurdun?

Ovçu Kamil öz başına gələn əhvalatı lap əvvəldən axıra qədər ilanlar padşahına söylədi. Onun sözləri ilanlar padşahının ağlına batmadı. Çünki onun özü qara ilanın ölümünə fərman vermişdi.

İlanlar padşahı dedi:

– Mən o qara ilanı öldürmüşəm. Bəs sən nə üçün düzünü boynuna almırsan?

Ovçu Kamil dedi:

– Əgər mənim sözümə inanmırsınızsa, onda həmin çəmənlikdə iki ceyran otlayır. İstəyirsiniz onları öz yanınıza çağırtdırıb soruşun.

İlanlar padşahı xəbər aldı:

– O ceyranlar hardadı, onlar nə bilir bu əhvalatı?

Ovçu Kamil dedi:

– Mən gedirdim ova, gördüm çəmənlikdə iki ceyran otlayır. Yaxınlaşdım ki, onları vurum, söhbətlərini eşidib fikrimdən əl çəkdim. Birinci ceyran ikinci ceyrana deyirdi ki, "Qara ilan o gözəl ilana danışırmış ki, gedim Ovçu Kamili vurum, amma mümkün deyil. Onlar məsləhətləşiblər ki, on gün müddətinə səfərə getsinlər. Bu günlərdə qayıdıb gələcəklər". Sonra öz yoluma davam eləyib yavaş-yavaş evə qayıtmaq istədim. Bir də gördüm ki, yenə həmin yerdə qara ilanla o gözəl ilan bir

yerdədi. Yenə mən fikirləşdim ki, bu heç Allaha rəva deyil ki, o neybət ilan o gözəl ilanın belinə minsin, onun üçün qara ilanı məhv eləmək istədim, amma oxum o gözəl ilana dəydi.

Ovçu Kamili dinləyən ilanlar padşahı onun dediklərinin doğruluğunu yoxlamaq üçün iki ilan çağırıb dedi:

– O ceyranları gedin yanıma gətirin.

Həmin ilanlar gedib ceyranları tapdılar, dedilər:

– Sizi ilanlar padşahı çağırır. İndi siz bizimlə ilanlar padşahının yanına getməlisiniz.

İlanlar ceyranları padşahın yanına gətirdilər. İlanlar padşahı onlardan soruşdu:

– Deyin görüm, o çəmənlikdə nə vaxtdan yaşayırsınız?

Ceyranlar dedilər:

– Bir aydan çoxdu ki, oranı özümüzə oylaq seçmişik.

İlanlar padşahı xəbər aldı:

– Oraya sizdən başqa daha kimlər gəlir?

Ceyranlar dedilər:

– Bizdən başqa o çəmənliyə iki ilan gəlir. Ancaq axşamlar qayıdıb gedirlər. Ovçu Kamil də gəlirdi. Ancaq deyirlər, indi on günlük səfərdədi. O iki ilandan başqa oraya heç kəs gəlmir.

İlanlar padşahı soruşdu:

– Ovçu Kamil səfərə çıxıb?

Ceyranlar dedilər:

– O qara ilan istəyib ki, Ovçu Kamili çalsın, ancaq mümkün olmayıb. Bu xəbəri o gözəl ilana danışanda biz eşitdik.

İlanlar padşahı soruşdu:

- İndi siz ilanları tanıya bilərsinizmi?

Dedilər:

- Tanıyarıq.

İlanlar padşahı əmr elədi ki, bütün ilanları çağırsınlar onun yanına. Bir az keçməmiş bütün ilanlar padşahın hüzuruna gəldi. Ceyranlar o gözəl ilanı tanıyıb ilanlar padşahına göstərdilər.

- Çəmənlikdə olan ilanlardan biri budur, qara ilan burada yoxdur.

İlanlar padşahı bir də əmr elədi o qara ilanı tapıb onun yanına gətirsinlər. İlanlar gedib həmin qara ilanı tapıb onun yanına gətirdilər.

Ceyranlar qara neybət ilanı görən kimi tanıdılar. Sonra ilanlar padşahına dedilər:

- Çəmənlikdə olan ilanın biri də bu qara ilanıydı.

İlanlar padşahı ceyranların getməsinə icazə verdi. Ceyranlar çıxıb getdilər. İlanlar padşahı başladı sorğu-sual etməyə, necə olub bu qara ilan öldürülməyib. Qara ilanı öldürməli olan ilan dedi:

- Mən əmri yerinə yetirmək istəyəndə, qızınız gəlib onu əlimdən aldı.

İlanlar padşahı bunu eşidəndə qara ilanı qızının öz gözü qarşısında öldürtdürdü.

Sonra Ovçu Kamilə dedi:

- İndi arxayın evinə gedə bilərsən.

Ovçu Kamil yavaş-yavaş öz evinə yollandı. O gündən sonra Ovçu Kamil yenə əvvəlki qaydayla hər gün ova gedir, axşam qayıdırdı. Ovda gördüklərini hər axşam arvad-uşağa nağıl eləyirdi. Ancaq Ovçu Kamil o iki

sünbülü heç yadından çıxartmırdı. Tez-tez arvadından soruşurdu:

- O sünbüllər dururmu?

Arvad cavab verirdi:

- A kişi, sünbülləri lap yaxşı yerdə saxlayıram. Sən lap arxayın ol.

Sonra Ovçu Kamil fikirləşdi ki, artıq bir il keçib, daha nə vaxta qədər bu sünbülləri saxlayacam. Bir gün arvadı xörək bişirəndə dedi:

– Ay arvad, o sünbülləri gətir at xörəyin içinə, yeyəcəm.

– Ay kişi, sənin də lap işin-peşən qurtarıb. İndi də durub sünbül yeyəcəksən. Elə o vaxtdan bəri bu iki sünbülü ondan ötrümü saxlayırdın?

Arvad buğdaları sünbüldən çıxardıb xörəyin içinə tökdü. Xörək bişənə yaxın Ovçu Kamil bir də gördü ki, iki atlı alaqapının yanında dayanıb həyətə boylanır. O, atlıları evinə dəvət etdi. Artıq xörək bişmişdi. Onlar bir qədər söhbət elədikdən sonra başladılar yeməyə. Sünbüllərin dediyi söz düz çıxdı. Onlardan biri məğribdən, o biri isə məşriqdən gələn atlı idi. Ovçu Kamil bu sirrə çox məəttəl qalmışdı.

Adəti üzrə yenə Ovçu Kamil günlərin birində ova getdi. Ox-kaman çiynində çox gəzdi, axırda gəlib çıxdı bir çəmənliyə. O, gördü ki, bir ovçu bir ceyran ovlayıb gətirir. İki ovçu salamlaşıb, görüşdülər. Bir az dincəlib söhbət etdilər. Ovçunun ovladığı ceyran mələyərək Ovçu Kamilə dedi:

– Ay Ovçu Kamil, sən məni tanımadın,

yoxsa tanıyıb bir söz demək istəmədin? Sən bilirsən mən kiməm? Mən səni ilanların xatasından qurtaran o iki ceyrandan biriyəm. İndi isə bu zalım ovçunun toruna düşmüşəm. Məni aparıb başımı kəsmək istəyir.

Ovçu Kamil dedi:

– Ay ovçu qardaş, bayaqları sənlə söhbət eləyəndə utandığımdan bir söz demədim. Ancaq icazə ver, mən öz sözümü deyim. Amma bu şərtlə ki, sözümü yerə salmayasan. Ovçu qardaş, mənim sənə sözüm budur ki, bu ceyranı buraxasan. Mən də ovçuyam, sən də. Gərək bir-birimizi eşidək. Sənin də mənə işin düşəndə mən də sənin sözünə baxaram. Sənə yalvarıram, o ceyranı burax getsin.

Ovçu dedi:

– Ay Ovçu Kamil, bu ceyranı buraxa bilmərəm. Buna görə məndən incimə.

Ovçu Kamil istədi ki, ovçunu pul ilə razı salsın, dedi:

– Sən gəl, mənim sözümü rədd eləmə. O ceyranı mənə sat.

Ovçu soruşdu:

– Bu ceyranı nə üçün alırsan? Get başqa ceyran tut. Bu ceyranı sənə verə bilmərəm, onu padşaha aparıram. O, xəstədi, həkimlər ona ceyran əti yeməyi məsləhət görüblər. Mən də padşahın ovçusuyam. Onlar məni ceyran ovlamağa göndəriblər, onu ovlayıb aparıram padşahın yanına, bəlkə yeyib sağala. Üç gündü kü, düşmüşəm düzlərə ceyran ovlamağa. Axırda iki ceyranın izinə düşдцm, biri qaçıb, birini isə tutmuşam. Sən də deyirsən, onu mənə sat. Sata bilmərəm.

Ovçu Kamil əl çəkməyib yenə ovçuya yalvardı:

– Ay qardaş, qadan alım, mənim ceyrana yazığım gəlir. Bunu gəl sən burax, qoy qaçıb getsin. Get padşaha de ki, heç bir ova rast gəlmədim.

O biri ovçu Ovçu Kamilin sözlərini eşitmədi, yoluna davam elədi. Ceyran Ovçu Kamilə yazıq-yazıq baxmağa başladı. Ovçu Kamil bunu görəndə qayıdıb ovçunun qarşısını kəsdi, dedi:

– Ceyranı burax, qoy getsin.

Ovçu buraxmaq istəməyəndə Ovçu Kamil zorla ceyranı onun əlindən alıb buraxdı. Ceyran qaçıb gözdən itdi.

O biri ovçu Ovçu Kamili hədələyərək çıxıb getdi. Ovçu Kamil bikef evə qayıtdı. Həmin ovçu padşahın hüzuruna gedib dedi:

– Padşah sağ olsun, neçə gündü ki, əldən-ayaqdan düşüb sənin üçün ceyran ovlayıb gətirirdim. Ancaq Ovçu Kamil onu zorla əlimdən alıb buraxdı. Ona dedim ki, məni padşahım ova göndərib. Yenə də sözumü eşitmədi.

Bu padşah çox zülmkar, qansız bir adamıydı. Onu heç kəs sözündən döndərə bilməzdi. Padşah cəlladlara əmr elədi ki, Ovçu Kamili aparıb zindana salsınlar. Cəlladlar həmin saat padşahın sözünə əməl elədilər.

Padşah sabahısı günü dedi:

– Ovçunu yanıma gətirin.

Ovçunu padşahın yanına gətirdilər.

Padşah dedi:

– Ay əlindən iş gəlməz, məgər sən bilmirdin mən xəstəyəm, həkimlər ceyran ətini

mənə dərman buyurublar?

Ovçu nə qədər çalışdı padşahı inandırsın ki, ceyranı Ovçu Kamil əlimdən alıb. Padşah inanmadı ki, inanmadı.

Dedi:

– Əgər, o ceyran Ovçu Kamilə lazım olsaydı, özü o ceyranı götürərdi özünə. Daha niyə alıb buraxırdı. Deməк, sən məni aldadırsan.

O, ovçunu möhkəm döydürüb yenə zindana saldırdı. Sonra Ovçu Kamili çağırtdırdı.

Ovçu Kamil tez hazırlaşıb saraya gəldi. O baş əyib, əmrə müntəzir dayandı. Padşah ona yer göstərdi. Ovçu Kamil keçdi padşahın göstərdiyi yerə.

Padşah soruşdu:

– Ey Ovçu Kamil, ceyranı ovçunun əlindən sənmi alıb buraxıbsan?

Bunu eşidən Ovçu Kamil əhvalatı padşaha danışmağa başladı:

– Padşah sağ olsun, mən ceyranı pul ilə almamışam, zorla əlindən alıb buraxmışam. O ceyran məni ölümdən qurtarmışdı. Mən də buna görə onu ovçunun əlindən alıb buraxdım.

Ovçu Kamil elə güman eləyir ki, belə deyən kimi padşah ondan əl çəkəcək. Ancaq belə olmadı.

Padşah xəbər aldı:

– Ay Ovçu Kamil, o ceyran sənə nə yaxşılıq eləmişdi?

Padşahın bu sözünü eşidən Ovçu Kamil elə bil yuxudan ayıldı. İstədi ki, başına gələn əhvalatı söyləsin, ancaq ilanlar padşahının

sözü onun yadına düşdü. Odur ki, üzünü padşaha tutaraq dedi:

– Padşah sağ olsun, təvəqqe eləyirəm, o haqda məndən heç bir şey soruşmayasan. Çünki mən o haqda sizə heç bir şey deyə bilməyəcəm.

Padşah soruşdu:

– Orada nə var ki, məndən gizlədirsən. Qorxma, başına gələni mənə söylə.

Ovçu Kamil dedi:

– Padşah sağ olsun, mən sizə o haqda bir söz deməyəcəm.

Padşah dedi:

– Ovçu Kamil, əgər o əhvalatı deməsən, onda özündən küs. Boynunu vurduracam.

Ovçu Kamil dedi:

– Mən heç bir söz deməyəcəm.

Bu sözü eşidən padşah qəzəblənib əmr elədi:

– O biri ovçunu zindandan çıxarın, onun yerinə Ovçu Kamili salın.

O saat Ovçu Kamili aparıb zindana saldılar. Aradan bir neçə gün keçdi.

Padşah əmr elədi:

– Ovçu Kamili yanıma gətirin!

Cəlladlar Ovçu Kamili padşahın yanına gətirdilər.

Padşah soruşdu:

– Hə, deyəsən ağıllanıbsan, indi söylə görüm, o ceyran sənə nə yaxşılıq eləmişdi?

Ovçu Kamil yenə dedi:

– Mən sizə dedim ki, o haqda heç bir söz deməyəcəm. Yaxşısı budur ki, soruşmayın.

Padşah nə qədər elədisə, Ovçu Kamil

padşaha heç nə demədi.

Padşah qəzəblənib dedi:

– Aparın bunu zindana!

Ovçu Kamili yenidən aparıb zindana saldılar. Bu hadisə bir neçə dəfə təkrar olundu. Artıq bir ildən çox idi ki, Ovçu Kamilin günü zindanda keçirdi. Axırda Ovçu Kamil fikirləşdi ki, o nə vaxta qədər zindanda qalacaq. Yaxşısı budu ki, əhvalatı padşaha danışsın. Bəlkə padşah insafa gəlib onu buraxa.

Ovçu Kamil necə fikirləşdisə, elə də elədi. Bir də padşah onu çağıranda Ovçu Kamil başına gələn əhvalatı padşaha danışdı. Padşah bu əhvalatı eşidəndən sonra onu zindandan azad elədi. Ovçu Kamil evinə qayıtdı. O, ilanlar padşahının sözünü yadına saldıqca çox peşiman olurdu. Çünki, o sirri axıra qədər saxlamamışdı, kor-peşiman ovçuluğunu edirdi. Sirri padşaha danışdığı üçün artıq heyvanların dilini bilmirdi.

Yenə köhnə qayda ilə ovçuluq edib ailəsini dolandırırdı.

Nağılımız burda bitdi. Göydən üç alma düşdü, biri mənim, biri nağıla qulaq asanların, biri də istəmirəm" deyib bacadan baxanların.

## *Səbr daşı*

Biri varıymış, biri yoxuymuş, keçmiş zamanlarda bir padşah varıymış. Bu padşahın saç-saqqalına dən düşmüşdü, amma uşağı yoxuydu.

Günlərin bir günü padşah dərd-qəm içində taxtında oturubmuş.

Xəbər gəlir ki, padşah sağ olsun, səni bir dərviş görmək istəyir.

Padşah deyir:

– Aparın dərvişə yeməkdən-içməkdən verin, çıxıb getsin.

Dərviş bunu eşidib deyir:

– Padşaha deyin ki, mən pay alan dərvişlərdən deyiləm, pay verən dərvişlərdənəm, padşahın özünü görmək istəyirəm.

Dərvişi padşahın hüzuruna gətirirlər.

Padşah deyir:

– Ey dərviş, mənə nə pay verəcəksən?

Dərviş padşaha bir alma verib deyir:

– Padşah sağ olsun, al bu almanı, yarı bölüb arvadınla ye. Bir qızın olacaq. Ancaq böyüyəndən sonra bir ölüyə qismət olacaq.

Padşah başını qaldırıb dərvişə baxmaq istəyəndə dərviş qeybə çəkilir. Padşah başa düşür ki, bu dərviş adi dərvişlərdən deyilmiş.

Padşah almanı yarı bölüb arvadı ilə yeyir. Doqquz ay, doqquz gün keçir, padşahın arvadı yükünü yerə qoyur. Onun gözəl-göyçək bir qızı olur, aya deyir, sən çıxma, mən çıxım, günə deyir, sən çıxma, mən çıxım. Aylar, illər dolanıb keçir. Qız gəlib həddi-buluğa çatır. Padşahın yadına dərvişin sözləri düşür. Odur ki, yır-yığış

eləyib bu məmləkətdən çıxır. "Bəlkə bu yolla qızımı xilas eləyə bildim" deyir. Az gedirlər, üz gedirlər, dərə-təpə düz gedirlər. Axırda gəlib bir meşəyə çatırlar. Baxıb görürlər ki, yaxınlıqda bir koma var. Padşah arvadına deyir:

– Gəlin o komada qalaq, sabah tezdən yola düşərik.

Onlar razılaşırlar. Gəlib komaya yaxınlaşanda görürlər ki, komanın qapısı bağlıdı. Əvvəlcə padşah qapıya yaxınlaşır, nə qədər itələyirsə, qapı açılmır. Sonra arvadı qapını itələyir, qapı açılmır. Axırda qızı əlini uzadır, uzadan kimi qapı açılır. Qız içəri girən kimi qapı bağlanır. Padşahla arvadı çöldə qalır. Nə qədər əlləşib-vuruşurlarsa da, qapı açılmır ki, açılmır. Axırda padşahla arvadının mümkünatı üzülür, qızı orda qoyub ağlaya-ağlaya yola düzəlirlər.

Padşahla arvadı getməkdə olsun, görək qızın başına nə gəlir? Qız görür ki, evin içində bir gözəl oğlan uzanıb. Qız düz yeddi il oğlanın milçəyini qoruya-qoruya burda qalır. Qız Allaha dua eləyir ki, qapı açılsın, çölə çıxsın. Onun duası qəbul olunur, qapı açılır. Qız sevincək çölə çıxır. Bu vaxt yoldan bir karvan keçirmiş. Qız görür ki, dəvənin üstündə keçəl bir qız var. Sən demə bu keçəl qız yetim imiş. Padşahın qızı yalvarır ki, bu qızı ona versinlər. Karvan sahibi keçəl qızı ona verir.

Padşah qızı keçəl qızı gətirib oğlanın yanına qoyur, özü gedir başını yumağa. Bu vaxt oğlan asqırıb ayılır. Görür ki, yanında keçəl bir qız var. Oğlan öz-özünə deyir ki, bu qız mən yatandan mənim əziyyətimi çəkib, gərək bu qızı

alam. Padşah qızı da başını yuyub qayıdır. Görür ki, oğlan ayılıbdı. Qız fikrə gedib öz-özünə deyir: "Mən yeddi il bunun zəhmətini çəkdim, gör bu kimə qismət oldu". Padşah qızı başlayır ağlamağa.

Oğlan ürəyində tutur ki, gərək bu qızların ikisini də alım. Qızlara deyir:

– Mən bazara gedirəm, sizə nə alım?

Keçəl qız deyir:

– Dünyada nə qədər naz-nemət varsa hamısından al.

Padşah qızı isə deyir:

– Mənə bir şüşə nöyüt, bir kibrit, bir dənə də səbr daşı al, daha heç nə istəmirəm.

Oğlan o saat qızların ürəyindən keçənləri başa düşür. Gedir bazara. Qızlar nə tapşırmışdısa, hamısını alır. Əvvəlcə keçəl qızın dediklərini ona verir. Sonra padşah qızının dediklərini verir. Padşah qızı bunları oğlandan alıb gedir tövləyə. Oğlan da sakitcə onun dalınca gedir. Padşah qızı bütün başına gələnləri başlayır səbr daşına danışmağa. Danışıb qurtarandan sonra istəyir ki, üstünə nöyüt töküb özünü yandırsın. Bu vaxt oğlan qızın qolundan yapışır, özünü yandırmağa qoymur. Oğlan padşah qızı ilə evlənir, keçəl qızı da özünə qaravaş saxlayır.

Oğlan padşah qızı ilə ömür sürüb gün keçirir. Onlar öz muradlarına yetir, sizi də Allah muradınıza yetirsin.

Göydən üç alma düşdü, biri mənim, biri nağıla qulaq asanların, biri də nağılı yadında saxlayanların.

## *Keçəllə kosa*

Biri varıydı, biri yoxuydu, bir keçəllə kosa varıydı. Günlərin bir günü onların hər ikisi dən üyütmək üçün dəyirmana gedirlər. Dəyirmanda unu üyütmək üstündə mübahisə edirlər. O deyir, birinci mən üyüdəcəm, bu deyir, mən üyüdəcəm. Keçəl işin böyüdüyünü görüb deyir:

– Gəl belə bir şərt kəsək, hərəmiz bir yalan uyduraq. Kimin dediyi yalan ağ olsa, unu birinci o üyütsün.

Kosa keçəlin bu şərtinə razı olur. O, belə bir yalan uydurur:

– Bizim kəndin ortasından bir enli çay axırdı. Bir gün çayın kənarında durmuşdum. Əkinin şıdırğı vaxtıydı. Çayın o üzünə baxdım ki, camaat bir bostan, bir dirrik salır ki, gəl görəsən. Mən də bostan əkmək həvəsinə düşdüm. Beli qoydum çayın ortasına, tullandım o tayına. Bir xeyli zəhmətdən sonra bir az qarpız, yemiş toxumu əkdim. Beli çaya qoyub yenidən bu taya keçdim. Elə bir-iki addım atmışdım ki, çönüb arxaya baxdım. Gördüm ki nə? Camaat bostanda yığhayığdı. Beli çayın ortasına qoyub tullandım. Düz düşdüm bostanın içinə. Dedim qoy görüm bu qarpız-yemişin tamı necədi? Yetişib, ya yox? Cibimdən bir bıçaq çıxardıb vurdum yemişə, başladım dilim-dilim eləməyə! Elə bir-iki dilim yemişdim ki, birdən bıçağı yemişin içində itirdim. Ha axtardım, tapmadım ki, tapmadım. Bu vaxt yoldan bir kişi keçirdi. O, məndən soruşdu ki, nə axtarırsan? Dedim ki, bəs belə-belə, bıçağımı yemişin içində

itirmişəm. Bayaqdan nə qədər axtarıram tapa bilmirəm.

Kişi gülüb dedi:

– Ay rəhmətliyin oğlu, mən onun içində yeddi yüklü dəvə itirmişəm. Heç onu tapa bilmədim, sən balaca bir bıçağı nə cür tapacaqsan?

Kosa uydurduğu yalanı burada qurtarır. Keçəl ona deyir:

– İndi qulaq as, gör mən nə təhər yalan deyəcəm.

– Mənim bir qoca nənəm varıydı. İkimiz də uçuq bir daxmanın altında kasıbçılığımızı eləyirdik. Hərəmizin vur-tut bir dəst mitilimiz, bir az da ev şey-şüyümüz, vardan-dövlətdən də ki, bircə dənə xoruzumuz varıydı.

Yayın elə bir günüydü ki, tüpürəndə göydə quruyurdu, yerə düşmürdü. Hə, sözüm onda yox, yaylağa getmək fikrinə düşdüm. Lazım olan palaz-paltarı, mitil-şitili yığıb xoruza yüklədim, çıxdım üstünə, nənəmi də aldım tərkimə. Üz qoyduq yaylağa tərəf. Az getdik, üz getdik, iynəyarım yol getdik, xeyli əziyyətdən sonra gəlib saf havalı bir yaylağa çatdıq. Mən balaca bir çadır qurdum. Nənə-bala istirahətimizə başladıq. Mən hər gün xoruzu da götürüb gedirdim meşəyə odun qırmağa. Qırdığım odunu xoruza yükləyib aparırdım bazara satmağa. Nə başını ağrıdım, beləliklə, gündəlik çörək pulunu çıxarırdım. Bu minvalla bir müddət keçdi. Bir də baxdım gördüm ki, xoruzun beli yağır olub. O dərman qalmadı ki, yarasına çəkməyim. Xoruzun beli

sağalmadı ki, sağalmadı. Axırda mənə dedilər ki, bəs yetişməmiş qozun qabığını əz, qoy yarasının üstünə. Mən deyilən kimi də elədim. Səhər durub nə görsəm yaxşıdı? Xoruzun belində böyük bir qoz ağacı bitib. Əlimə bir oxarlı dəhrə alıb çıxdım qoz agacını kəsməyə. Elə ağacın başına çıxmışdım ki, bir də gördüm, aran tərəfdən camaat tökülüb taxıl biçir. Tez ağacdan düşüb ağacı kəsdim. Yır-yığış eləyib nənəmlə birlikdə mindim xoruzun belinə, üz qoyduq arana tərəf.

Gəlib evimizə çatan kimi bir oraq götürüb getdim taxıl biçməyə. Elə biçimə təzəcə başlamışdım ki, bir də gördüm lap yanımdan bir dovşan qaçdı. Ərinmədim, tez orağı atdım dovşana sarı. Oraq dovşana ilişdi. Dovşan qaçdı, oraq biçdi, dovşan qaçdı, oraq biçdi. Beləliklə, zəminin yarısı biçildi.

Mən öz işimi hamıdan tez qurtardım. İndi dən üyütməyə gətirmişəm, bu buğda da həmin taxıldandı.

Bununla da keçəl uydurduğu yalanı bitirdi, sonra kosaya dedi:

– Hə, indi de görək, kimin yalanı üstün, ağ yalandı.

Kosa məyusluqla dedi:

– Görürəm, sənin yalanın mənimkindən üstündü. Ona görə də buğdanı əvvəlcə sən üyütməlisən.

Nağılımız burdaca bitdi. Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl söyləyənin.

## *Ağılla bəxt*

Günlərin bir günü ağılla bəxt yola çıxırlar. Söhbət eləyə-eləyə gəlib iki yol ayrıcına çatırlar.

Ağıl deyir:

– Mən sənsiz keçinərəm. Onsuz da hamı ağıl ilə dolanır.

Bəxt deyir:

– Yox, bir adamın ki bəxti olmadı, o təkcə ağılla heç nə eliyə bilməz.

Ağıl deyir:

– Yaxşı, indi ki belə oldu, gəl onda bu yolla birimiz gedək, ikinci yolla o birimiz. Görək hansımız insanlara daha çox lazımıq. Onda kimin üstün olduğunu da bilərik.

Bəli, bunlar hərəsi bir yolla getməyə başlayırlar.

İndi bunlar getməkdə olsun, sizə kimdən deyim, bir kasıb oğlandan. Bu oğlanın adı Qərib idi. Qərib bütün günü yer şumlayır, əkin əkir, ancaq yenə də bir şey qazana bilmirdi. Bir gün belə, iki gün belə, axırda oğlan görür ki, yox, belə getsə daha dolana bilməyəcək. Öz-özünə deyir ki, gedim elə padşahın yanında bir işə düzəlim, həm asan iş olsun, həm də bir az pul qazana bilim.

Bəli, Qərib gəlib çatır saraya. Nə üçün gəldiyini xəbər verir. Onu sarayda odunyaran qoyurlar. Qərib hər gün odun yarıb haqqını da artıqlaması ilə alır. Dolanışığı getdikcə yaxşılaşmağa başlayır. Bir gün padşahın qızı xəstələnir. Camaat arasında car çəkilir, bəs kim

padşahın qızını sağaltsa, padşah qızını ona verəcək, üstəlik taxt-tacı da həmin adamındı. Hansı həkim qızın üstünə gəlir, qızı sağalda bilmir, o saat da dar ağacından asılır. Qərib öz-özünə deyir, ya bəxt, qoy mən də gedim. Elə bəlkə Allah mənə yar oldu, qız öz-özünə sağaldı.

Bəli, Qərib padşahın hüzuruna gəlir. Onu buraxırlar qızın yataq otağına. Qərib görür ki, qız bir qızdı ki, adam elə deyir bütün günü yemə-içmə, bu qızın xətti xalına, gül camalına tamaşa elə. Oğlan oturur qızın taxtının kənarında, başlayır danışmağa: "Şahzadəm, gəl mən sənə nağıl söyləyim, sən də qulaq as." Qız başı ilə razılıq işarəsi verir:

Oğlan deyir: "Biri varıydı, biri yoxuydu, bir ölkə, bu ölkənin də bir padşahı varıydı. O yatanda gərək bir keşikçi otura idi onun yanında, ta ki səhər açıla.

Bəli, bu padşah üçün gündə biri keşik çəkirdi. Bir keşikçi bir dəfə keşik çəkəndə darıxır. O, dülgəriymiş. Taxtadan bir adam düzəldir. Vaxt tamam olanda həmin ağacdan düzəlmə adamı qoyur oturduğu kətilin üstünə, özü çıxıb gedir. Səhərisi o biri keşikçi gəlir. Görür ki, kətilin üstündə bir ağacdan adam şəkli var. O da əvvəllər dərzi imiş. Götürür həmin adama paltar tikir. Bəli, bunun da vaxtı tamam olur, "adamı" kətilin üstünə qoyub gedir. Üçüncü günü başqa bir keşikçi gəlir, o da görür ki, kətilin üstündə bir ağacdan düzəlmiş adam var. Bu da molla olubmuş. Götürür bir ovsun oxuyur. Həmin ağac

böyüyüb qəşəng və canlı bir qız olur.

Səhər açılır, əvvəlki iki keşikçi də gəlir ki, görsün işləri nə cür olub. Görürlər ki, bəli, həmin ağac adam dönüb canlı insan olub. Özü də qəşəng bir qız. Molla da götürüb aparır evinə. Əvvəlki keşikçilər mollanın qabağını kəsib deyirlər ki, nə yaxşıca qızı götürüb gedirsən, bəs bizim də burda əməyimiz olub. Başlayırlar cəhli-bəhs etməyə, biri deyir, qız mənimdi, o biri deyir yox, mənimdi.

Oğlan hekayətini qurtarıb padşah qızından soruşur:

– Xanım, indi sən de, qız kimə düşür?

Padşah qızı deyir:

– Mollaya.

Qərib soruşur:

– Niyə?

Qız deyir:

– O, qıza nəfəs verməsəydi, qız canlı insan olmazdı.

Oğlan deyir:

– Yaxşı, o qız mollaya düşür, bəs sən kimə düşürsən?

Qız deyir:

– Sənə.

Bəli, padşaha xəbər gedib çatır ki, qızın danışır.

Padşah oğlanı çağırıb çoxlu xələt verəndən sonra yola salır. Qərib qızı istəmir. Öz-özünə deyir ki, padşah söz verib, deməli, sözünə əməl edəcək.

Belə-belə beş gün keçir, on beş gün keçir, bir ay keçir. Qərib görür ki, yox, padşahdan bir

səs-səmir çıxmır. Elə bil həmin söz verən padşah deyilmiş. Qərib fikirləşir, bəlkə padşahın yadından çıxıb, gedim yadına salım. Qərib gəlir padşahın yanına. Padşah o saat Qəribin nə üçün gəldiyini başa düşür, deyir:

– Qərib, bilirəm nə üçün gəlmisən, ancaq sən mənim qızıma sənə yaraşmırsan, pulunu artıraram, necə istəyirsən, elə də yaşayarsan.

Qərib sözündən dönmür. Padşah qəzəblənir:

– Deməli, sən mənim sözümdən çıxırsan. Cəllad!

O saat cəllad hazır olur.

– Tez bunu dar ağacından asın.

Bəli, o saat təbillər vurulur, dar ağacı hazır olur. Qəribi gətirirlər dar ağacı olan meydana. Padşah qırmızı geyinib çıxır taxtına. Camaatın da hamısı yığılıb Qəribin necə asılacağını gözləyir. Cəllad hazır olub padşahın əlini yuxarı qaldırmasını gözləyir. Birdən padşah nəsə fikirləşib öz-özünə deyir, yaxşı, mən qocalmışam, mənim qızıma bundan yaxşı oğlan olmaz. Qoy elə qızımı verim Qəribə, taxt-tacıma da onu oturdum. Cəllada əmr edib deyir:

– Əl saxla!

Bu vaxt Ağıl dayanıbmış həmən yerdə, bir də görür ki, budur, Bəxt qan-tər içində gəlir, deyir:

– Nə olub? Bura bu qədər adam yığılıb.

Ağıl bütün əhvalatı əvvəldən axıra qədər danışır, дeyir:

– Oğlan ağlına görə padşahın yanına getdi. Ancaq axırı bu dar ağacı oldu. Bilmirəm padşah nə fikirləşib fikrindən daşındı. Hələ bir

qərara gələ bilmir.

Bəxt dedi:

– Özümü yaxşı çatdırmışam. Oğlanın bəxti var, bu saat padşah onu dar ağacından düşürəcək.

Doğrudan da, oğlanı dar ağacından düşürürlər.

Padşah qızını oğlana verir, üstəlik taxt-tacını da ona tapşırır. Qırx gün, qırx gecə toy elədikdən sonra öz muradlarına çatırlar.

Ağıl Bəxtə deyir:

– Doğrudan da, hər ikimiz insanlara lazımıq. Biz heç vaxt ayrılmamalıyıq.

O gündən ağılla bəxt bir-birindən heç vaxt ayrılmadılar.

## İki qardaş

Biri var idi, biri yox idi, bir ana və onun da iki oğlu var idi. Onların var-yox bircə inəkləri var idi. Qardaşların biri ağıllı idi, biri ağıldan kəm. Bir gün axşam ana ilə ağıllı qardaş dəli qardaşı yatmış bilib, söhbət edirlər. Anası oğluna deyir:

– Gəl inəyimizi satıb qardaşını evləndirək, bəlkə ağıllandı.

Dəli qardaş isə yatmamışdı. Özünü yuxuluğa vurub, söhbətə qulaq asırdı. O, səhər tezdən durub, inəyi pəyədən çıxarır və qabağına salıb şəhərə tərəf aparmağa başlayır. Bunu görən ağıllı qardaş ondan soruşur:

– İnəyi hara aparırsan?

Dəli qardaş:

– Aparıram satmağa.

Ağıllı qardaş qorxudan heç bir söz demir. Dəli qardaş bir xeyli meşənin içərisiylə getdıkdən sonra, bir xarabalığa rast gəlir. Görür ki, uçuq hasarın üstündə bir şanapipik oturub. Dəli qardaş kamali-ehtiram ilə əllərini sinəsinə qoyur və baş əyib deyir:

– Salamməleyküm, hacı.

Özü-özünə cavab olaraq deyir:

– Əleyküməsalam.

– Hacı, bu inəyi satıram, alarsanmı?

– Neçəyə satırsan, bala?

– 20 tümənə.

– Yox, çox bahadı, qiymətin salsan alaram.

– Yaxşı, qoy olsun 15 tümən.

Dəli qardaş bu sevda ilə razılaşaraq inəyi

xarabanın yanındakı ağaca bağlayır və "hacı"dan soruşur:

– Ay hacı, bəs pulun dalınca nə vaxt gəlim?

– Sabah gələrsən.

– Yaxşı, sağ ol.

– Xoş getdin.

Dəli qardaş evlərinə gəlir. Anası ondan soruşur:

– İnəyin kimə satdın, bala?

– Bir hacıya.

– Bəs pulu hanı?

– Dedi ki, sabah gəlib aparарsan.

Səhəri gün dəli qardaş xarabalığa gəlir. Uzaqdan görür ki, vəhşi heyvanlar inəyi parçalayıb yeyirlər. Öz-özünə fikirləşir: "Deyəsən hacının hörmətli qonaqları var. Yaxşı deyil, deyərlər ki, bir nimçə plov yeməyə gəlib. Qoy gedim, sabah gəlib pulu apararam." O, evə qayıdır.

Anası ondan soruşur:

– Nə oldu, ay bala, hacı pulu verdi?

Dəli qardaş:

– Bu gün hacının böyük qonaqlığı vardı. Gözünə görünmədim. Dedim, sonra fikirləşər ki, boşqab gətirib. Sabah gedib pulu gətirərəm.

Ertəsi gün dəli qardaş yenə xarabalığa gedir. Bu dəfə görür ki, qarğa-quzğun yığışıb inəyin sür-sümüyünü didişdirirlər. Fikirləşir: "Deyəsən, hacının bu gün kasıb qonaqları var. Məni görsə elə bilər ki, bir boşqab bozbaş yeməyə gəlmişəm. Yaxşısı budur, qayıdım, ayrı vaxt gələrəm"

Dəli qardaş evə qayıdır. Bir neçə gündən

sonra o, yenə xarabalığa gedir. Görür ki, inəkdən əsər-əlamət yoxdu. Şanapipik isə xarabanın üstündə oturub. Dəli qardaş ona yaxınlaşıb deyir:

– Salam-məleyküm, hacı. Pula görə gəlmişəm. Nə deyirsən?

– Əşşi, nə pul. Bir arıq inək idi. Kəsdim, heç ət çıxmadı.

Bu sözdən hirslənən dəli qardaş yerdən bir daş götürüb şanapipiyə atır. Daş xarabalığın divarına dəyib oranı uçurdur. Dəli qardaş görür ki, divarın içi qızılla doludur. Tez evə qayıdır və qardaşına deyir:

– Hacını öldürmüşəm, xəzinəsini tapmışam. Durma, tez kisələri götür, gedib xəzinəni gətirək.

Ağıllı qardaş istər-istəməz onunla xarabalığa gedir. Çatıb görür ki, doğrudan da xarabalıqda xəzinə var. Onlar xəzinəni yığışdırıb evə qayıdarkən yolda bir yasavula rast gəlirlər. Yasavul onların qabağını kəsir və soruşur:

– Yükünüz nədir, nə aparırsınız?

Dəli qardaş:

– Gözünə girən. Görmürsən ki, qızıl aparırıq. Hacını öldürmüşük, onun xəzinəsidi, aparırıq, - deyir.

– Hansı hacını?

– Sənə nə var?

– Əgər məni də özünüzə ortaq eləməsəniz sizi tutduracağam.

Ağıllı qardaş buna razı olur. Onlar evə gəlirlər. Dəli qardaş bir küncdə oturub həlim içməklə məşğul olur. Ağıllı qardaşla yasavul

isə qızılları bölüşdürməyə başlayırlar.

Yasavul deyir:

– Qızılı belə bölək: iki papaq mənim, bir papaq sizin.

Ağıllı qardaş isə etiraz edərək deyir:

– Yox, biz iki qardaşıq, qızılın iki papağı bizim, biri sənin.

Onların sözü çəp gəlir və dalaşmağa başlayırlar. Onlar dalaşa-dalaşa dəli qardaşa yaxınlaşanda o deyir:

– Kimin ayağı mənim qabıma toxunub həlimi dağıtsa, durub onu öldürəcəyəm.

Təsadüfən yasavulun ayağı boşqaba ilişir, həlim dağılır. Dəli qardaş durub yasavulu öldürür və meyiдini quyuya salır, sonra da yıxılıb yatır. Anası ilə qardaşı oturub dərd çəkirlər ki, səhər hökümət adamları gəlib yasavulu axtaranda dəli qardaş sirri açacaq. Onlar oturub tədbir tökürlər və qərara alırlar ki, dəlinin keçisini öldürüb quyuya salsınlar. Yasavulun meyiдini isə çıxarıb başqa yerdə basırsınlar.

Səhər hökümət adamları gəlib yasavulun meyiдini axtarır. Carçı car çəkir ki, yasavulun yerini göstərən padşahdan bəxşiş alacaq. Bunu eşidən dəli qardaş carçıya deyir:

– Yasavulu mən öldürmüşəm. Meyiдini də quyuya atmışam. Gəlin gedək, göstərim.

Camaat dəli qardaşla birlikdə quyunun başına gedir. Qapının deşiyindən camaatın onların həyətinə gəldiyini görən ağıllı qardaş məsələni başa düşür. O, anası ilə birlikdə quyunun yanına gəlib camaata deyir:

– Ay camaat, bu dəlidir, bunun sözünə inanmayın. Quyuda meyiд yoxdu.

Hökümət adamları təkid edirlər ki, gərək quyuya düşüb, meyiдi çıxardasan.

Dəli qardaşın belinə ip bağlayıb quyuya sallayırlar. Dəli qardaş quyunun içindən qışqırır:

– Ay qardaşlar, sizin yasavulun saqqalı var idi?

– Hə, var idi.

– Sizin yasavulun qulağı var idi?

– Hə, var idi.

– Sizin yasavulun buynuzu var idi?

Carçı acıqlanaraq deyir:

– Bizi ələ salmısan, yoxsa özünü? Meyidi çıxart görək, nədi.

Dəli qardaş meyidi çıxardır, hamı görür ki, bu keçi cəmdəyidi. Camaat dağılır. Anası ilə qardaşı sevinirlər. Bir neçə gündən sonra dəli qardaş ağıllı qardaşına deyir:

– Dur, ova gedək.

Onlar ova gedirlər. Bir qədər getdikdən sonra qarşılarına bir daxma çıxır. Dəli qardaş tez daxmaya yaxınlaşır, qapını çıxardır və möhkəm-möhkəm dalına sarıyır. Ağıllı qardaş soruşur:

– Bu qapını neynirsən?

– Məni evləndirəndə lazım olacaq.

Onlar yollarına davam edirlər. Gecə düşür.

Dəli qardaş deyir:

– Gəl ağaca çıxıb, orada gecələyək. Yoxsa qurd-quş bizi yeyər.

Dəli qardaş qapı dalında ağaca çıxır.

Ağıllı qardaş deyir:

– Qapını niyə çıxarırsan?

– Qapının üstündə yatacağam.

Gecənin bir vaxtında karvan zənginin səsinə oyanıb görürlər ki, tacirlər karvanın yükünü ağacın altına boşaltdılar. Sonra da plov dəmlədilər. Plov hazır olar-olmaz dəli qardaş ağıllı qardaşa deyir:

– Qapını atıram.

Bu sözü deməklə qapını atmağı bir olur. Bu gurultudan qorxan tacirlər hərəsi bir tərəfə qaçıb uzaqdan bura baxırlar. Görürlər ki, ağacdan iki adam düşdü. Biri oturdu plov yeməyə, o biri həlim içməyə.

Tacirlər qorxudan onlara yaxınlaşa bilmir, nəhayət bir nəfər cürətlənərək deyir:

– Mən gedim öyrənim görüm bunlar kimdir, nə canlı-cinlidir?

Dəli qardaş uzaqdan onlara bir nəfərin yaxınlaşdığını görüb, ocaqdan bir kösöv götürür. Külünü təmizləyib yanında gizlədir. Gələn adam onlara yaxınlaşanda dəli qardaş onu həlim içməyə dəvət edir. Gələn tacir oturub şirin-şirin həlim içən zaman birdən kösövü götürüb onun ağzına basır. Ağzı yanan tacir qışqıra-qışqıra yoldaşlarına tərəf qaçır. Uzaqdan bunu görən tacirlər qorxuya düşürlər və yüklərini də qoyub qaçırlar. Qardaşlar yeyib-içib tacirlərin mal-dövlətini də yığışdırıb evə qayıdırlar. Toy edib hər iki qardaş evlənir, ömürlərinin sonuna qədər şad, xürrəm yaşayırlar.

Nağılımız burda başa çatdı. Göydən üç alma düşdü; biri mənim, biri qulaq asanların, biri də nağılı yadında saxlayanların.

## Üç qardaş

Biri varıydı, biri yoxuydu, iki qardaş varıydı. Böyük qardaş ölkənin padşahı, kiçik qardaş isə onun vəziriydi. Padşahın bir qızı, vəzirin isə üç oğlu varıydı. Böyük qardaş, ortancıl qardaş, kiçik qardaş – üçü də əmisi qızı Pərizad xanıma vurulmuşdular.

Xəbər padşaha çatır. O, qardaşı oğlanlarını yanına çağırıb deyir:

– Üçünüz də qardaşım oğlusunuz. Sizi bir balam kimi istəyirəm. Üçünüzə bir tapşırıq verəcəyəm: kim çox qazanc gətirsə qız onundu.

Qardaşlar razılaşdılar. Ataları, əmiləri ilə görüşüb yola rəvan oldular.

Əvvəlcə üç qardaş üçü də bir yerdə gedirdilər. Gəlib bir yol ayrıcına çatdılar. Yolun qırağında bir ağsaqqal kişi oturmuşdu. Qardaşlar qocaya yaxınlaşıb ədəblə salam verdilər.

Böyük qardaş soruşdu:

– Əmi, bu yollar hara gedir?

Qoca dedi:

– Oğul, soruşmasan yaxşıdı.

Qardaşlar xahiş etdilər ki, qoca doğrusunu desin.

Qoca dedi:

– Oğul, bu birinci yol gedər-gəlməzə, ikinci yol axırıxeyrə, üçüncü yol isə qazanca gedir.

Qardaşlar burada bir az oturub dincəldilər. Məsləhətləşdilər ki, kim hansı yolla getməlidir.

Böyük qardaş dedi:

– Birinci yol gedər-gəlməzə gedir, bu yol

mənim. İkinci yol axırıxeyrə gedir, bu ortancıl qardaşımızın. Üçüncü yol isə qazanca gedir, bu yol da kiçik qardaşımızın.

Qardaşlar razılaşdılar. Öpüşüb, görüşüb ayrıldılar.

Görək böyük qardaşın başına nə gəldi?

Böyük qardaş ölüm yolu ilə dincəlmədən bir neçə gün getdi. Gəlib bir keçidə çatdı. Gördü ki, üç div keçidin ağzında oturub höcətləşirlər. O, bərk qorxuya düşdü. Fikirləşdi ki, bura ölüm yoludu. Hər şey sona çatdı. Böyük qardaş qaçmaq istədi. Amma divlər onu görmüşdülər. O, heç bir şey olmamış kimi divlərin yanına gəldi.

Dedi:

– Niyə belə höcətləşirsiniz?

Divlərdən biri dedi:

– Ey bəni-insan, biz bir xalça, bir süfrə, bir də üzük tapmışıq. Bunları bölə bilmirik.

Böyük qardaş soruşdu:

– Bunlar nə üçündü?

Div dedi:

– Bunların üçü də sehirlidi. Xalçanın üstünə oturub desən ki, xalça, məni filan yerə apar, o saat xalça səni istədiyin yerə aparar. Süfrəyə desən ki, açıl süfrəm, açıl, süfrə açılacaq, üstündə hər cür nemətlər olacaq. Üzüyə desən ki, məni mətləbimə çatdır, üzük səni mətləbinə çatdırar.

Böyük qardaş dedi:

– Mən sizin aranızda bunları ədalətlə bölüşdürə bilərəm.

Divlərdən biri dedi:

– Sən, ey bəni-insan, bunları bizim aramızda bölüşdürsən, nə istəsən sənə verərik.

Böyük qardaş dedi:

– Mən bu oxu atacam. Siz tez oxun dalıyca qaçacaqsınız. Kim birinci ox düşən yerdən oxu götürüb gəlsə xalça onun olacaq. İkinci gələnə süfrə, üçüncü gələnə isə üzüyü verəcəm.

Divlər razılaşdılar. Böyük qardaş kamanı çəkib oxu buraxdı. Divlər üçü də oxun dalınca qaçmağa başladılar.

Böyük qardaş cəld süfrəni və üzüyü götürüb xalçanın üstünə oturdu və dedi:

– Xalça, məni ortancıl qardaşımın yanına çatdır.

Artıq bir neçə il keçmişdi. İndi sizə kimdən deyim, ortancıl qardaşdan. Ortancıl qardaş oxuyub məşhur bir həkim olmuşdu. Böyük qardaş bir neçə şəhəri gəzdikdən sonra ortancıl qardaşını tapdı. Öpüşüb görüşdülər. İkisi də xalçaya oturub kiçik qardaşının yanına getdilər. Kiçik qardaş baxıcı idi. Gələcəkdən xəbər verirdi. Qardaşlar öpüşüb görüşdülər. Böyük qardaş kiçik qardaşa dedi:

– Qardaş, sən baxıcısan. Bax görək evimizdə nə var, nə yox?

Baxıcı qardaş baxıb dedi:

– Salamatlıqdır. Amma əmimizin qızı bərk xəstədi. Bir az da gec çatsaq öləcək.

Onlar tez xalçaya oturdular. Bir aylıq yolu bir saata gəlib evlərinə çatdılar. Böyük qardaş ortancıl qardaşa dedi:

– Qardaş, öz bacarığını göstər. Əmimiz qızını sağalt.

Ortancıl qardaş cürbəcür dava-dərman düzəltdi, gecə-gündüz qızın qulluğunda durdu. Bir neçə gün keçdi. Rərizad xanım sağalıb ayağa durdu. Padşah qardaşların üçünü də yanına çağırdı. Padşah heç bir söz deməmiş ortancıl və kiçik qardaş dedi:

– Əmi, Pərizad xanım ortancıl qardaşımızındı. Qızı o sağaltdı.

O biri qardaşlar da başqa qızlarla evləndilər, xoşbəxt oldular.

Siz də xoşbəxt olun! Nağılımız da burda bitdi. Biri mənim, biri nağıla qulaq asanların, biri də kənarda durub istəmirəm deyənlərin.

## *Armudan bəy*

Biri var idi, biri yox idi, keçmiş zamanlarda bir şəhərdə yoxsul bir ailə yaşayırdı. Bu ailənin uşağı yoxuydu. Ay keçdi, il dolandı, bu ailədə bir oğlan uşağı dünyaya gəldi. Oğlanın adını Zöhrab qoydular. Zöhrab həddi-buluğa çatmamış ata-anası vəfat etdi. Tək qalmış Zöhrab şəhərdə avara-avara gəzib dolaşırdı. Bir gün bir şəhərin sakini uşağın kimsəsiz olduğunu bilib öz evinə apardı. Zöhrabı o qədər işlədirdi ki, uşaq günün nə vaxt çıxıb, nə vaxt batdığını da bilmirdi. Zöhrab işləməkdən cana doydu və evdən qaçmaq fikrinə düşdü. Günlərin birində Zöhrab evdən qaçdı. Həmin şəhərin yaxınlığında bir meşə var idi. Zöhrab evdən çıxıb bir baş bu meşəyə yollandı. Bu meşədə bir ağacın dibində koma düzəldib orada yaşamağa başladı. Zöhrab gündüzlər meşədə ov edir, gecələmək üçün həmin böyük ağacın dibindəki komasına gəlirdi. Şəhərdə yaşayan adamlar həmişə bu meşəyə ova və gəzməyə çıxırdılar. Hər çıxanda Zöhrabı meşədə armud ağacının dibində görərdilər. Ona görə Zöhrabın adını Armudan bəy deyə çağırmağa başladılar.

Gün keçdi, ay dolandı, yaz fəsli gəldi, armud ağacı çiçək açdı. Yay fəslində bu ağacda meyvələr görünməyə başladı. Payız aylarının birində Armudan bəy komasında yuxudan durduğu zaman yerdə bir neçə armud gördü. Həmin armudları yerdən götürüb ağaca tərəf baxdı. O gündən bildi ki, bu armud ağacıdı. Armudan bəy bir gün yenə ova çıxmışdı. Bir

tülküyə rast gəldi. Həmin gündən sonra Armudan bəy tülküylə tez-tez rastlaşırdı. Onlar dostlaşdılar. Elə oldu ki, Armudan bəylə biri-birini başa düşməyə başladılar. Onlar bir yerdə yaşayası oldular. Günlərin birində tülkü Armudan bəyə yaxınlaşıb dedi:

– Heç belə yaşayış olmaz ki, biz yaşayırıq. Gün-dirriyimiz çox pis keçir. İndi mən bir tədbir töküm, sən də buna razı ol.

Armudan bəy tülkünün məsləhətini dinləməyə başladı. Tülkü nə məsləhət verdisə Armudan bəy buna razılıq verdi. Axşamı komada keçirdilər. Səhər açıldı.

Tülkü Armudan bəyə dedi:

– Mən şəhərə gedirəm, sən də ov üçün meşəyə get.

Tülkü bunu deyib birbaşa şəhərə yollandı. Az getdi, üz getdi, dərə-təpə düz getdi, gedib şəhərə çatdı. Padşahın sarayının harada yerləşdiyini öyrənib birbaş saraya yollandı. O gizlicə saraya girib padşahın oğlunun ən qiymətli paltarlarından bir dəst oğurlayıb çıxdı. Birbaş meşəyə yollandı. Armudan bəy də bu zaman ovdan təzə gəlmişdi. O, tülkünün gətirdiyi bağlamaya baxıb dedi:

– Ay tülkü lələ, o bağlamada nə gətirmisən?

Tülkü bağlamanı tez açıb gətirdiyi qiymətli paltarları Armudan bəyin qabağına atdı, paltarları geyinməsini ondan təvəqqe etdi. Armudan bəy tez öz paltarlarını soyunub tülkünün gətirdiyi vəznəli paltarları geydi. Dönüb gözəl-göyçək bir oğlan oldu.

Tülkü üzünü Armudan bəyə tutub dedi:

– Armudan bəy, indi sən evlənməlisən ki, yaşayışımızı yaxşı quraq. Mən sənə nə buyursam sən də ona razı olmalısan.

Armudan bəy “baş üstə” deyib razılığını bildirdi. Tülkü və Armudan bəy gecəni komada gecələyib, sübhü tezdən durdular. Tülkü Armudan bəyə dedi:

– İndi gəl düş qabağıma gedək. Sənə şəhərdən elə bir arvad almalıyam ki, onun varı, pulu həddindən çox olsun.

Armudan bəy tülküyə bildirdi:

– Ay tülkü lələ, kim öz qızını mənim kimi yetim, kasıb bir oğlana verər?

Tülkü ona dedi:

– Sənin işin olmasın, mən nə desəm sən ona “hə” deməlisən.

Armudan bəy tülküyə “baş üstə” deyib ikilikdə yol getməyə başladılar. Meşədən çıxdıqdan sonra böyük bir çəmənliyə çatdılar. Çəmənlikdə bir bölük qoyun sürüsü otlayırdı. Sürünü otaran çoban Armudan bəyi və tülkünü görcək birbaş onların yanına gəldi. Salam verib soruşdu:

– Siz haradan gəlib, haraya gedirsiniz?

Tülkü cavab verib dedi:

– Biz bu görünən şəhərdən başqa şəhərə gedirik.

Tülkü çobanın danışığını kəsmək üçün sözünə davam etdi:

– Çoban qardaş, bir padşah ordusu ilə gəzməyə çıxıb. O, hər kimi görürsə varını-yoxunu talan edib özünü də öldürür.

Çoban tülküdən bu pis xəbəri eşidən kimi

qorxuya düşdü. Özünü bu bəladan qurtarmaq üçün tülküdən kömək istədi.

– Sən özünü və sürünü şahın talanından qurtarmaq üçün mənim məsləhətimi yadında saxla. – bunu deyib tülkü çobana məsləhət verməyə başladı:

– Padşah ordusunun qabağında gəlir. O, bura çatan kimi sürüyə baxıb səndən soruşacaq, deyəcək ki, ay çoban, bu otardığın sürü kimindi? Onda sən cavab verərsən ki, bu qoyun sürüsü Armudan bəyindi. Şah Armudan bəyin adını eşitcək, sənə və sənin sürünə dəyməyəcək. O vaxt sənin canın və sürün bu bəladan qurtaracaq.

Tülkü bunu deyib Armudan bəylə yollarına davam etdilər. Az getdilər, üz getdilər gəlib bir ilxıya çatdılar. İlxıçı Armudan bəylə tülkünü görən kimi durub onların yanına gəldi. Ədəblə salam verib soruşdu:

– Ay tülkü qardaş, deyin görək haradan gəlib, haraya gedirsiniz?

Tülkü cavab verdi:

– Biz varlı bir padşah qızı axtarırıq ki, onunla qohum olaq.

İlxıçı varlı adını eşidən kimi bir ah çəkdi. Tülkü ilxıçının ahını eşidən kimi dedi:

– Qardaş, sən niyə belə ah çəkdin?

İlxıçı ona cavab verdi:

– Mən də sizin etdiyiniz arzu ilə yaşayıram. Amma heç bir arzuma çata bilmirəm.

Tülkü ilxıçının sözünü kəsib dedi:

– İlxıçı qardaş, heç bilirsən nələr olacaq?

İlxıçı bu sözə hövləng cavab verdi:

– Tülkü qardaş, nə olacaq?

– Qulaq as, mən deyim nələr olacaq. İlxıçı qardaş, bir padşah öz ordusu ilə gəzməyə çıxıb. Qabağına kim çıxır, varını-yoxunu əlindən alır, özünü də öldürür.

İlxıçı bu bəd xəbəri eşitcək heç bilmədi nə eləsin. O saat tülküyə yalvarmağa başladı:

- Başına dönüm, a tülkü qardaş. Sən bu bəladan məni qurtar. Nə istəsən sənə verərəm.

Tülkünün ilxıçıya yazığı gəlib, ona bu zülmkar padşahın əlindən qurtarması üçün məsləhət verməyə başladı:

– İlxıçı qardaş, padşah öz ordusu ilə sizin yanınıza çatan kimi səni çağırıb soruşacaq, deyəcək ki, çoban, bu ilxı kimindi? Sən onda cavab verərsən ki, bu gördüyün ilxı Armudan bəyin ilxısıdı. O, Armudan bəyin adını eşidəndə sənə dəyməyəcək. Onda sənin canın bu bəladan qurtaracaq.

İlxıçı tülküdən çox razı qaldı. Tülkü ilə Armudan bəy öz yollarına davam etdilər. Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər. Gəlib çayın kənarında mal-qara sürüsünə rast gəldilər. Mal-qaranı otaran naxırçı bunları görən kimi onların yanına gəldi, salam verib soruşdu:

– Ay qərib qardaşlar, deyin görək haradan gəlib, haraya gedirsiniz?

Tülkü cavab verdi:

– Biz filan şəhərə getmək istəyirik. Naxırçı qardaş, de görək, o şəhərə yol uzaqdı, ya yaxın?

Naxırçı ağzını açmaq istəyirdi ki, tülkü onun

sözünü yarımçıq qoydu:

– Naxırçı qardaş, heç bilirsən bir-iki günə kimi nələr olacaq?

Naxırçı tülkünün bu sualından qorxub tülküyə yalvarmağa başladı:

– Sən Allah, tülkü qardaş, de görək nələr olacaq. Mən bilməsəm səhərə qədər bağrım çatlayar.

Tülkü naxırçını daha da qorxuzmaq üçün dedi:

– Yox, mən əhvalatı heç kimə deyə bilmərəm. Padşah eşitsə məni tikə-tikə doğrayar.

Naxırçı dilini işə salıb yalvarmağa başladı:

– Tülkü qardaş, sənə nə istəsən verərəm, məni çevir balalarının başına. Bu bəladan qurtarmaq üçün əlac eylə.

Tülkünün naxırçıya "yazığı" gəldi, ona bu bəladan qurtarmaq üçün məsləhət verməyə başladı:

– Naxırçı qardaş, bir padşah öz ordusu ilə gəzməyə çıxıb. Kimi görür, varını-yoxunu talan edib, özünü də öldürür. Öldürməyilə də kifayətlənməyib ölüsünü də yandırır.

Naxırçı bu uğursuz xəbəri eşitcək ağlı başından çıxdı. Tülkü sözünə davam elədi:

– Naxırçı qardaş, sən bu bəladan qurtarmaq üçün mən dediyim sözləri yadında saxla. Padşah sənin yanına çatan kimi səndən soruşacaq: Bu otardığın mal-qara kimindi? Cavab verərsən ki, padşah sağ olsun, bu otardığım mal-qara Armudan bəyindi. O, Armudan bəyin adını eşitcək sənə dəyməyəcək. Ordusunun geri dönməyinə əmr verəcək. Beləliklə, sən də bu

zülmkar padşahın nahaqq bəlasından canını qurtaracaqsan.

Naxırçı tülküdən çox razı qaldı və qayıdıb öz naxırının yanına getdi. Armudan bəy ilə tülkü yollarına davam etdilər. Az getdilər, üz getdilər, gəlib bir şəhərə çatdılar.

Axşamı şəhərdə bir kasıba qonaq oldular. Tülkü şəhərin vəziyyəti ilə tanış olmaq üçün söhbət saldı. Demə, ev yiyəsi padşah sarayının qapıçısıymış. Tülkü bu əhvalatdan daha da şad oldu. Sonra qapıçı padşahın dünyada gözəlliyi ilə şöhrət qazanmış qızı haqda qonaqlarına danışdı. Hətta neçə padşah elçilərinin gəlib boş qayıtmasını da bunlara danışdı.

Tülkü sonra qapıçıdan padşahla görüşməyin təhrini də öyrəndi. Tülkü ilə Armudan bəy başlarını atıb o gecə qapıçının komasında yatdılar. Sübh tezdən tülkü Armudan bəyi yuxudan oyatdı. Qapıçının axşamdan verdiyi məsləhəti və göstərdiyi yollarla gəlib padşahın qapısındakı elçi daşının üstündə oturdular. Gözətçilər padşaha xəbər apardılar ki, elçi daşının üstündə iki nəfər oturub. Padşah əmr elədi:

– Bu saat o adamları gətirin bura.

Gözətçilər gedib tülkü ilə Armudan bəyi padşahın yanına gətirdilər. Tülkü padşahın yanına çatan kimi baş əyib salam verdi. Padşah bunların nəyə gəldiklərini soruşdu. Tülkü sözə başladı:

– Padşah sağ olsun, mən gəlmişəm, sənin qızını bu oğlana alam. Bu oğlan varlıdı, özü də çox varlıdır. Öz şəhərlərindən kimin qızını deyirik, bəyənib almır.

Padşah bir az fikrə gedib, sonra vəzir, vəkillərini yanına çağırdı:

- Vəzir, tədbir gör, bu varı ilə şöhrət qazanmış oğlan mənim qızıma elçi gəlib, de görək nə deyirsən.

Vəzir bir az fikrə gedib sonra üzünü padşaha tərəf tutdu:

– Padşah sağ olsun, sizin öz fikriniz necədir?

Padşah cavab verdi:

– Necə olacaq? Bu oğlanın malı, varı el-aləmə bəllidi, sizin ağıllı tədbirinizi gözləyirəm.

Vəzir bir az fikirləşdikdən sonra dedi:

– Padşah sağ olsun, mən belə bir tədbir görürəm ki, biz əvvəlcə gedib Armudan bəyin var-dövləti ilə tanış olaq. Sonra gəlib qızı ona verməyimiz haqda rəyimizi bildirək.

Padşah vəzirin bu ağıllı tədbirini bəyənib, "afərin" dedi.

Padşah o saat qulluqçulara xörək bişirməyi, çay qoymağı əmr etdi. Padşah qonaqlarının hesabına saray əyanlarını yığıb qonaqlıq verdi.

Bütün saray adamları, Armudan bəy və tülkü həmin məclisdə oturmuşdular.

Padşah xörəkdən əvvəl hərəyə bir çay verilməsini tapşırdı. Armudan bəy isə çayın nə olduğunu bilmirdi, bişirilmiş xörəklərin adlarını belə eşitməmişdi. Padşahın tapşırığına görə birinci çayı Armudan bəyə verdilər. Armudan bəy çayı tez götürüb içmək istəyən vaxt ağzı yandı, ondan möhkəm bir qışqırtı qopdu. Saray adamları bu cür varlı adamın görməmişliyinə gülüşdülər. Məclisdə olan adamlar arasında

pıçhapıç düşdü. Tülkü bu pıçhapıçı yatırmaq üçün tez vəzirin yanına çəkilib ona dedi:

– Vəzir, Armudan bəyə evlərində heç vaxt belə çay, belə xörək gətirmirlər. Çayı və xörəyi ayrı otaqda soyudub verirlər.

Vəzir əyanlara bu əhvalatı bildirən kimi hamı səsini kəsdi. Armudan bəyin bu cür ərköyün böyüməsinə hamı məəttəl qaldı. Padşah əhvalatı bilən kimi tez Armudan bəyi ayrı otaqda yedirib-içirtməyi tapşırdı. Qulluqçular o saat Armudan bəyi ayrı bir otağa apardılar. Orada tülkünün dediyi kimi yedirib, içirdilər.

Məclis dağıldı. Armudan bəy ilə tülkünün yerini bir otaqda saldılar. Padşah vəzir, vəkillərinə səhər tezdən hazırlaşmaq üçün axşamdan xəbər verdi. Sonra öz otağına yatmağa getdi. Axşamı rahat yatıb sübhü tezdən ayıldılar. Padşahın sarayında səhər yeməyini yedilər. Bu zaman qulluqçulardan biri içəri daxil olub dedi:

– Padşah sağ olsun, əmrinizə görə hər bir şey hazırdı.

Padşah vəziri çağırıb beş-on mindən ibarət atlı götürməyi də əmr etdi.

Vəzir o saat sərkərdəni çağırıb ordu və atların hazır olmasını əmr etdi. Sərkərdə həmin saat əmri yerinə yetirdi. Padşahın tapşırığı ilə bir at tülküyə, bir at da Armudan bəyə gətirdilər. Hamı atlanıb Armudan bəyin şəhərinə tərəf getməyə başladı. Tülkü atını sürüb padşaha yaxınlaşdı və dedi:

– Padşah sağ olsun, əgər razısınızsa, atlar yorulmasın deyə mən sizi kəsə yolla apararam.

Padşah bu fikrə razı oldu. Tülkü kəsə yolu

bildiyi üçün onun qabağa keçməsinə icazə verdi. Tülkü padşahı və onun on min atlı ordusunu gəldiyi yolla aparmağa başladı.

Bir neçə saat getmişdilər ki, böyük bir çayın kənarında çoxlu mal-qaraya rast gəldilər. Padşah o saat mal-qaranı otaran naxırçını yanına çağırtdırdı. Naxırçı bu zaman ağacın altında yatmışdı. Gözünü açan kimi saysız-hesabsız ordunu gördü. Yadına düşdü ki, tülkü ona söylədiyi zalım padşah budur. Qorxusundan nə edəcəyini bilmirdi. Bu zaman padşahın göndərdiyi adam naxırçını onun yanına apardı. Padşah naxırçıdan soruşdu:

– De görüm, bu qədər mal-qara kimindi?

Naxırçı tülkünü və Armudan bəyi görcək ona verilən məsləhətlər yadına düşdü.

Padşaha cavab verdi:

– Padşah sağ olsun, gördüyün bu çoxlu mal-qara Armudan bəyindi.

Padşah Armudan bəyin adını eşitcək, fikirləşdi. "Deyəsən Armudan bəyin varlı olması düzdür". Onlar yollarına davam etdilər. Az getdilər, çox getdilər, gəlib bir təpəlikdə böyük bir at ilxısına rast gəldilər. İlxıçı daşın üstündə oturub çarığını yamayırdı. Səs eşitdi, başını qaldırıb gördü ki, bir padşah böyük ordu ilə ilxıdan yüz metrlik məsafədə dayanıb. İlxıçı o saat başa düşdü ki, bu padşah və ordu tülkünün dediyidir. İlxıçı elə qorxdu ki, nə edəcəyini bilmədi. Padşah bir adam göndərib ilxıçını yanına çağırtdırdı. İlxıçı padşahın yanına gəlib salam verdi, baş əydi. Padşah ordusunun içində tülkünü görən kimi onun

verdiyi məsləhət yadına düşdü.

Padşah soruşdu:

- De, görüm, otardığın ilxı kimindi?

İlxıçı cavab verdi:

– Bu gördüyün saysız-hesabsız at Armudan bəyindir.

Padşah, vəzir və vəkilləri Armudan bəyin adını eşitcək çox təəccübləndilər. Armudan bəyin doğurdan da varlı olmasına inandılar.

Padşah vəzirlərinə üz tutub dedi:

– Biz Armudan bəyin varının doğru olduğunu gördük. Daha bizim onun yaşadığı şəhərə getməyimizin elə bir mənası yoxdu. Gəlin buradan qayıdaq.

Vəzir bir az fikirləşdikdən sonra dedi:

– Padşah sağ olsun. Məsləhət sizindi, amma gedib Armudan bəyin şəhəri, evi, eşiyi və ata-anası ilə də tanış olsaq pis olmaz.

Padşah vəzirin tədbirinə razı oldu.

Yollarına davam etməyə başladılar. Az getdilər, düz getdilər, qabaqlarına bir böyük çəmənlik çıxdı. Çəmənlikdə bir böyük sürü qoyun otlayırdı. Çoban sürünün o biri başında bir qab südə çörək doğrayıb ləzzətlə yeyirdi. Birdən başını qaldırıb gördü ki, sürüdən əlli metr uzaqda padşah öz ordusu ilə dayanıb. O saat tülkünün dediyi sözlər yadına düşdü. Qorxusundan özünü itirdi, dili tutuldu. Padşah bir nəfər göndərib onu yanına çağırtdırdı. Çoban padşahın yanına çatan kimi baş əyib salam verdi. Başını qaldıran kimi tülkünü ordunun içində gördü. Tülkünün çobana verdiyi məsləhətlər yadına düşdü.

Padşah çobandan soruşdu:

- De görək, bu qoyun sürüsü kimindi?

Çoban o saat cavab verdi:

– Padşah sağ olsun, bu gördüyün sürü Armudan bəyindi.

Padşah, vəzir və vəkillər bu dəfə də Armudan bəyin adını eşidən kimi şəkki-şübhədən çıxdılar. Çəmənlikdən bir neçə verstlik məsafədə şəhər görünürdü. Padşah şəhərin kimin və hansı padşahın olmasını çobandan soruşdu. Çoban dərhal cavab verdi:

– O gördüyün şəhər Armudan bəyin atasının şəhəridi.

Padşah, vəzir və vəkillər belə qərara gəldilər ki, daha şəhərə getməyə lüzum yoxdu. Buradan qayıtmağımız məsləhətdir. Armudan bəy isə ata-anasını bizə elçi göndərsin. Padşah bunu deyib ordusu ilə geri döndü. Armudan bəy ilə tülkü də ordunun dalına düşüb bir baş padşahın sarayına gəldilər. Padşah sarayın həyətində atdan düşərkən Armudan bəylə tülkünü sarayın həyətində görüb təəccübləndi:

– Siz nə əcəb bizimlə qayıtdınız?

Tülkü dedi:

– Padşah sağ olsun, Armudan bəyin ata-anası bu uzaq yolda əziyyət çəkərlər deyə, biz özümüz gəldik. Qızı verin özümüz aparaq.

Padşah bir az fikirləşdikdən sonra Armudan bəyin varını yadına salıb dedi:

– Yaxşı, indi ki belə oldu, keçin otağa, sabah hazırlıq görüb ta biri gün qızı da verərəm, gedərsiniz.

Tülkü və Armudan bəy keçib otaqda

rahatlanmaqda olsunlar, sizə xəbər verim padşahdan. Padşah bütün yaxın adamlarını yığıb qızı yola salmaq üçün hazırlıq görürdülər. İki gün idi ki, padşahın belə bir “varlı” adamla qohum olduğu üçün çiçəyi çırtlamışdı. Fikri-zikri Armudan bəyin varının yanında qalmışdı. Heç bilmirdi ki, sevindiyindən qızını necə yola salsın. Bütün saray adamları padşahın bu tutduğu işə mat-məəttəl qalmışdılar. Padşahın sarayında qıza qoşulan cehiz hazır oldu. Mehtər tövlədən atları çıxarıb gətirdi. Armudan bəyi və tülkünü də çağırdılar. Padşah qızının cehiz-lərini və bir qədər də qızıl verdi. Yüklər atlara, dəvələrə yükləndi, Armudan bəyin şəhərinə yola düşdü. Az getdilər, düz getdilər, gəlib çatdılar Armudan bəyin yaşadığı komaya. Qızı atdan endirdilər, onun cehizini rahatladılar. Bir az dincələndən sonra Armudan bəy meşəyə çıxdı. Bir az meyvə yığıb nişanlısının yanına qayıtdı. Bir neçə gün burada yaşadıqdan sonra Armudan bəyin nişanlısı Gülpəri xanım ərindən soruşdu:

– Ay Armudan bəy, biz nə vaxt şəhərə – evimizə gedəcəyik.

Tülkü bunu eşitcək cavab verdi:

– Gülpəri xanım, düzünə baxsan, Armudan bəy bir yetim oğlandı, özünün də şəhərdə heç kimi yoxdu. Biz burada indiyə kimi yaşamışıq, indi də yaşayacağıq. Əgər xoşun çəkirsə nişanlınla burada yaşa. Yox, əgər istəmirsənsə özün bil.

Gülpəri xanım bir az fikir etdikdən sonra dedi:

– Armudan bəy, siz mənim atamı aldadıb məni almısınız. İndi bir yerdə yaşamalıyıq.

Bir dəfə Gülpəri xanım Armudan bəyə dedi:

– Armudan bəy, biz özümüz üçün çalışıb elə bir ev tikməliyik ki, mənim adıma layiq olsun. Atamla qohumlarım bizə gələndə mən xəcalət çəkməyim.

Armudan bəy bu tədbiri bəyəndi. O gündən padşahın verdiyi qızıllardan xərcləyib yaraşıqlı bir saray tikdirdi. İçini xalça-palaznan döşədi. Yenə də Armudan bəy, arvadı və tülkü bir yerdə yaşamağa başladılar. Ov üçün gündə biri meşəyə çıxırdı. Bir gün tülkü öz-özünə fikirləşdi:

– Mən hiylə işlədəcəyəm. Görüm, Armudan bəyə etdiyim yaxşılığa qarşı mənlə necə rəftar edəcək?

Səhəri günü ov etmək növbəsi tülküyə çatdı. Tülkü ər-arvadın sübh-tezdən ayıldığını görüb dedi:

– Ay Armudan bəy, mən yaman azarlamışam, мeşəyə gedə bilməyəcəyəm.

Armudan bəy tülküdən bu sözü eşitcək arvadına tapşırdı ki, onun üstünə qalın yorğan salsın. Özü isə meşəyə getdi. Beş gün, on gün belə keçdi. Tülkü daha da pis vəziyyətdə olduğunu bildirdi. O gündən başlayaraq axşamlar öskürür, sızıldayır, ufuldayırdı. Tülkü get-gedə dala gedirdi. Bir gün Armudan bəy ovdan qayıdanda tülkünün çarpayısını qapının ağzında gördü. Tez arvadını çağırıb soruşdu:

– Gülpəri xanım, bu nə işdi, tülkünün çarpayısı niyə buradadır?

Gülpəri xanım dedi:

– Ay Armudan bəy, axşamlar o qədər öskürür, sızıldayır ki, yatmaq olmur. Ona görə çarpayısını götürüb bura qoydum.

Armudan bəy bir az fikrə gedir, sonra deyir:

– Heç eybi yoxdu, yaxşı eləmisən.

Tülkü özünü bicliyə qoymuşdu. Armudan bəyin bu sözünü eşidən kimi öz-özünə dedi:

– Aha, deyəsən, xoruzun quyruğu görünür.

Tülkü o günü onları daha çox narahat etdi. Özünü lap ölmək vəziyyətinə saldı. Gülpəri xanım tülkünü bu vəziyyətdə görüb onu aparıb bir xarabaya atmağı məsləhət gördü. Armudan bəy belə də etdi. Tülkü yerindən qalxıb meşəyə tərəf yollandı. Yol gedə-gedə fikirləşidi: "Bu da mənim yaxşılığımın haqqı".

Tülkü meşədə gəzib ov axtarırdı. Birdən böyük bir divə rast gəldi. O, divə yaxınlaşıb dedi:

– Div qardaş, niyə bu qaranlıq meşədə tək gəzirsən? Gəl gedək meşəyə, meşənin o tərəfində bir yaxşı saray var, orada yaşayan bəni-insan çox qorxaqdı. Sən bir dəfə nərə çəksən o çıxıb qaçacaq. Onda biz girib orada yaşayarıq.

Tülkü Armudan bəyin çox qorxaq olduğunu əvvəldən bilirdi.

Div bir az fikirləşdi. Tülkünün hiyləgər olmasını yadına saldı.

– Yaxşı, onda gərək kəmərlə səni boynuma bağlayam.

Div tülkünü boynuna bağlayıb başladı getməyə. Div uzaqdan bir nərə çəkdi. Armudan bəylə Gülpəri xanım bu nərəni eşidib çox

qorxdular. Ancaq meşədən çıxıb qaçmadılar. Div saraya çatmağa bir az qalmış bir nərə də çəkdi. Armudan bəy qaçmağa hazırlaşırdı ki, Gülpəri xanım dedi:

– Armudan bəy, qaçma, qapını aç, tülküyə belə de: ay tülkü, sən mənə on iki div borclusan, bir div gətirirsən. Get o birilərini də gətir, sonra gəl.

Div borc adını eşitcək meşəyə tərəf qaçmağa başladı. Yolda tülküyə hirslənib:

– Axmaq, sən məni borc yerinə aparırsan?. – dedi və tülkünü parçalayıb yedi. Div meşəyə tərəf getdi. Armudan bəylə Gülpəri xanım o gündən qayğısız, şad-xürrəm yaşamağa başladılar.

Nağılımız burda bitdi. Göydən üç alma düşdü; biri mənim, biri nağıl danışanın, biri də qulaq asanların.

## *İt qaçdı – mən qaçdım*

Bir padşah yuxusuzluq xəstəliyinə tutulubmuş. Ona görə də başını qatmaq üçün məşğuliyyət axtarır. Cürbəcür məşğuliyyət tapır, ancaq ürəyincə olmur. Ətrafa çaparlar göndərir ki, yaxşı nağıl, əhvalat danışanlar tapın, kim mənim yuxum gələnəcən danışa bilsə, daha doğrusu «bəli» sözüm qurtarana kimi danışıb məni yuxuya versə ənam alacaq.

Nağılı, əhvalatı nə qədər danışmaq olar?! Uzağı axşamdan səhərəcən. Neçə dilli-dilavər adam özünü sınayıb padşaha səhər açılana qədər nağıl danışdı, əhvalat söylədi, padşah rahatca əyləşib onların hər cümləsinə «bəli» söyləyir. Söhbət qurtarır, nağıl bitir, ancaq padşahın «bəli»si qurtarmaq bilmir. Beləliklə, heç kəs ənam ala bilmir, əksinə, padşah onları cəzalandırır.

Çox da yaşlı olmayan əməlvaz bir kişi gedib oturur padşahın elçi daşının üstündə ki, mən hökmdarımıza əhvalat söyləməyə gəlmişəm. Soruşurlar ki, şərti bilirsənmi? Deyir-bəli, bilirəm. Deyirlər yaxşı, axşam hazır gələrsən.

Axşam həmin kişi gəlir padşahın sarayına, onu aparırlar əlahəzrətin hüzuruna. Padşah gəlib oturur xalçanın üstündəki döşəyin üstündə, mütəkkə-balıncda yerini rahatlayır, onun qarşısında quru palazın üstündə bardamaş qurub oturan əməlvaz kişiyə üzünü tutub deyir:

- Hə, başla görək nə danışmaq istəyirsən.

Kişi başlayır:

- Padşah sağ olsun!

- Bəli, - padşah dillənir.

- Ortabab kəndliyəm, bir təhər ailəmi don-

landırıram.
- Bəli.
- Bir gün evə biz az gec gəlmişdim.
- Bəli.
- Səhər evdən çıxanda arvad tapşırdı ki, bir az evə tez gəl, unumuz yoxdur, yarım kisə taxılımız var, apar onu ağnağaz ellət, gətir.
- Bəli.
- Söhbətə başımız o qədər qarışdı ki, arvadın tapşırığı yadımdan çıxdı.
- Bəli.
- Evə gələndə arvad aldı məni, o ki var danladı, haray-həşir saldı ki, uşaq acından ölür, yeməyə yavan çörəyimiz də yoxdur.
- Bəli.
- Suyum süzülə-süzülə düşdüm qonşulara ki, bir uzunqulaq tapım, aparım taxılı tezcə dəyirmanda üyüdüm gətirim.
- Bəli.
- Tərslikdən ulağı olan qonşu özü başqa iş dalınca getmişdi, başqalarında da olmadı.
- Bəli.
- Kor-peşiman qayıtdım evə. Arvadın hirsi hələ də soyumamışdı. Fikirləşdim ki, dəni bu axşam üyütməsəm olmayacaq.
- Bəli.
- Artıq hava qaralmışdı. Fikirləşdim, kisəni itin belinə bağlayım aparım dəyirmana, qaranlıqda kimdi görən.
- Bəli.
- İti zəncirdən açıb gətirdim, yarımçıq kisənin ağzını bağlayıb iki yerə ayırdım, itin belinə aşırıb kəndirlə möhkəm bağladım.
- Bəli.
- İtin kəndirindən tutub yollandım dəyirmana. İnsafən dəyirmançı da tezcə ağnağazımı

üyüdüb verdi. Həminki qayda ilə də un kisəsini itin belinə bağlayıb kəndə yollandım.

- Bəli.

- Kəndin kənarındakı arxın üstündə salınmış körpüyə çatanda artıq ay çıxmışdı, hər tərəf aydın görünürdü.

- Bəli.

- Körpüdən keçəndə gördüm o tərəfdə söyüdün altında beş-altı it yığışıb. İtin qabağına hərləndim ki, kürsəyi görməsin.

- Bəli.

- Sən demə it artıq görübmüş. Mən onun qabağını kəsənəcən it bircə dəfə dartınıb kəndiri əlimdən çıxartdı və götürüldü kürsəyə tərəf.

- Bəli.

- Mən itlərin yanına çatana qədər itimin belində un kisəsindən bircə kəndirin altındakı yeri qalmışdı. Bütün itlər tökülüb mənim itimin üstündəki un kisəsini dağıtmışdılar.

- Bəli.

- Qaldım naçar ki, mən neyləyəcəm? Daha iş işdən keçmişdi. Əlimdəki zopanı qaldırdım ki, bu itə bir ağac ilişdirim, heç olmasa ürəyim soyusun, it zopanı görüb yerindən götürüldü.

- Bəli.

- Düşdüm itin dalınca. İt qaçdı-mən qaçdım, it-qaçdı-mən qaçdım...

Kişi «it qaçdı - mən qaçdım» dedikcə padşah deyir - «Bəli».

O qədər belə davam edir ki, axırda padşah zara gəlib deyir: - Ayə, axmaq oğlu axmaq, səhər açılır, tez ol itini tut.

Kişi deyir: - Yox, padşahım, sənin «bəli»n qurtarmasa mən itimi tutan deyiləm.

# Bazamalar

## *Yola körpü saldım*

Bir gün Şah oğlu Şah Abbas vəziri ilə gəzməyə çıxır. Onlar gəzə-gəzə gəlib Murğuz dağına çıxırlar. Şah dağın başına çatanda qabaqda Alvız dağını görüb deyir:

– Vəzir, sən bilən buradan Alvız dağına neçə günə getmək olar?

Vəzir deyir:

– Şah sağ olsun, buradan o dağa kimi mən körpü salıb səni ora elə apararam ki, heç xəbərin də olmaz.

Şah deyir:

- Vəzir, sən nə danışırsan, buradan ora körpü salmaq olar?

Vəzir deyir:

– Şah sağ olsun, sənin nəyinə lazım, mən körpü salıb səni aparacam.

Nə isə, dağın başından şahla vəzir Alvız dağına yola düşürlər. Gecə gəlib bir obada gecələməli olurlar. Səhər açılır. Onlar yollarına davam edirlər. Vəzir başlayır bir əhvalat danışmağa. Onu başa vurub, yenisini başlayanda şah bir də başını qaldırıb görür ki, Alvız dağındadırlar.

Şah soruşur:

– Vəzir, biz necə gəlib çıxdıq bura, mən heç bilmədim.

Vəzir deyir:

– Şah sağ olsun, mən sənin başını söhbətə elə qatdım ki, heç bilmədin necə gəlib çıxdıq bura. Gördün, yola necə körpü saldım?!

## *Niyə bir qızıl?*

Günlərin birində ölkənin padşahı tərki - libas olub ölkəsini gəzməyə çıxır. Şəhərbəşəhər, kəndbəkənd gəzib dolanır, rəiyyətlərinin halından xəbər tutur. Bir də baxır ki, üz-gözünü tük basıb. Dəlləyin yanına gəlir. Dəllək onun bir nimdaş paltarına baxır, bir arıqlamış tüklü üzünə baxır, "otur" deyib onun üzünü qırxmağa başlayır. Küt ülgüc padşahın üzünə dəydikcə o ufuldayır, üzü ülgücdən kəsik-kəsik olur. Dəllək işini görüb qurtarır. Müştərisi ona on qızıl verir. Dəllək sevinərək qızılı tez cibində gizlədir. Ay dolanır, il gəlir. Padşah yenidən seyrə çıxır, yolu dəlləyin yanından düşür. Fikirləşir ki, elə yaxşı oldu, üzümü də qırxdıraram. Müştərisini tanıyan dəllək tez əl-ayağa düşür, təzə ülgüc çıxardıb onun üzünü qırxır. Üzü rahatlıqla qırxılmış müştəri dəlləyə bu dəfə bir qızıl verir. Dəllək qızıla baxıb təəccüblə soruşur:

- Niyə bir qızıl?

Müştəri ağır-ağır cavab verir:

- A bala, keçən dəfə üzümü qırxanda sən də əziyyət çəkdin, mən də. Ancaq bu dəfə nə sən əziyyət çəkdin, nə mən.

## *Üzüm ağdı*

Ağanın bir çobanı olur. Çoban örüşdə sürüləri otarırmış. Birdən zurna-balaban səsi eşidir. Baxır ki, toydur, gəlin gətirirlər. Əlini qaldırıb toyu saxladır. Çoban onlara deyir:

– Mən sizə bir bağlama deyəcəm. Onu tapsanız bu sürünü sizə verib gedəcəm. Tapmasanız gəlini də, cehizi də özümə götürəcəm.

Toy ağası onun şərtinə razı olur.

Çoban deyir:

– Bay olar, bayquş olar.
Bayquda yatmış olar.
Səksən ayaq, qırx buynuz
Görəsən bu hansı quş olar?

Cavabı heç kəs bilmir. Gəlin çəkinə-çəkinə deyir:

– Olar ki, çobanın cavabını mən verim?

Toy ağası deyir:

– Olar.

– Bay olar, baytan olar,
Bayquda yatan olar.
Səksən ayaq, qırx buynuz,
Bəlkə də bu kotan olar.

Çoban məğlub olduğunu görüb sürünü onlara verdi, geriyə – ağanın evinə dönür.

Ağa çobandan soruşur:

– Çoban, sürünü kimə tapşırıb gəlibsən?

Çoban cavab verir:

– Ağa, bərk acmışam, əvvəlcə yemək versinlər, sonra nə baş verdiyini söyləyim.

Ona bir cam qatıq və çörək verirlər. Çoban çörəyi qatığın içinə doğrayıb yeməyə başlayır.

Ağa dözməyib yenə soruşur ki, qoyunlar necə oldu?

Çoban cavab verir:

– Ağa, mən deyim, sən də qulaq as:
Dünən dolaydan doydaq uçdu,
Səksəni hürküyə düşdü,
On beşi batdağa batdı,
Beşi də yanında yatdı,
Dünən öldü qoç toğlu,
Bu gün öldü beş toğlu,
Sat atını, ver haqqımı.

Ağanın çobana bərk acığı tutur, qatıq dolu camı çobanın başına tökür. Çoban üzünü silir, salavat çevirib deyir:

– Şükür Allaha, ağanın haqq-hesabını düz verdim, indi onun yanında üzüm ağdı.

## *Ay lal gəlin...*

Keçmiş zamanlarda kasıb bir ailənin qızını ərə istəyirlər. Anası qızına öyüd-nəsihət verməyə başlayır: «Bax, qızım, bu daşı götür qoy cibinə, əgər bu daşdan səs çıxsa, sənnən də səs çıxsın. Bu daş nə vaxt dillənsə sən də o vaxt dillənərsən. Ər evində qaynanana, qaynatana, qaynına, baldızına, ərinə cavab qaytarma, onlarla dalaşıb-sözləşmə. Onlarla yaxşı yola getsən səndən yaxşı arvad çıxar, ailən də möhkəm olar.»

Vaxt çatır, vədə yetişir, ata-ana toy edib qızlarını gəlin köçürdürlər. Qız gəlin gedən gündən nə dinir, nə danışır. Heç kim onun səsini eşitmir. Gecələr gəlinlə tək qalanda, onunla söhbət etmək istəyəndə ondan səs çıxmadığını görən ər dilxor olur. Axırda əlacsız qalan oğlanın valideynləri mollanın yanına gedib əhvalatı danışırlar, dərdlərinə çarə tapmaq üçün ona yalvarırlar. Molla deyir: «Siz gedin o gəlinin üstünə bir günü alın, gətirin. Onda hər şey düzələcək.»

Mollanın məsləhətilə bir qız tapıb toy edirlər, gəlini duvaxlı-bəzəkli ata otuzdurub oğlanın evinə gətirirlər. Evdəki gəlin həyətdə ocaq qalayıb süd bişirirmiş. İkinci gəlin həyətə daxil olan zaman süd daşmağa başlayır. Bunu görən ikinci gəlin birinciyə deyir:

- Ay lal gəlin, kar gəlin! Süd ocaqda daşır, gəl düşür!

Bunu eşidən birinci gəlin özünü saxlaya bilməyib dillənir:

- Özü yəhər qaşında,
  Gözü ocaq başında,
  Ay dilli-diləvar gəlin
  Süd daşdı, gəl özün düşür.

Gəlinin səsini eşidən qaynanası ərinə deyir:

- Şükür, ay kişi gəlnimiz lal deyilmiş. Daha bu ikinci gəlin lazım olmadı, onu geri qaytarmaq lazımdır.

İkinci gəlini geri gaytarırlar. O gündən sonra birinci gəlinlə can bir qəlbdə yaşamağa başlayırlar. Bir-birinə can deyib, can eşidirlər.

## *Bağlama*

Bir kişi bütün fəsillərdə torla balıq tuturmuş. Padşah ona yaxınlaşıb salam verir və deyir:

– İl boyu səni burada görürəm. Bu nə sirrdi?

Kişi cavab verir:

– Çörək pulu qazanıram.

Padşah deyir:

– Sənə bir bağlama deyəcəm. Onu tapsan sənin hər kəlmənə bir qızıl verəcəm. De görüm: 3 nədi, 9 nədi, 32 nədi?

Kişi fikirləşib tapır: 3 ay – qışdı. 9 – aydı, həm də 9 ay – 3 fəsildi. 9 ayda qazanılan azuqəni 3 - ayda 32 diş yeyir.

Padşah razı qalıb onun hər kəlməsinə bir qızıl verir. Padşah kişiyə yenə sual verir:

– Qaz versəm yolarsanmı?

Kişi cavab verir:

– Səhərdən sən qazı yoluram. Bəs deyil?

## *Pəltək qızların elçiliyi*

Bir kişinin üç qızı olur. Günlərin bir günü qızlara elçi gəlir. Elçilər keçir evə, otururlar, başlayırlar ordan-burdan söhbət etməyə. Qızların üçü də pəltək olur. Ana onlara bərk-bərk tapşırır: «Bura baxın, qızlar, bəxtiniz açılıb, sizə elçi gəlib. Heç biriniz dinib-danışmazsınız. Qoy elçilər bilməsin ki, siz pəltəksiniz» Ana öyüd-nəsihətini edib elçilərin yanına qayıdır.

Ana südlə dolu qazanı otağın bir küncünə qoyubmuş. Pişik qazana yaxınlaşıb başlayır südü yalamağa.

Böyük qız bərkdən anasını səsləyir: «Ana, ana, pişik südü laladı». Ortancıl qız ona acıqlanıb deyir: «A günü qara, anam sənə hə dedi?» Kiçik qız dözə bilməyib dillənir: «Mən nə dini, nə danışı». Elçilər qızların pəltək olduğunu görüb ayağa dururlar, kor-peşiman çıxıb gedirlər.

## *Elçilik*

Bir kişinin qızına elçi gəlir. Söhbəti açırlar. Qızın atası elçilərə deyir: «Mən nə deyə bilərəm? Mən razı, Allah xeyir versin. Qızım yaxşı olmağına yaxşı qızdır. Ancaq onun gözü kor, qulağı kar, dili lal, əli çolaq, ayağı da topaldır». Bunu eşidən elçilər narazı-narazı başlarını bulayıb ayağa dururlar. Yoldan keçən bir kişi elçiliyin necə keçdiyini soruşur. Elçilər qızın atasının cavabını bu kişiyə danışırlar.

Kişi dünyagörmüş olduğundan barmağını dişləyir və elçilərə deyir: «Siz düzgün başa düşməmisiniz. Qızın atası demək istəyib ki, qızı hər gördüyünü, hər eşitdiyini danışmaz. Əli çolaqdır, yəni, əli təmizdir, əli uzunluq, oğurluq etməyib. Ayağı topaldır, yəni qonum-qonşuya getməz, evdən çölə çıxmayıb, ev qızıdır. Daha bundan yaxşı qız hardan tapacaqsınız?» Elçilər ikiəlli başlarına qapaz vurub peşimançılıqla evlərinə dağılışırlar.

## *Qarının aşiq olması*

Bir qarı cavan, gözəl bir oğlana aşiq olur. Qırsaqqız olub oğlanın yaxasından yapışıb əl çəkmir. Deyir, birəm, birriyim haqqı, məni almasan səndən əl çəkmərəm, araya qan salaram. Əlacsız qalan oğlan qarıya deyir: «Səni almağa razıyam, ancaq bir şərtim var. Gərək səni bu gecə çöldə qarın içinə basıram. Səhərə salamat qalsan toy edib səni alacam. Şərtimə razı olmasan biləcəm ki, məni istəmirsən.» Qarı oğlanın şərtinə razı olur. Oğlan qov kimi yüngül olan qarını belinə alır, aparır qarın içində basırıb qayıdır. Gecənin bir yarısı qarı başlayır soyuqdan titrəməyə. Onun səsini eşidən itlər hürüşürlər.

Qarı üzünü itlərə tutub deyir:

- *Hürüşün, itlər, hürüşün,*
*Toyumda sümük gəmrişin,*
*Bu gecə qar qucaqlaram*
*Sabah gecə yar qucaqlaram.*

Qarı özünə təskinlik verib sakitcə səhərin açılmasını gözləyir. Yağan qar və qışın soyuğu onun əhədini kəsir və qarı cəhənnəmə vasil olur, oğlanın canı qarıdan qurtarır.

Oğlan sevdiyi qızla toy edib evlənir. Onlar xoşbəxt olurlar, siz də xoşbəxt olasınız.

## *Mən də bir kişinin oğluyam...*

Günlərin birində oğul bir kürk alıb gətirir. Evdə kürkü geyinib dədəsinə göstərir və onun fikrini bilmək istəyir. Dədəsi kürkü bəyənməyib oğluna acıqlanır. Ağır sözə dözməyən oğul dədəsinə cavab qaytarır: Niyə üstümə qışqırırsan? Sən də bir kişinin oğlusan, mən də bir kişinin oğluyam.

Günlər keçir, ay dolanır, bu dəfə dədəsi bir şalvar alıb gətirir, geyinir, oğluna göstərir. Oğlu dədəsinin aldığı dar şalvarı görür, bəyənmir. Səsini qaldırır: «Ay dədə, bu nə şalvardır almısan, sənə yaraşan şey deyil.» Dədəsi oğlunun üzünə baxıb deyir: «Sən niyə üstümə qışqırırsan? Sən də bir kişinin oğlusan, mən də bir kişinin oğlu.»

Oğul barmağını dişləyir. Xatırlayır ki, bir dəfə dədəsinin üzünə qayıdıb, səhvini başa düşür və üzr istəyir.

## *Tumarı çatmırmış*

Bir ahıl kişi uzaq səfərə çıxmalı olur. Varıyoxu bir atı varmış. Onu qonşusuna əmanət verib bərk-bərk tapşırır ki, ata yaxşı baxsın, arpasını-buğdasını vaxtlı-vaxtında versin.

Müəyyən vaxt keçəndən sonra kişi qayıdıb gəlir. Görür ki, atı sınıxıb. Qonşuya məzəmmətlə deyir:

– Atıma neyləmisən ki, sınıxıb? Ona yəqin pis baxıbsan.

Qonşu and içib aman edir ki, öz atıma necə qulluq eləmişəmsə, ona da elə qulluq eləmişəm.

Kişi yenidən sual edir:

– Yaxşı yadına sal, yeməkdən başqa öz atına özgə nə etmisən?

Qonşu günahkarcasına deyir:

– Atları yemləyəndə bircə öz atıma sığal çəkmişəm, səninkinə yox.

Kişi deyir:

– Hə, indi başa düşdüm ki, atım niyə sınıxıb. Onun tumarı çatmırmış.

# *Rabli pis*

Kasıb bir qarı olur. O, bazarda şor satmaqla gün-güzəran keçirib kasıbçılığını edirmiş. Günlərin birində qarı tələf olur. Onu basırırlar. O dünyada inkir-minkir gəlib qarını sorğu-suala tutur:

- Rabli pis?

- Qadan alım, şor satırdım.

İnkir-minkir yenə soruşur:

- Rabli pis?

- Ağrın alım, nəlbəkisi bir manataydı.

İnkir-minkir qarıdan yenə soruşur:

- Rabli pis?

Qarı axırda bezir, onlara acıqlı halda cavab verir:

- E..h...h… Elə edin ki, içinizə şor satan bir də gəlsin.

## *Gəlinin cavabı*

Bir gün bir qız gəlin köçür.

Gün keçir, ay dolanır, gəlinin bacılıqları onun görüşünə gəlir və onun gün-güzəranından hal-əhval tuturlar. Bir evdə yaşayan qaynanasının, qaynatasının onunla necə dolandığını soruşurlar. Gəlin köksünü ötürüb belə cavab verir:

- *Qaynanam - dəmir daraq,*
*Dınqıldar ötər, mən neylim.*
*Qaynatam mır-mır köpək,*
*Dombalıb yatar, mən neylim.*
*Baldızım - çuvaldızım,*
*Dəm-dəm batar, mən neylim.*
*Qaynım sərv ağacı,*
*Qapıda bitər, mən neylim.*

Bacılıqları gəlinin bu cavabına gülüşüb süfrə başına əyləşirlər.

## *A küsülü qardaş*

İki küsülü çöldə bir yerdə yer şumlayırmış. Birinin öküzü açılıbmış, ancaq nə qədər eləyirmişsə öküzü qoşa bilmirmiş. Fikirləşir ki, necə eləsin öküzü qoşsun. Axırda küsülü yoldaşına deyir:

– A küsülü qardaş, gəl öküzü qoşaq, sonra küsümüz öz yerində.

## *Dilinə yiyəlik eləsən*

Dünyagörmüş bir kişi on-on beş adamla təpənin başına çıxır. Bir atlı gəlib onların yanından keçəndə əli ilə başını göstərib əlini yelləyir. Kişi də əli ilə dilini göstərir. Yanındakılar kişiyə deyirlər::

- A kişi, gördünmü, o sənə dedi başın yoxdu.

Kişi deyir:

- Sizin başınız yoxdu. O, mənə dedi ki, mən nə edim başım salamat olsun. Mən də dedim ki, dilinə yiyəlik eləsən, başın salamat olar.

## *Arvad kişini necə dəli etdi*

Keçmiş zamanlarda bir ər-arvad varmış, pis-yaxşı dolanırmış. Günlərin bir günü arvadla kişinin sözü çəp düşür. Arvad deyir ki, arvad nə istəsə kişiyə edə bilər, kişi də deyir heç nə edə bilməz. Arvad öz-özünə deyir: "Sən dayan, gör mən sənin başına nə oyun açıram". Kişi tezdən durub əkin sahəsinə gedir. Arvad bir balıq alır, onu gizlincə aparıb əkin sahəsinə atır. Kişi birdən balığı görür, götürüb evə gətirir. Deyir, arvad, əkindən balıq tapmışam. Arvad cavab verir: "A kişi, dəli olubsan nədir, torpaqda da balıqmı yaşayar, yalan danışma, yoxsa hamı səni dəli hesab edər."

Kişi dediyinin üstündə durur. Arvad həyətə çıxıb hay salır: "Ay camaat, kişi dəli olub, deyir ki, əkində balıq əmələ gəlib". Camaat kişiyə birtəhər baxır. Uşaqlar kişini görəndə "dəli kişi, dəli kişi" deyə onun dalınca düşürlər. Hamı ona dəli kimi baxmağa başlayır.

Arvad kişiyə deyir: "Bax, ay kişi, indi gördünmü, arvad istəsə kişini "dəli"də edə bilər."

## *Tənbəl kişi*

Tənbəl bir kişi evdən bayıra çıxmırmış. Elə evdəcə yeyib-yatırdı. Arvad evdə kişinin qarasınca hey deyinirdi. Bir gün onu zorla evdən bayıra çıxardır ki, get bir az gəz, dolan, pul qazan. Kişi güclə də olsa yola sarı gedir. Bir az getmiş Alı bulağı deyilən yerə çatır. Görür ki, bir şey qaralır. Tənbəlliyindən kisəni ayağı ilə itələyir, ayağına ağır bir şeyin dəydiyini hiss edir. Əyilib götürəndə baxır ki, içi pulla dolu balaca bir kisədi. Evə qayıdır, deyinən arvadına kisəni uzadıb deyir:

– Allah adamın ruzusunu yetirəndə durduğu yerdə də yetirir.

## *Mollaxanada*

Uşaqlar mollaxanada dərs keçir. Günorta olduğundan acırlar, yemək istəyirlər. Bilmirlər nə bəhanə gətirsinlər, evə necə getsinlər. Uşaqların içində biri dilli-dilavər imiş. Odur ki, üzünü mollaya tutub deyir:

- Əlif-əppək, pe-pendir, se-soğan, cim-cacıq, molla əmi, biz acıq.

Molla gülümsünüb deyir:

- A bala, durun gedək, elə biz də acıq.

Uşaqlar söynüşərək evlərinə gedirlər.

## *"Ağır olan" arvad*

Bir kişi olur, onun da ağıldan yüngül bir arvadı. Kişi gündüzlər mal otarmağa gedir, axşamlar evinə qayıdırdı. Günlərin birində kişi mal otararkən bir xarabalıqdan içi qızılla dolu küp tapır. Evə gətirib güzlədir, arvadına da bərk-bərk tapşırır ki, küp tapdıqlarını heç kimə deməsin. Ağır oturub batman gəlsin.

Səhər açılır, kişi durub mal otarmağa gedir. Qapıdan çıxhaçıxda arvadına bir də tapşırır: «Bax, ağır ol ha, yüngüllük etmə»

Əri mal otarmaqda olsun, sizə kimdən deyim, kimdən danışım, kişinin yelbeyin arvadından. Arvad dədəsi evinə getmək istəyir. Tez durub axşama aş bişirib dəmə qoyur. Yadına düşür ki, əri dönə-dönə tapşırıb: ağır ol. Onu fikir götürür, öz-özünə deyir: «Mən bu evdən özümlə nə götürüm ki, ağır olum?» Az fikirləşir, çox fikirləşir, axırda damın qapısını dabanadan çıxardaraq belinə şələləyir və dədəsi evinə yol alır. Yolda bir atlı ilə rastlaşır. Atlıdan soruşur: «Atlı qardaş, olmaya bizə gedirsən? Birdən evə girərsən, evin qapısı budu ha, belimdədi. Aşı dəmləmişəm, bükmüşəm palaza. Kişi də qızıl dolu bir küp tapıb gətirib, onu da gizlətmişik taxtın altında. Birdən götürüb eləyərsən, ha, bax, elə iş tutma». Atlı ağıldan yüngül arvadın sözlərini dinləyib öz-özünə deyir: «Bu arvadın özü deyir ki, get bizə, aşı ye, küpü də götür.» Kişi evə gedir, aşı yeyir, qazanı ağzıüstə çöndərir. Küpü də götürüb qoltuğunda gizlədir, «Ya Allah» deyib yoluna

davam edir.

Axşam maldan qayıdan kişi gəlib görür ki, qapı açıq, qazan boş, küp də yerində yoxdur. Arvadına ismarıc göndərib deyir: Dədən evindən qayıtsan, səni tikə-tikə edəcəyəm, daha sən adda mənim arvadım yoxdur.

Günlər keçir, ay dolanır. Naxırçı görür ki, arvadsız çətindir, onun dalınca minnətçi göndərir. Kəndin darğasını göndərir, arvad gəlmir, koxasını göndərir, arvad gəlmir. Əlacsız qalıb özü-özünə yemək-içmək duzəldir, bir təhər başını girrəyir.

Bir gün arvadı dədəsinin həyətində oturubmuş. Baxır ki, doqqazdan bir yüklü dəvə alaqapıya yaxınlaşdı və həyətə girdi. Baxır ki, dəvənin yükü qızıl-gümüş dolu çuvaldır. Arvad dəvənin noxtasından tutub əri evinə gəlir. Əri onu görüb soruşur: İndiyə qədər niyə gəlmirdin? Nə qədər adamı minnətçi göndərmişəm? İndi bir dəvənin noxtasını tutub gəlmisən?» Arvad cavab verir: «Ay kişi, mənim yanıma xahişə elə-belə dəvə gəlməyib. Bu dəvə qatardan qırılıb, özü də qiymətli yükü olan dəvədir. Bunun adına sallaq dodaq deyərlər. Bu sallaq dodaq dalımca minnətə gəlməsəydi mən də bu evə qayıtmazdım!»

Hə, əziz balalarım, ona görə dədələr deyir ki, Allah hamının ruzusunu özü verir.

## *Eyham*

Bir kişinin evinə bir qonaq gəlir. Qonaq bir gün qalır, iki gün, on gün qalır . Ev yiyəsi görür ki, qonağın çıxıb getmək fikri yoxdur. Odur ki, evdəki pişiyi qucağına götürüb başını sığal-laya-sığallaya deyir:

- Pişiyim, pişiyim, sərvəsər,
Eşiyə çıxma yel əsər.
Bu gün bizdə qonaqsan
Sabah olarsan sərvəsər.

Qonaq ev yiyəsinin eyhamını başa düşür, şələ-şüləsini yığır, ev sahibilə sağollaşıb çıxıb gedir.

## *Mən heç danaya da dönmədim*

Bir evə bir qonaq gəlir. Ev sahibinin arvadı qonaq üçün aş bişiririr. Qonaq ev sahibiynən girişir yeməyə. Bir az yeyəndən sonra ev sahibi əlini süfrədən çəkib deyir:

- Yeməkdən lap öküzə döndüm, daha yemək istəmirəm.

Belə deməknən ev yiyəsi istəyirdi ki, qonaq da əlini çəksin, yemək özlərinə qalsın. Ancaq qonaq daha da iştahla yeyib deyir:

- Mən heç danaya da dönməmişəm.

Ev yiyəsi görür ki, bir azdan aşdan əsər-əlamət qalmayacaq, yenidən yeməyə başlayıb deyir:

- Sən elə yedin ki, mən təzədən iştaha gəldim.

# *Xaşıl qonaqlığı*

İki qonşu olur. Qonşunun birinin bişirdiyi xaşılın iyisi, ətri qonşu həyətə yayılır. O biri qonşunun könlündən xaşıl yemək keçir. Fikirləşir: «Nə fənd işlədim ki, xaşıldan doyunca yeyim». Axırda tapır, arvadına deyir: “Sən qaç qonşuya, mən də dalınca, guya ki, dalaşırıq, səni döymək istəyirəm.” Arvad qaçır, kişi də söyə-söyə arvadın dalınca. Gəlib içəri keçirlər. Qonşu kişi onların arasına keçib deyir: «Ay qonşu, nə yaxşı oldu, gəldiniz. Dalaşmağı sonraya saxlayın, arvad yaxşı xaşıl bişirib, oturun, nuş eləyək». Hamısı yerdən bardaş qurub otururlar. Ev sahibinin arvadı xaşılı gətirib ortaya qoyur.

Qonşu yenə də fənd işlədir. Xaşılın yağını özünə tərəf çəkmək istəyir. «Arvad mənə bax bir belə dağ çəkib, bir də belə» deyərək barmağı ilə qabdakı xaşılı dörd yerə bölür.

## *Nərdivan*

İki yoldaş körpüdə üz-üzə gəlir. Biri meşəyə tərəf gedirdi, o biri meşədən qayıdırdı. Meşəyə gedən meşədən qayıdandan hal-əhval tutub soruşur:

- Ay qardaş, nə var, nə yox, meşədə nə gördün, nə eşitdin?

- Sağlığın, meşədə gördüyüm isə budur: Allah-təala ağaclardan hündür bir nərdivan düzəldib. Kimini qaldırır, kimini endirir.

Yoldaşların ikisi də dərin fikrə gedir, «dünyanın gərdişi belədir» deyib ayrılırlar.

## *Öyrəncəkli inək*

Qıraq Kəsəməndən kasıb bir kişi inəyini satmaq üçün Poylu bazarına gətirərmiş. Hər dəfə də dediyi qiymətə sata bilməyib, kor-peşiman evinə dönərmiş.

Günlər bu münvalla keçir. Bir gün kişi yuxudan duranda inəyi yerində görmür. Ora inək, bura inək, inək tapılmır ki, tapılmır. Kişi hətta kənd sovetinə də şikayət edir ki, inəyimi oğurlayıblar.

Gün günortanı keçəndə kişi bir də görür ki, budu ha, inək yavaş-yavaş öz damına tərəf gəlir. Sən demə inək öyrəncəkli olubmuş. Hər bazar günü yarmarkaya getdiyindən bu bazar da ora gedir, günortaya qədər orada durur və yenidən evə qayıdır.

## *İnsanlar necə cürdür?*

Bir kişinin üç qızı olur. Onları böyüdüb bir-bir ərə verir. Günlərin birində arvadına deyir: «Arvad, bir gedim görüm, qızların vəziyyəti necədir, necə dolanırlar, necə yaşayırlar?»

Kişi atına minib birinci böyük qızının evinə gedir. Həyətə girir, kürəkəni tez gəlib qaynatasının atının üzəngisindən tutur, kişi atdan düşüb evə keçir. Kürəkən atı həyətdəki tut ağacına bağlayır. Kişi evdəkilərlə görüşəndən sonra süfrəyə otururlar. Qaynata gəlinə nə deyirsə, nəyə buyurursa gəlin yerindən tərpənmir, özünü eşitməməzliyə qoyur. Hər şeyi qaynanası edir.

Ata durub ikinci qızının evinə gedir. Yenə də kişini xətir-hörmətlə qarşılayıb evə dəvət edirlər. Evdəkilər kişinin qızını-evin gəlnini buyurub çağırdıqca gəlin qaş-qabağını tökür, dodaqaltı deyinir, qaynatasının-qaynanasının üzünə qayıdır, onlara çəmkirir. Ata durub kor-peşiman üçüncü qızının evinə gedir. Kefi pozulmuş onlarla görüşür və dərin fikrə gedir. Qızının qaynatası mehribanlıqla gəlnini buyurub-çağırır. Gəlin dinməz-söyləməz, gülərüzlə şirin-şirin qulluq edir. Qaynata gəlninə deyir ki, get zirzəmiyə, orada qarpız var, onu götür gəl. Gəlin dinməz-söyləməz zirzəmiyə, qarpız gətirməyə gedir. Qarpızı gətirəndə qaynata deyir: «O qarpızı demirdim, get o biri qarpızı gətir». Gəlin gedib yenə həmin qarpızı gətirir. Çünki zirzəmidə cəmisi bir qarpız var idi. Bu minvalla gəlin üç dəfə zirzəmiyə enib qalxır.

Axırıncı dəfə qaynata deyir ki, hə, bax, mən o qarpızı deyirdim.

Kişi qayıdıb evinə gəlir. Arvadı tez kişini sorğu-suala tutur: «Ay kişi, qızlarımızın vəziyyəti nəcədir, necə dolanırlar?» Kişi arvadını yanında oturdub söhbətə başlayır:

- Arvad, insan üç cür olurmuş - eşşəkdən əmələ gələn, itdən əmələ gələn, insandan əmələ gələn. Böyük qızın eşşəkdən əmələ gəlib, nə dedilərsə qabırğasının qalın yerinə saldı. Ortancıl qızın itdən əmələ gəlib. Nə dedilərsə qancıq kimi mırıldadı. Kiçik qızın imam övladıdır, ikicanlı ola-ola dabanıüstə üç dəfə zirzəmiyə düşüb-çıxdı. Bir dəfə də olsun demədi ki, zirzəmidə qarpız bir dənədir.

İndi, ay mənim balalarım, çalışın peyğəmbər, İmam Əli övladı olun. Həmişə valideynlərinizin başını uca, dilini uzun edin. Onda həyatda həmişə çörək tapacaqsınız.

## *Qızların məhəbbəti*

Padşahın üç qızı olur. Kişi onları böyüdür. Padşah bir gün qızlardan soruşur ki, kim məni nə kimi istəyir? Böyük və ortancıl qız atalarına deyirlər ki, biz səni konfet kimi istəyirik. Sonbeşik deyir, mən səni duz kimi istəyirəm. Kişi qızının bu cavabına qeyzlənir. Onu evdən qovur. Qız qapıda nökər işləyən oğlanla evdən çıxır. Çıxmamışdan qabaq atasına deyir: «Atayi-mehriban, səndən heç nə istəmirəm, bircə barmağındakı sehirli üzüyünü ver». Kişi qızının bu arzusunu yerinə yetirir. Qız nökərə qoşulub çöllü-biyabana tərəf getməyə başlayır. Gəlib düzəngah bir yerə çıxırlar. Yol gəlib yorulmuşdular, həm də bərk acmışdılar. Bir ağacın kölgəsində oturub dincəlmək istədilər. Qız üzüyə üzünü tutub dedi: «Mən istəyən bizə yaxşı bir süfrə hazır elə». O saat dünyanın nazı-neməti süfrəyə düzülür. Onlar doyunca yeyirlər, yaxınlıqdakı bulaqdan su içib sərinləyirlər. Qız üzünü yenidən üzüyə tutub əmr edir: «İndi səndən istədiyim budur: mənə elə bir ev hazırlat ki, heç padşahın imarəti də belə böyük və gözəl olmasın» O saat gözəl bir imarət hazır olur. İmarətin sorağı ətraf yerlərə yayılır. Söz gedib padşaha da çatır. Padşah arvadına deyir ki, gedim görüm bu nə imarətdir ki, mənimkindən gözəldir. Durub yol alır bu imarət tərəfə. Qız eşidir ki, atası gəlir, cürbəcür xörəklər bişirməyə başlayır. Ancaq heç birinə duz vurmur. Padşah imarətə daxil olur, qızını tanıyır, onunla görüşür. Bu vaxt

ərzində qızı cavan və qoçaq olan nökərlə evlənmişdi, padşah kürəkənilə də görüşür. Süfrə salınır, süfrənin üstünə dünyanın nazı-neməti düzülür. Başlayırlar yeməyə. Padşah nəyə əl vurursa, görür hamısı duzsuzdur. Qızından soruşur ki, bu nə sirrdir, heç bir xörəyin dadıduzu yoxdur? Qızı cavab verir: «Atayi-mehriban, sən soruşandakı, məni nə kimi istəyirsən? Mən onda cavab vermişdim: duz kimi. Sənsə qeyzlənib məni saraydan qovdun. Bax, indi görürsənmi, duzsuz xörəklərin tamı olmur. Deməli, dünyada ən gözəl nemət duz imiş. Mən də səni bax, o duz kimi çox istəyirəm».

Padşah tutduğu işdən peşiman olub, qızının alnından öpür.

## *Ay it, üzdən-üzdən*

Bir padşah olur, bunun da ay camallı, ağıllı-kamallı bir qızı. Padşahın sarayında qoçaqlıqda, gözəllikdə ad çıxarmış bir nökəri olur. Padşahın qızı ilə bu nökər bir-birinə aşiq olur. Padşah bundan duyuq düşür. Odur ki, oğlanı imtahana çəkmək istəyir. Yekə, düyünlü bir kötüyü nökərə göstərib deyir: «Bu kötüyü yar, əgər yara bilsən, qızım sənindir. Yara bilməsən, haqq-hesabını çəkirəm, çıxıb bu vilayətdən gedirsən». Nökər sevincək padşahın şərtinə «razıyam» deyir. Gəlir kötüyün yanına, bir o yanına baxır, bir bu yanına, başa düşür ki, yaman yerdə axşamlayıb. Baltanı əlinə alıb, kötüyə ha vurursa, balaca bir kıxmıx da qopara bilmir. Nə qədər paz çalırsa paz qırılıb dağılır.

İmarətin eyvanından bu mənzərəni seyr edən padşah qızı tez aşağa düşür, qulluqçunun itə hazırladığı yalı itin yalağına tökür. Yal isti olduğundan it yalı yeyə bilmir. Qız itə xitabən deyir: «Ay it, üzdən-üzdən ye, tələsmə» Oğlan qızın dediklərini eşidir, işarəni anlayır və başlayır kötüyü uzdən-üzdən çarpmağa. Kötüyü yarıb qurtarır, gəlir padşahın yanına və qızı ondan istəyir. Padşah şərtinə xilaf çıxa bilmir. Qızı nökərə verib qırx gün, qırx gecə toy çaldırır.

Onlar toy edib murazlarına çatdılar, siz də öz murazınıza çatasınız.

## *Gedər xəncər yarası, getməz söz yarası*

Belə söyləyirlər ki, iki qardaş olur. Bunlardan birib vurub-yıxan, qoçaq, iş bacaran, pul qazanan olur. O biri qardaş isə tənbəl, qardaş hesabına yeyib-yatan olur. Böyük qardaş kiçik qardaşın bu tənbəlliyindən canı boğazına gəlir, ailəsini, var-dövlətini də götürüb bu ellərdən çıxıb gedir. Tənbəl qardaş çox gözləyir, az gözləyir, görür heç kim buna yemək gətirmir. Durub yolu əlinə alıb getməyə başlayır. Az gedir, çox gedir, gəlib bir meşəyə çatır. Görür qabaqda bir koğuş var. Koğuşun içinə girir. Görür ki, bura ayının yuvasıdır, ayı da uzanıb yuvada. Tənbəl qardaş ayıya salam verib deyir: "Gəl səninlə qardaş olaq". Ayı razı olur. O gündən başlayaraq ayı gedib ov edir, özü də yeyir, tənbəl qardaşına da gətirir. Arıqlamış tənbəl qardaş günü-gündən kökəlir, dirçəlir. Günlərin birində ayı yenə də ov edib qardaşının ət payını gətirib ona uzadanda tənbəl qardaş deyir:

- Əti ver yeyim, özünsə kənarda dur.

Ayı soruşur:

- Niyə?

- Çünki səndən pis iy gəlir, sənin iyin gələndə ürəyim bulanır.

Koğuş ayının başına fırlanır. Küncdəki xəncəri götürüb tənbəl qardaşa uzadıb deyir:

- Al bu xəncərlə böyrümü yarala.

Tənbəl qardaş əvvəlcə tərpənmək istəmir. Ayı necə qışqırırsa tənbəl qardaş tez ayağa

sıçrayır, xəncəri götürür və ayını yaralayır. Ayı deyir:

- İndi də yaramı sarı.

Tənbəl qardaş onun yarasını sarıyır. Ayı kahadan çıxıb gedir və uzun müddət kahasına qayıtmır. Tənbəl qardaş yenə aclıqdan arıqlayıb çöpə dönür. 40 gün keçəndən sonra ayı əlində ət yenidən kahasına dönür. Əti qardaşa verib əmr edir:

- Ye!

Tənbəl əti yeyib maddım-maddım ayının üzünə baxır.

Ayı təzədən dillənir:

- İndi isə yaramın sarığını aç!

Tənbəl sarığı açır. Ayı deyir: - Sən mənim yarama yaxşı-yaxşı tamaşa eylə. Heç nə yoxdur ki? Yaram sağalıbmı? İndi sən mənə lazım deyilsən, səni parçalayardım. Ancaq sağ buraxıram. Get, bir də bu yerlərə üzükmə!

Odur ki, deyirlər; gedər xəncər yarası, getməz söz yarası. Çalışın heç kimi dilinizlə, əməlinizlə yaralamayasınız.

## *Dovşanın balasına süd verməsi*

Dovşan yeni doğulmuş balalarına deyir:

- Deyin görüm, sizi ü… ü… ü…ç gün əmizdirim, yoxsa bir ay?

Balalar analarının dodağını uzadıb üç gün söyləməyindən elə başa düşürlər ki, üç gün çox, bir ay isə azdır. Odur ki, üç gün deyirlər. Ona görə dovşan balalarını üç gün əmizdirir.

## *Döyməyin nə mənası var?*

Bir ustanın şəyirdi olur. Şəyird hər gün kəsilmiş qoyunun dərisini aparıb çayda isladırmış. Qayıdanda ustası həmişə onu döyürdü. Şəyird ustanın bu hərəkətindən heç nə anlamırdı.

Bir gün şəyird dərini çayda isladarkən çay dərini aparır, şəyird ağlaya-ağlaya ustanın yanına qayıdır. Usta təəccüblə ondan soruşur:

- Ay uşaq, nə olub, niyə ağlayırsan?

Şəyird cavab verir:

- Dərini çay apardı, onunçun ağlayıram ki, birdən məni döyərsən.

Usta gülümsünüb mehribanlıqla şəyirdinə deyir:

- İndiyə qədər səni ona görə döyürdüm ki, dərini axıtmayasan. İndi ki dəri axıb gedib döyməyin nə mənası var?!

***

Yağış yağdı, nəm qaldı,
Aş qazanda dəm qaldı,
Oğlanlar əsgər getdi
Qızlar evdə xam qaldı.

***

Atam deyir qoy görək,
Anam deyir ver gedək.
Dilinə qurban, qardaş,
Bir sən də dillən görək.

***

Arandan gəldim arpadan,
Eşşəkdən yıxıldım tarpadan,
Halım yoxdur səni tərpədəm
Arvad, yerimi sal ayrıca-ayrıca.

***

A Zalxa, Zalxa,
Nəhrəni çalxa-çalxa,
Yeznəm arandan gəlir
Əbası qalxa-qalxa.

***

Gözəllər içində gözəlim itdi,
Başı sirkəlidir, dırnağı bitdi,
Gedirəm gəlirəm, qapı kilitdi,
Evi yıxılsın dul arvadı alanın.

***

Alma arvadın dulunu,
Dalınca gətirər qulunu,
Yeyər malını, pulunu,
Evi yıxılsın dul arvadı alanın.

***

Bu dünyada üç şey başa bəladı,
Yaman qonşu, yaman arvad, yaman at,
İstəyirsən onlardan canın qurtarsın
Birin köçür, birin boşa, birin sat.

***

Vay dədəmin dədəsi
Vurdum çıxdı çənəsi

***

Kolxozun varı dərya-dənizdir,
Onu yeməyən donuzdur.

***

A qoca kişi, fətir ye,
Dişin tutmur batır ye.

***

Qoyun, işlər oldu oyun.

# SON SÖZ

## YADDAŞIN SEHRİ, SÖZÜN SİRRİ

Yazıçı-tədqiqatçı Salatın xanım Əhmədli deyəndə ki, yüzyaşlı anasından (Allah ömür versin!) illərcə topladığı folklor mətnlərini kitab kimi nəşr etmək istəyir, sevindim.

Folklor ekologiyasının ölkəmizdə sürətlə pozulduğu bir dönəmdə xalq ədəbiyyatını istənilən yazıyaalma aktı dərin hörmətə layiqdir. Salatın xanımın folklor həssaslığı və fəhmi ondadır ki, anasını yalnız bir sinədəftər kimi dəyərləndirməyib, həm də onun hər sözündə, söhbətində «folklor cövhəri»ni görə bilib. Axı, Güləbatın ananın şifahi nitqi folklor nitqindən qətiyyən fərqlənmir. Salatın xanım folklor sözünü tanıya bilir - bu, folklorşünaslığın əsas şərtidir.

Bir yarpaq önsözü yazmaq üçün Güləbatın ananı ziyarət etdim.

Fikirləşdim ki, görəsən, övlad öz doğma anasını folklor söyləmə və toplama hədəfi (respondent) kimi necə dilə tuta bilib? Ənənəvi folklor formalarını anasının gündəlik danışığından, nitq davranışından necə ayırıb? Onun öyüd-nəsihətini, alqış-qarğışını bütöv mətnin vahidləri, kommunikativ bloklar, sintaqmalar kimi ayırmaq, folklor nitqi ilə gündəlik nitqi bir çox hallarda fərqləndirmək çətin olur.

Sinəsində nağıllar, dilində dualar, ürəyində inancı olan yüzyaşlı Ağbirçəyimiz danışdıqca

şirin bayatılar, maraqlı ömür-gün hadisələri, ibrətli misallar, hikmətli - sayğılı kəlamlar da söhbət əsnasında yaranır, yox olur yenidən başqa biçimdə və kontekstdə peyda olur... Bütün söyləyicilər kimi, onun dəyər sistemində keçmiş yüksək qiymətləndirilir. Onun üçün «keçmiş» («dünən») mütləq zamandır. Bu gündən isə onun gözü su içmir. «İndi, ay bala, nə ağsaqqal var, nə də ağsaqqal sözü», - deyə təəssüflə köksünü ötürür.

Güləbatın anadan hansısa bir əhvalatı yenidən danışmasını, yaxud dünən (nə vaxtsa) söylədiyi nağılı təkrarlamasını xahiş edəndə fərqli variantlarla üzləşirsən. Bu, folklor düşüncəsinin (yaddaşının) variativliyinin təzahürüdür. Variativliyin sinonimik xarakteri yaddaşdakı passiv fondun aktuallaşmasına, arxaizmlərin qorunub saxlanılmasını şərtləndirir.

Güləbatın ananın söyləmələrinin, söz-söhbətinin öz süjet-təhkiyə məntiqi var. İstənilən kənar müdaxilə təhkiyənin axarını dəyişir və bu zaman başqa bir janr - deyim forması ortaya çıxır. «A bala, canım sənə desin», - deyə sözünə davam edir. Həmsöhbəti (dinləyici) ilə ünsiyyət mətnlərin bir-birinə qarışmasının qabağını alır - bu da mətndənkənar xüsusi bir məkanın yaradıldığını göstərir.

O, nağıl personajları ilə həyatda gördüyü, eşitdiyi personajlar arasında heç bir fərq qoymur. Mifik hadisələrin doğruluğuna, fövqəlqüvvələrin varlığına ürəkdən inanır, real şəxsləri, həyatda görüb eşitdiyi insanları mifo-

loji-tarixi hadisələrin iştirakçısı, yaxud mifoloji epizodların bilavasitə şahidi edir («Fida olduğum Süleyman peyğəmbər iclas keçirirmiş…»)

Güləbatın ana şifahi sözün daşıyıcısı olduğu halda, dünyada bütün məlumatların, ərşin-kürsün sirrinin bir mötəbər, müqəddəs kitabda yazılmasına inanır. Və bir də ürəkdən inanır ki, həmin kitab məhz Poyluda Məhəmməd Sədi kişinin kitabıdır. Ancaq o kitab indi hardadır? - bilmir «Hardasa, buralardadır», - deyir, təkidlə, israrla məndən onu axtarıb tapmağı tələb edir.

Salatın xanım üçün bu mətnlər ilkinliyə, uşaqlığa (mifik zamana), Dədə sözünə və Ana qucağına qayıtmağın mümkünlüyüdür. Bu kitab həm də Ağbirçəklərimizin emosional təhkiyə obrazını, mental düşüncə məntiqini bərpa etməyə, öyrənməyə imkan verən dəyərli mənbədir.

***Rüstəm Kamal***
***Filologiya üzrə fəlsəfə doktoru***

## ANAM MƏNİM – ÖMÜR YÜKÜ, SÖZ YÜKÜ

Anam - Güləbatın Mustafa qızı Rəsulova 1910-cu ilin yaz aylarının birində anadan olub, maması (bibisi) demiş, «Nikolay taxtdan yıxılanda», 6-7 yaşının içində dəcəl bir qız uşağı imiş. Anamın doğulub boya-başa çatdığı dağ kəndi Qazax rayonunun Əskipara kəndidir. Bu kənd çox axarlı-baxarlı bir yerdə yerləşib. Hər tərəfi meşəli dağlarla əhatə olub. Coğaz çayı kəndin içilə axaraq gözəl bir mənzərə yaradır. Meşədə yabanı meyvələr bitir-zoğal,əzgil, fındıq, fıstıq, motmotu, moruq, çiyələk və s.

Kənd əsasən heyvandarlıqla məşğul olurdu. Yayda kəndin əhalisi dağlara - yaylaqlara qalxar, mal-heyvanı yayın istisindən qorumaq üçün yaylaqlarda alaçıqlar qurar, böyüklər mal-heyvanla məşğul olar, qış tədarükü görərdilər. Süd sağar, qatıq çalar, süzmə, qurut düzəldər, nehrə çalxayıb yağ hazırlayardılar. Yaxşı bəslənmiş toğlulardan seçib kəsər, qışa qovurmalıq edərdilər. Axşamlar işlərini rahlayandan sonra isə dövrələmə bardaş qurub oturar, obaya gəlmiş aşıqların söylədikləri dastanlara qulaq asardılar.

Uşaqların işi isə lap «çətin» idi. Səhərlər yağ-pendir, qaymaq, süd üzü, şor-çörək yeyib oynamağa qaçarmışlar. Dan yeri yenicə qızaranda onları oyadarmışlar ki, səhərin təmiz

havasını ciyərlərinə çəksinlər. Gün təzəcə çırtlayanda şehli çəmənlərin üstü ilə qaçışaraq «gizlənpaç», «bənövşə, bəndə düşə», «dirədöymə», «qaçdı-tutdu», «ipdən atdanma» oynayardılar. Alaçığa bir də günortaüstü acanda qayıdıb, «Allah verəndən» yeyərmişlər. Ən çox yedikləri körəməz, ovduq, ağsoğlağı, nəhrə yağında bişirilmiş kəhrəba kimi yumurta qayğanağı, umac, əriştəli isti, əvlikli isti, dolma (küftəyə deyirmişlər), ət qovurması, xaşıl, sarımsaqlı, qurutlu, üstü beçəli xəngəl və bu kimi kənd xörəklərindən yeyib yenidən oynamağa - meşələrə, çəmənliklərə qaçışardılar. Ağacların budağından asdıqları yelləncəkdə yellənərdilər. Kim daha çox yüksəkliyə qalxırdısa o da qalib hesab olunurdu.

Təmiz havada qaçmaqdan, oynamaqdan yanaqları qıpqırmızı olmuş uşaqlar axşamçağı alaçıqlara yığışar, yeməklərini yeyər və adət etdikləri kimi analarının kürəyinə qısılaraq, ya da nənələrinin dizlərinə dirsəklənərək, mürgü vura-vura söz qoşub dastan söyləyən aşıqlara qulaq asardılar. Hərdən də ovurdlarını şişirdib züy tutan zurnaçıya gizlincə gülərdilər.

İllər beləcə qaça-qovla keçir. Anam qızılgül kimi açılan vaxtı Qazağın Poylu kəndinə - bığlı Alı deyilən bir oğlana ərə gəlir. Kolxoz quruculuğu illərində kolxozda işə başlayır, 13 inək, bir camış sağan anam sonralar hektarlarla pambıq becərirmiş. On iki cız pambığın alağını birdən çəkərmiş.

Namərd qonşumuz olan ermənilər ecazkar təbiətə malik olan Əskipara kəndini də zəbt

ediblər. Anam daim doğma kəndindən danışır, gecələr onun fikrilə yatır, yuxudan ayılanda onun nisgililə oyanır. Erməniləri «qansız gavır» adlandırır. Mən əminəm ki, anamın bu nisgilinə son qoyulacaq və o, özü demişkən gor evinə arxayın gedəcək.

Mən qələmimi müxtəlif mövzularda, müxtəlif sahələrdə sınamışam. Ancaq bir mövzu var ki, hələ ona toxunmağa cəsarətim çatmayıb. Bu mövzu müqəddəs ana mövzusudur.

Anamın bu il 100 yaşı tamam oldu. Onun uşaqlarından, nəvələrindən və nəticələrindən başqa 4 kötücəsi var. Kötücəsini görmək çox az adama nəsib olur. Ağzı dualı, sözlü-söhbətli, bayatılı-nağıllı, laylalı-tırınqılı anam çoxlu sayda rəvayətlər, ibrətamiz hekayətlər bilir.

Mən anam haqqında əvvəlki məqalədə indiki zamanda danışırdım. Çünki bu kitabı hazırlayana qədər anam sağ idi. Nədənsə kitabı bitirə bilmirdim. Anamın yanında otururdum, deyirdim ki, ay ana, bildiklərini de, yazım. Sözlərimdən hələ bir az da hirslənib deyirdi: «A bala, mən müəlliməmmi, aliməmmi? Mən savadsız bir adamam. Nə deyim, nə yazasan?» Ancaq bir az keçmiş, necə deyərlər, yaralı bülbül kimi ötməyə başlayırdı. Sözünü bitirib deyirdi: Qurtardı, daha yoxdu. Ancaq səhərisi gün yanında oturanda yenə də keçmişlərdən, olanlardan danışırdı. Demək olardı ki, bu hal hər gün davam edirdi.

İndi anam yoxdu, özü də qurtardı, sözü də qurtardı. Kitabı «bitirə» bildim. Anam

demişkən «o, öldü, haqq dünyaya qovuşdu, bizsə yalançı dünyadayıq».

Əvvəlcə sözümün axırında Anama Allahdan can sağlığı arzulayırdım, indi isə Allahdan ona rəhmət diləyirəm.

Anam danışdığı rəvayətləri, bayatıları, bir sözlə, dilindən eşitdiyim folklor nümunələrini toplayıb oxucuların ixtiyarına verirəm.

***Salatın Əhmədli***
*filologiya üzrə fəlsəfə doktoru*

**Güləbatın Mustafaqızı**
**Salatın Əhmədli**

# HƏR KİM YÜZ İL UNUTMASA...

***Mərkəzin direktoru:  Ş.Alışanlı***
***Baş redaktoru:  T.Kərimli***
***Kompüter tərtibçisi: Nasir***
***Texniki redaktoru:  T.Ağayev***

***Yığılmağa verilib: 15.09.2010***
***Çapa imzalanmışdır: 17.03.2011***
***Tiraj 1000, ş.ç.v. 19,  f.ç.v. 19,5***
***Forma 84x108***

***Bakı – «Elm» - 2011, 304 səh.***